Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 88 (7815) CÜMƏ, 20 aprel 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az | Qiyməti 40 qəpik



## Azərbaycan-Rusiya uğurlu əlaqələri müzakirə edilib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, müdafiə nazirinin birinci müavini Valeri Gerasimovu qəbul edib.

AZƏRTAC xəbər verir ki, Valeri Gerasimov İlham Əliyevi prezident seçkilərində inamlı qələbəsi münasibətilə təbrik etdi və bu seçkiləri xalqın dövlətimizin başçısına olan böyük etimadının göstəricisi kimi qiymətləndirdi.

Azərbaycan Respublikasının Prezidenti təbriklərə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı hərbi və hərbi-texniki sahələrdə Azərbaycan-Rusiya uğurlu əlaqələri müzakirə edildi, gələcək qarşılıqlı faydalı əməkdaşlıq haqqında fikir mübadiləsi aparıldı.

Valeri Gerasimov NATO-nun Avropada Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı ilə görüşünə ölkəmizin evsahibliyi ilə əlaqədar dövlət başçısına minnətdarlıq etdi.

Azərbaycan Prezidenti bu görüşün Bakıda keçirilməsini ölkəmizə olan inamın göstəricisi kimi dəyərləndirdi və görüşün beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi işinə xidmət edəcəyinə ümidvar olduğunu bildirdi.

## Azərbaycan ilə NATO arasında əməkdaşlıq yüksək səviyyədədir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da NATO-nun Avropada Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı Körtis Skaparottinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Körtis Skaparotti İlham Əliyevi prezident seçkilərində qələbəsi münasibətilə təbrik etdi.

Azərbaycan Prezidenti təbrikə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı NATO-Azərbaycan əməkdaşlığının uğurlu inkişafı müzakirə edildi. Keçən ilin noyabrında NATO qərargahına səfər etdiyini vurğulayan dövlət başçısı qeyd etdi ki, səfər zamanı NATO-nun baş katibi ilə aparılan fikir mübadiləsi, Şimali Atlantika Şurasının iclasındakı çıxışı və oradakı müzakirələr bir daha Azərbaycan ilə NATO arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu göstərdi.

NATO-nun Avropada Müttəfiq Qüvvələrinin Ali Baş Komandanı Körtis Skaparotti öz tərəfindən NATO-Azərbaycan əməkdaşlığından çox razı olduğunu məmnunluqla bildirərək Azərbaycanın bu təşkilat üçün çox önəmli tərəfdaş ölkə olduğunu qeyd etdi. O, xüsusən Əfqanıstandakı sülhməramlı əməliyyatlarda Azərbaycanın rolunu yüksək qiymətləndirərək bu əməliyyatlar üçün ölkəmizin tranzit və nəqliyyat imkanlarından istifadə edilməsinin önəmini vurğuladı.

Körtis Skaparotti Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə görüşünə ölkəmizin evsahibliyi etdiyi üçün Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Azərbaycan Prezidenti ümidvar olduğunu bildirdi ki, bu görüş beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi işinə xidmət edəcək.

# Müstəqillik və qələbə yolunun bayraqdarı



## Müstəqillik Azərbaycan xalqının ən böyük sərvəti, nemәti və xoşbəxtliyidir

Yüz yaşlı Azərbaycanın şanlı tarixində yeni bir səhifə açılır. Müstəqillik dövrünün 8-ci prezident seçkilərində hər zaman güc aldığı xalqdan növbəti dəfə etimad mandatı alan cənab İlham Əliyevin Azərbaycana layiqli xidmət missiyasının yeni mərhələsi başlayır.

Andiçmə mərasimində tarixinin ən qüdrətli dövlətinə çevirdiyi Azərbaycanın daha böyük zəfərlərə doğru inamla irəliləyəcəyini söyləyən cənab İlham Əliyev növbəti 7 illik fəaliyyətində də ölkə vətəndaşının maraqlarının, onun rifahının daim diqqət mərkəzində olacağını, yaşayış səviyyəsinin daha da yaxşılaşacağını bəyan etdi.

### Xalqdan güc alan, onun dəstəyinə arxalanan lider

"Mən həmişə Azərbaycan xalqının dəstəyini hiss etmişəm və hiss edirəm. Bu dəstək mənə güc verir. Mən bu dəstəyə arxalanıram və xalqı bir daha əmin etmək istəyirəm ki, bundan sonra da xalqa və Vətənə ləyaqətlə xidmət edəcəyəm".

Andiçmə mərasiminə məhz bu kəlmələrlə başlayan Prezidentin bu fikirləri 15 il öncə, 2003-cü ildə söylədiyi kəlamları bir daha yada saldı. Həmin zaman keçirilən prezident seçkilərində xalqa müraciət edən cənab İlham Əliyev demişdi ki, əgər xalq ona etimad göstərərsə, ulu öndər Heydər Əliyev siyasətinə sadiq qalaraq bu siyasəti davam etdirəcək. Həqiqətən xalq İlham Əliyevə inandı, güvəndi və yekdilliklə onu özünə lider seçdi. Cənab İlham Əliyev isə verdiyi bütün vədlərə əməl etməklə 15 ildə xalqın fəxarət ünvanına, alternativsiz liderinə çevrildi.

### Azərbaycanı qüdrətli, güvənli, istiqrarlı dövlətə çevirən Prezident

Prezident İlham Əliyevin 15 illik siyasi fəaliyyətinə, qazanılan uğurlara nəzər salsaq aydın şəkildə görərik ki, Azərbaycan bir çox aparıcı dünya dövlətlərinin onilliklər boyu keçdiyi təkamül və inkişaf mərhələlərini qısa zaman kəsiyində qət edə bilib.

Dövlət başçısının söylədiyi kimi, Azərbaycan tarix boyu heç zaman indiki kimi qüdrətli, güvənli, istiqrarlı olmayıb. Azərbaycanda dünya ölkələrinin heç birinə bənzəməyən, özünəməxsus iqtisadi və siyasi inkişaf modelinin formalaşması faktı təsdiqini tapıb. İnkişaf fenomeninə çevrilən Azərbaycanın idarəçilik və tərəqqi modeli bir çox ölkələr üçün praktik nümunədir. Hansı ki, bu model qlobal iqtisadi və maliyyə böhranları şəraitində özünü tam doğruldub. Bütün bunlar Prezident İlham Əliyevin yüksək şəxsi və siyasi keyfiyyətləri, hər bir məsələdə qətiyyətli mövqedən çıxış etməsi, xarizması sayəsində əldə edilib.

### Uğurların əsas şərti xalq-iqtidar birliyidir

Dərin və universal böhrandan çıxaraq cəmi 26 il ərzində kosmik dövlətlər sırasına daxil olan, qlobal kataklizmlərlə çalxalanan regionda multikulturalizmin örnəyinə çevrilən, sosial-iqtisadi və hərbi cəhətdən gündən-günə inkişaf edən müstəqil Azərbaycan, cənab İlham Əliyevin yeni inkişaf konsepsiyası ilə daha da qüdrətli dövlətə çevrilmək istiqamətində inamla addımlayır.

Bunun ən başlıca səbəbi isə daxili sabitlikdir. Çünki Azərbaycanda sabitliyin təminatçısı xalqdır və dövlət siyasətidir. Ölkəmizdə xalq-iqtidar birliyinin uğurları göz önündədir. Azərbaycan bu gün dünya miqyasında sabitlik məkanı, sabitlik adası kimi tanınır və bu, ölkəmizin böyük nailiyyətidir.

*Ardı 5-ci səh.*

## Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında

**Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

Azərbaycan dövlətinin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün təmin edilməsi və qorunub saxlanması üçün ölkənin hərbi qüdrətinin artırılması, hərbi-sənaye kompleksinin inkişaf etdirilməsi, silahlı qüvvələrin döyüş qabiliyyətinin gücləndirilməsi və mənəvi-psixoloji vəziyyətinin daha da yüksəldilməsi dövlətin ən ümdə vəzifələridir.

Son illərdə hərbi sahəyə ayrılan xərclərin əhəmiyyətli dərəcədə artırılması ölkənin müdafiə potensialının gücləndirilməsi ilə yanaşı, silahlı qüvvələrdə xidmət edən hərbi qulluqçuların etibarlı sosial müdafiəsinin təmin edilməsinə, mənzil-məişət problemlərinin həll olunmasına, onlara verilən imtiyaz və güzəştlərin miqyasının genişləndirilməsinə şərait yaratmışdır.

*Ardı 2-ci səh.*

## İlham Əliyevdən şəhid ailələrinə böyük töhfə

*8800 nəfərə 11 min manat məbləğində birdəfəlik ödəmə veriləcək*

"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" 19 aprel 2018-ci il tarixli Fərmanın imzalanması ölkəmizdə şəhid ailələrinin etibarlı sosial müdafiəsinin təmin edilməsinin dövlət başçısının uğurlu sosial siyasətində əsas istiqamətlərdən biri olduğunu təsdiq etməklə bu sahədə getdikcə gücləndirilən məqsədyönlü tədbirlərin növbəti davamıdır".

*Ardı 6-cı səh.*




## Azərbaycanın uğurları dünyanı növbəti dəfə Bakıya gətirir

### "Formula-1" Azərbaycan Qran-prisi yarım milyarddan çox azarkeşin diqqətini yenə paytaxtımıza yönəldəcək

Sürət həvəskarlarının diqqəti yenə Bakıya yönəlir. Aprelin 27-29-da Azərbaycanda sayca üçüncü dəfə dünyanın ən mötəbər idman yarışlarından biri - "Formula-1" Azərbaycan Qran-prisi keçiriləcək. İndiyə qədər Bakıda iki dəfə təşkil edilən bu yarışın əvəzsiz təəssüratlarına əsasən deyə bilərik ki, yenə də sürət azarkeşləri Azərbaycan Qran-prisindən xüsusi zövq alacaqlar. Onlar adrenalin dolu saatlarla, unudulmaz anlarla zəngin olan günləri səbirsizliklə gözləyirlər.




Bakı Şəhər Halqası adlanan yarışların keçirildiyi şəhər trekinin paytaxtın ən gözəl yerində seçilməsi ona əlavə rəng qatacaq. İzləyicilər dünyanın ən güclü pilotlarının mübarizəsinə şahidlik etməklə yanaşı, Bakının füsunkar görünüşündən qədərsiz zövq alacaqlar. Yerli azarkeşlərlə yanaşı, dünyanın dörd bir yanından yarış izləyiciləri və turistlər Azərbaycana axışacaq. Keçəndəfəki yarışlarda şahidi olduq ki, təkcə "Formula-1" sürət yarışının Bakıda keçirilməsi ilə bağlı minlərlə əcnəbi ilk dəfə Azərbaycana ayaq basdı. Yüz milyonlarla azarkeş isə dünyanın hər tərəfindən Bakıya tamaşa etdi. Onlar yarışın necə keçməsini təcrübəli tamaşaçı gözü ilə seyr etdilər, zəngin təəssüratlarını getdikləri yerdə hər kəslə bölüşdülər. Onları həm də heyrətləndirən tarixiliklə qədimliyi birləşdirən Bakının ecazkar cazibəsi idi. Azərbaycana ilk dəfə gələn əcnəbilər təhlükəsiz, abad və müasir bir ölkə, onun paytaxtı haqqında az qala hər yerdə ağızdolusu danışdılar. İndiyə qədər yalnız adını eşitdikləri, internet üzərindən tanış olduqları Bakı artıq onlar üçün sevimli diyara çevrilməyə başlayıb. Bir neçə gündən sonra deyilənlərə növbəti dəfə şahidlik edəcəyik.

*Ardı 10-cu səh.*

# Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

*Əvvəli 1-ci səh.*

Bu sahədə dövlət siyasətinin mühüm istiqamətlərindən biri də hərbi qulluqçulara dövlət icbari sığortasının tətbiqidir. 1997-ci il avqustun 2-də "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindikdən sonra hərbi qulluqçuların həlak olması, itkin düşməsi və ya xəsarət alması zamanı sığorta ödənişlərinin verilməsinə dair normativ hüquqi baza formalaşdırılmış, belə ödənişlərlə bağlı maliyyə təminatı məsələsi həll edilmiş və qanuna uyğun olaraq sığorta ödənişlərinin verilməsinə başlanılmışdır.

Həmin qanunun tətbiqindən əvvəl Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş və itkin düşmüş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması məqsədi ilə Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların (bundan sonra - hərbi qulluqçuların) vərəsələrinə bu fərmanla müəyyənləşdirilmiş qaydada 11.000 (on bir min) manat məbləğində birdəfəlik ödəmə verilsin.

2. Birdəfəlik ödəmə bu fərmanın 5-ci hissəsində nəzərdə tutulmuş ümumi siyahıdakı hərbi qulluqçuların Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq müəyyən edilən vərəsələrinə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən verilir.

3. Birdəfəlik ödəmə bu fərmanın 2-ci hissəsində nəzərdə tutulmuş şəxsin müraciəti və notariat qaydasında təsdiq olunmuş aşağıdakı sənədlər əsasında verilir:

3.1. hərbi qulluqçunun ölümü haqqında şəhadətnamə;

3.2. hərbi qulluqçunun ölmüş elan edilməsi haqqında məhkəmə qərarı;

3.3. birdəfəlik ödəməni almaq üçün müraciət etmiş şəxsin vərəsəlik hüququnu təsdiq edən sənəd;

3.4. birdəfəlik ödəməni almaq üçün müraciət etmiş şəxsin bank hesabı nömrəsinə dair arayış.

4. Birdəfəlik ödəmə həqiqi hərbi xidmətdə (toplanışda) olduğu zaman həlak olması, ölməsi və ya xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilməsi ilə əlaqədar əvvəllər sığorta ödənişi verilməmiş, o cümlədən barəsində sığorta ödənişinin verilməsinə dair qanuni qüvvəyə minmiş məhkəmə aktı olmayan hərbi qulluqçuların vərəsələrinə verilir.

5. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ümumi siyahısını Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Ədliyyə Nazirliyi, Xüsusi Dövlət Mühafizə Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Sərhəd Xidməti və digər aidiyyəti dövlət orqanları ilə birgə müəyyən etsin və üç ay müddətində Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim etsin.

6. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi:

6.1. birdəfəlik ödəmənin verilməsinə dair müraciəti bu fərmanın 3-cü hissəsində nəzərdə tutulmuş sənədlərlə birlikdə qəbul edib, onu müraciətlərin vahid elektron reyestrinə daxil etsin və müraciətin daxilolma tarixini və reyestr nömrəsini əks etdirən qəbzi müraciət etmiş şəxsə təqdim etsin;

6.2. hərbi qulluqçunun adının bu fərmanın 5-ci hissəsində nəzərdə tutulmuş ümumi siyahıda olub-olmamasını müəyyən edib, bu fərmanın digər tələbləri nəzərə alınmaqla, birdəfəlik ödəmənin verilməsinə və ya bundan imtina edilməsinə dair qərar qəbul etsin;

6.3. birdəfəlik ödəmənin verilməsinə dair qərar qəbul edilmiş şəxslər barədə məlumatları vəsaitin ayrılması məsələsinin həll edilməsi üçün, mütəmadi olaraq, Azərbaycan Respublikası Maliyyə Nazirliyinin müəyyən etdiyi formaya əsasən həmin nazirliyə təqdim etsin;

6.4. müraciətlərin daxilolma ardıcıllığına uyğun olaraq, birdəfəlik ödəmələrin nağdsız qaydada müvafiq şəxslərin bank hesabına köçürülməsini təmin etsin və bu barədə həmin şəxslərə məlumat versin;

6.5. birdəfəlik ödəmə üçün müraciət etmiş və ödəniş almış şəxslər, həmçinin ödənilmiş məbləğ barədə rüblük məlumatı Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

6.6. hərbi qulluqçunun adını, soyadını və atasının adını daxil etməklə, bu fərmanın 5-ci hissəsində nəzərdə tutulmuş ümumi siyahıda olub-olmamasını yoxlamağa imkan verən internet informasiya resursunun fəaliyyətini təmin etsin.

7. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi:

7.1. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən daxil olmuş məlumatlar əsasında müraciətlərin daxilolma ardıcıllığı nəzərə alınmaqla, birdəfəlik ödəmələrin verilməsi ilə əlaqədar maliyyələşmənin həyata keçirilməsi üçün tələb olunan vəsaitin müvafiq illərin dövlət büdcəsində nəzərdə tutulmasını və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ayrılmasını təmin etsin;

7.2. bu fərmanın 1-ci hissəsində nəzərdə tutulmuş tarixədək baş vermiş sığorta hadisələrinə görə "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş sığorta ödənişlərinin verilməsinə dair qanuni qüvvəyə minmiş məhkəmə aktlarının icrası məqsədi ilə maliyyələşməni təmin etsin;

7.3. bu fərmanda verilmiş tapşırıqların icrası ilə əlaqədar Azərbaycan Respublikasının Prezidentinə illik hesabat təqdim etsin.

8. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Ədliyyə Nazirliyi, Xüsusi Dövlət Mühafizə Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Sərhəd Xidməti bu fərmanın 5-ci hissəsində nəzərdə tutulmuş hərbi qulluqçuların siyahısını müəyyən etmək məqsədi ilə müvafiq məlumatları iki ay müddətində Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə təqdim etsinlər.

9. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olması, ölməsi və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan olunması ilə əlaqədar sığorta ödənişinin verilməsinə dair qanuni qüvvəyə minmiş məhkəmə aktı olan hərbi qulluqçular haqqında bir ay müddətində Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə məlumat versin.

10. Azərbaycan Respublikasının Dövlət Sığorta Kommersiya Şirkəti 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olması, ölməsi və ya xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilməsi ilə əlaqədar sığorta ödənişi verilmiş hərbi qulluqçular barədə bir ay müddətində Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 aprel 2018-ci il*

# Prezident İlham ƏLİYEV: "Azərbaycan xalqı öz taleyinin sahibidir"

*"İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 56-cı kitabı çapdan çıxıb*




"Azərbaycan bir sabitlik adasıdır. Azərbaycanda daxili sabitlik, xalqla iqtidar arasında birlik, vəhdət vardır. Azərbaycanda iqtisadi siyasət möhkəm sosial siyasətlə tamamlanır. Bizim xarici siyasətimiz də birmənalıdır, açıqdır, aydındır və müstəqildir. Bizim müstəqilliyimizin, müstəqil siyasətimizin təməlində də iqtisadi müstəqillikdir. Əgər iqtisadi müstəqillik olmasaydı, əgər biz xarici kreditlərdən asılı olsaydıq, müstəqil siyasət apara bilməzdik. Müstəqillik ən böyük dəyərdir, ən böyük sərvətdir. Müstəqillik o deməkdir ki, xalqımız azaddır, taleyimiz öz əlimizdədir. Azərbaycan xalqı, nəhayət ki, öz taleyinin sahibidir".

AZƏRTAC xəbər verir ki, "İnkişaf məqsədimizdir" çoxcildliyinin 56-cı kitabında yer alan bu fikirlər dövlət başçısının 2013-cü il mayın 10-da ümummilli lider Heydər Əliyevin 90 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində söylədiyi nitqdən götürülüb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin 56-cı kitabındakı materiallar 2013-cü ilin aprelindən mayınadək olan dövrü əhatə edir. Bu kitab Prezident İlham Əliyevin Nazirlər Kabinetinin 2013-cü ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı nitqinin mətni ilə başlanır.

Nəşrdə dövlət başçısının Avstriyaya rəsmi səfəri, Latviya Prezidentinin Azərbaycana rəsmi səfəri zamanı apardığı danışıqlara, keçirilən tədbirlərə dair materiallar, prezidentlərin mətbuata birgə bəyanatları ilə bağlı informasiyalar toplanıb.

Çoxcildliyin bu kitabına Azərbaycan Prezidentinin İndoneziya, ABŞ, Çexiya, Rumıniya, Yunanıstan, İsrail, İspaniya, Gürcüstan, Türkiyə və digər dövlətlərin, İslam Əməkdaşlıq Təşkilatı, Avropa İttifaqı, Avropa Parlamenti, ATƏT, NATO, BP şirkəti və digər beynəlxalq qurumların ölkəmizə səfər etmiş yüksək vəzifəli şəxslərini, Azərbaycanda keçirilən beynəlxalq tədbirlərdə iştirak etmək üçün Bakıya gəlmiş nümayəndə heyətlərini qəbul etməsinə, paytaxtımızda keçirilən I Cənubi Qafqaz Forumunda və digər beynəlxalq tədbirlərdə iştirakına dair materiallar daxil olunub. Azərbaycan Prezidenti bütün görüş və danışıqlarda diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini regionun inkişafına əngəl törədən Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək verməyə çağırıb.

Kitabda dövlət başçısının Azərbaycanda həyata keçirilən uğurlu daxili və xarici siyasətə, iqtisadi potensialın möhkəmlənməsi, ordu quruculuğu, regionların sosial-iqtisadi inkişafının təmin olunması istiqamətində önəmli nailiyyətlərə və ölkə həyatının digər sahələrinə dair nitqləri, çıxışları, habelə "Ali audit qurumlarının potensialının gücləndirilməsinin müasir çağırışları" mövzusunda IV beynəlxalq konfransın, "MDB müsəlmanları sülh və sabit inkişaf tərəfdarıdırlar" beynəlxalq elmi-praktik konfransın, Kənd Təsərrüfatı Kreditləri üzrə Beynəlxalq Konfederasiyanın 43-cü konfransının, "Bakı Ürək Günləri" III Beynəlxalq Konqresinin iştirakçılarına müraciətlərinin mətnləri də yer alıb.

Bu cilddə həmçinin dövlət başçısının Hacıqabul, Abşeron, Qobustan və Şamaxı rayonlarına, Mingəçevir və Sumqayıt şəhərlərinə səfərlərinə, bölgələrdə ictimaiyyət nümayəndələri ilə görüşlərinə, bir sıra mədəni-məişət, sosial və sənaye müəssisələrinin açılışında iştirakına dair materiallar toplanıb.

Kitaba "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri də daxil edilib.

"Azərnəşr" tərəfindən buraxılan 56-cı kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Cənab Prezident!

İcazə verin, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi təbrik edim.

Ümidvaram ki, yeni mandatınız Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin dərinləşdirilməsi, xüsusən də fundamental dəyərlərə və prinsiplərə, o cümlədən siyasi və iqtisadi maraqlarımıza söykənən daha əhatəli yeni ikitərəfli saziş üzrə aparılan danışıqların yekunlaşdırılması üçün zəmin yaradacaq. Bizim vacib hesab etdiyimiz məsələlərin mərkəzində fundamental hüquqlara və demokratik prinsiplərə hörmət hissi dayanır və mən Sizin həmin mühüm dəyərlər istiqamətində qətiyyətli fəaliyyət göstərəcəyinizə əminəm.

Cənab Prezident, ən xoş arzularımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Jan-Klod YUNKER,***
***Avropa Komissiyasının prezidenti***

---

Hörmətli cənab Prezident!

Prezidentliyinizin yeni dönəmində Sizə səmimi qəlbdən ali dövləti vəzifənizin icrasında böyük qüvvət, uğurlar və müvəffəqiyyətlər arzu edirəm.

Almaniya gələcəkdə də Azərbaycanın etibarlı tərəfdaşı olaraq qalacaqdır. Biz birlikdə ikitərəfli münasibətlərimizi genişləndirmək istəyirik. Azərbaycan gələcəkdə də həyata keçirilməsi nəzərdə tutulan islahatlar prosesində daim Almaniyanın dəstəyinə güvənə bilər.

Biz Sizin ölkənizlə əməkdaşlığımızı ATƏT və Avropa Şurası kimi qurumların tərkibində davam etdirməyə ümid edirik və məmnuniyyətlə Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin daha da güclənməsinə səy göstərməyə hazırıq.

*Dərin hörmətlə,*

***Frank-Valter ŞTAYNMAYER,***
***Almaniya Federativ Respublikasının Prezidenti***

---

Zati-aliləri!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Vurğulamaq istərdim ki, Azərbaycan xalqı öz ölkəsinin inkişafına, əmin-amanlığına, təhlükəsizliyinə və sabitliyinə, rifah və uğurların təminatına səs verdi. Keçən dövr ərzində Sizin ölkənizin siyasi, iqtisadi və mədəni sahələrdə inamlı inkişafının şahidi olduq. Əminəm ki, Sizin rəhbərliyiniz ilə Azərbaycan Respublikası daha böyük uğurlara nail olacaq.

Gürcüstan və Azərbaycan əsrlər boyu dostluq, möhkəm mədəni əlaqələr və uğurlu əməkdaşlıq münasibətlərindən məmnunluq hissləri yaşamışlar. Xalqlarımız hər zaman öz gələcəkləri və ölkələrinin rifahı naminə bir-birinin yanında olublar. Ölkələrimiz öz suverenliyi və ərazi bütövlükləri naminə mübarizəyə birgə qoşulmuş və regionda sülhə və sabitliyə nail olmuşlar. İnanıram ki, strateji tərəfdaşlar olaraq, xalqlarımızın mənafeyi naminə əməkdaşlığımızın dərinləşməsi və genişlənməsi uğurlu nailiyyətlərə gətirib çıxaracaqdır.

Cənab Prezident, bir daha Sizə öz dərin ehtiramımı ifadə edir və dost Azərbaycan xalqının əmin-amanlığı və rifahı naminə zati-alinizə xoşbəxtlik, can-sağlığı və ali dövləti vəzifənizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

***Giorgi MARQVELAŞVİLİ,***
***Gürcüstanın Prezidenti***

---

Hörmətli cənab Prezident!

Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə səmimi qəlbdən təbrik etmək istərdim. Bu mühüm və məsuliyyətli vəzifənin icrasında Sizə uğurlar və müvəffəqiyyətlər arzu edirəm.

Mən inanıram ki, Polşa ilə Azərbaycan arasındakı səmərəli əməkdaşlıq və dostluq münasibətləri dinamik inkişaf edərək ölkələrimizə və xalqlarımıza mühüm töhfə verəcək. Keçən ilin iyun ayında Polşaya səfəriniz sayəsində iki ölkə arasında əlaqələr ən yüksək səviyyədə yeni mərhələyə qədəm qoydu. Biz xüsusən də iqtisadiyyat sahəsində birgə layihələrin həyata keçirilməsi vasitəsilə bu əlaqələri daha da genişləndirmək istərdik.

Əminəm ki, Sizin prezidentliyinizin yeni dönəmində Azərbaycan hərtərəfli inkişaf, həmçinin yeni strateji əməkdaşlıq razılaşması çərçivəsində Avropa İttifaqı ilə əlaqələrin genişlənməsi üçün əlavə imkanlar əldə edəcək. Ümidvaram ki, Azərbaycanın mühüm rol oynadığı bir neçə beynəlxalq infrastruktur və nəqliyyat layihələri regionun davamlı rifahını, təhlükəsizliyini və sabitliyini təmin edəcək.

Cənab Prezident, bu xoş fürsətdən istifadə edərək, Azərbaycan Respublikasının müstəqilliyinin möhkəmləndirilməsində və uğurlu sosial-iqtisadi islahatların aparılmasında Sizə müvəffəqiyyətlər arzu edirəm.

*Hörmətlə,*

***Andjey DUDA,***
***Polşa Respublikasının Prezidenti***

---

Hörmətli cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Xorvatiya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Xorvatiya Respublikası ölkələrimiz arasında xalqlarımızın getdikcə daha çox müxtəlif sahələrdəki ortaq maraqlarına xidmət edən tərəfdaşlığı və dost münasibətlərini yüksək qiymətləndirir. İnanıram ki, prezidentliyinizin yeni dönəmində də ölkələrimiz üçün xüsusilə böyük əməkdaşlıq potensialına malik olan və hər iki dövlət üçün mühüm əhəmiyyət kəsb edən iqtisadi və enerji sahələrində sıx münasibətlərimiz davam edəcək. Əminəm ki, Xorvatiya və Azərbaycan şirkətləri arasında əməkdaşlığı genişləndirmək üçün hər iki tərəfdə sərmayə qoyuluşuna maraq oyatmaq xüsusilə çox əhəmiyyətlidir.

Xorvatiya Respublikasına planlaşdırdığınız səfəriniz zamanı Sizinlə görüşməyi səbirsizliklə gözləyirəm və inanıram ki, bu görüşümüz həm ölkələrimiz, həm də vətəndaşlarımız arasında mövcud olan dostluq və konstruktiv əməkdaşlıq münasibətlərinin bundan sonra da inkişaf etməsinə təkan verəcək.

Cənab Prezident, Sizə ən səmimi salamlarımı və ən yüksək ehtiramımı çatdırıram.

*Hörmətlə,*

***Xanım Kolinda Qrabar-KİTAROVİÇ,***
***Xorvatiya Respublikasının Prezidenti***

---

Hörmətli cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Koreya Respublikasının hökuməti və xalqı adından ürəkdən təbrik edirəm. Yüksək səviyyəli liderliyinizin Azərbaycanın davamlı inkişafına öz töhfəsini verəcəyinə inanıram.

1992-ci ildə ölkələrimiz arasında diplomatik münasibətlər qurulduqdan sonra müxtəlif sahələrdə dostluq və əməkdaşlıq əlaqələri inkişaf etdirilib. Ümid edirik ki, qarşılıqlı faydalı və işgüzar əməkdaşlığımızı zati-alinizlə birlikdə gələcəkdə də genişləndirəcəyik.

Sizə cansağlığı, işlərinizdə müvəffəqiyyətlər, ölkənizə isə davamlı inkişaf arzulayıram.

*Hörmətlə,*

***Mun CE-İN,***
***Koreya Respublikasının Prezidenti***

---

Zati-aliləri!

Prezident seçkilərində qələbəniz və dövlət başçısı səlahiyyətlərini yenidən icra etməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan böyük sevinc hissi duyur, dost xalqınızın ümid və istəklərini yerinə yetirmək istiqamətində şərəfli yolunuzun davamında uğurlar arzulayıram.

Sözsüz ki, seçkilərdə yüksək səs çoxluğu ilə qələbəniz xalqınızın Sizin müdrik rəhbərliyinizlə əldə etdiyi uğurları davam etdirmək əzminin əyani sübutudur.

Cənab Prezident, bu xoş fürsətdən istifadə edərək, dost ölkələrimiz və xalqlarımız üçün firavanlıq və rifaha yeni üfüqlər açan bütün sahələrdə qarşılıqlı əməkdaşlıq yollarının inkişafının əhəmiyyətini vurğulamaq istərdim.

Sizə möhkəm cansağlığı və xoşbəxtlik diləyir, Azərbaycan xalqına isə davamlı tərəqqi və rifah arzulayıram.

*Dərin ehtiramla,*

***Əbdülfəttah əs-SİSİ,***
***Misir Ərəb Respublikasının Prezidenti***

---

Zati-aliləri!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırır və ali dövləti fəaliyyətinizdə uğurlar diləyirəm.

Cənab Prezident, yüksək ehtiramımı qəbul edin.

*Hörmətlə,*

***Sauli NİİNİSTÖ,***
***Finlandiya Respublikasının Prezidenti***

---

Zati-aliləri!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Bu xoş fürsətdən istifadə edərək, ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin birgə mənafeyimizə müvafiq olaraq möhkəmlənəcəyinə və inkişaf edəcəyinə əminliyimi bildirirəm. Sizə ölkənizin tərəqqisinə və xalqın rifahına yönələn fəaliyyətinizdə böyük uğurlar arzu edirəm.

*Dərin hörmətlə,*

***Kim En NAM,***
***Koreya Xalq Demokratik Respublikasının***
***Ali Xalq Məclisi Rəyasət Heyətinin sədri***

# Amerika Birləşmiş Ştatlarının 41-ci Prezidenti zati-aliləri cənab Corc Herbert Uoker Buşa

Zati-aliləri!

Həyat yoldaşınız xanım Barbara Buşun vəfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu ağır anlarda dərdinizi bölüşür, əvəzsiz itki ilə əlaqədar Sizə, ailənizin bütün üzvlərinə dərin hüznlə başsağlığı verirəm.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 aprel 2018-ci il*

# Fövqəladə Hallar Nazirliyi ilə Beynəlxalq Atom Enerjisi Agentliyi arasında əməkdaşlıq məsələləri müzakirə olunub

Azərbaycanın fövqəladə hallar naziri vəzifəsini icra edən general-polkovnik Kəmaləddin Heydərov aprelin 19-da Beynəlxalq Atom Enerjisi Agentliyinin baş direktoru Yukio Amano ilə görüşüb.

Fövqəladə Hallar Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, Kəmaləddin Heydərov rəhbərlik etdiyi qurumun beynəlxalq təşkilatlarla, o cümlədən Beynəlxalq Atom Enerjisi Agentliyi ilə sıx əməkdaşlıq etdiyini diqqətə çatdırıb, bir sıra mühüm əhəmiyyətli layihələrlə bağlı birgə fəaliyyətin əhəmiyyətini vurğulayıb. O, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi ilə Beynəlxalq Atom Enerjisi Agentliyi arasında mövcud münasibətlərin daha da dərinləşdirilməsinin vacibliyindən danışıb.

Beynəlxalq Atom Enerjisi Agentliyinin baş direktoru Yukio Amano görüşə görə təşəkkürünü bildirərək birgə uğurlu layihələrin həyata keçirilməsindən məmnun olduğunu qeyd edib, gələcək əməkdaşlığın daha da genişləndirilməsinin əhəmiyyətindən söz açıb.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər və gələcək əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

# Beynəlxalq Atom Enerjisi Agentliyinin baş direktoru Milli Onkologiya Mərkəzində olub

Beynəlxalq Atom Enerjisi Agentliyinin (BAEA) baş direktoru Yukio Amano Azərbaycana səfəri çərçivəsində aprelin 19-da Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzində (MOM) olub.

Mərkəzdən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycanın Avstriyadakı səfiri Qalib İsrafilov, BAEA-nın, həmçinin ölkəmizin Fövqəladə Hallar Nazirliyinin məsul şəxsləri iştirak ediblər.

Qonaqları salamlayan Azərbaycan Milli Onkologiya Mərkəzinin baş direktoru akademik Cəmil Əliyev Y.Amanoya MOM-u ziyarətinə və elmi-texniki əməkdaşlıq sahəsində intensiv əməkdaşlığı dəstəklədiyinə görə təşəkkürünü bildirib. Akademik C.Əliyev Milli Onkologiya Mərkəzində reallaşdırılan əməliyyatlardan, elmi-tədqiqat işlərinin xüsusiyyətlərindən söz açıb, burada baş vermiş mühüm dəyişikliklərdən, mütəxəssislərin peşəkar səviyyəsindən, ultramüasir avadanlıqların iş prinsiplərindən danışıb. Akademik bu gün Milli Onkologiya Mərkəzinin möhtəşəm bir layihə kimi yüksək səviyyəyə gəlib çatmasında, səmərəli fəaliyyətində danılmaz xidmətləri olan dövlət başçısı İlham Əliyevin daimi qayğısı və diqqətini xüsusi vurğulayıb. Cəmil Əliyev daimi dəstəyə və əməkdaşlığa görə Yukio Amanoya, eləcə də Beynəlxalq Atom Enerjisi Agentliyinə bir daha minnətdarlığını bildirib.

Beynəlxalq Atom Enerjisi Agentliyinin baş direktoru Yukio Amano səmimi görüş üçün akademik Cəmil Əliyevə təşəkkürünü bildirib və Milli Onkologiya Mərkəzinin bu cür yüksək səviyyəli fəaliyyətinə və müasir elmi-təcrübi göstəricilərinə görə təbrik edib. Qonaq əhaliyə onkoloji xəstəliklər zamanı yardımın strukturu, nüvə təhlükəsizliyi məsələləri, onkoloji, tibbi və nüvə fizikası sahəsində ixtisaslaşma ilə maraqlanıb. BAEA-nın baş direktoru qeyd edib ki, Milli Onkologiya Mərkəzi kimi yüksək səviyyədə təchiz edilmiş elmi strukturlara hətta Avropa miqyasında da nadir hallarda təsadüf edilir və MOM qonşu dövlətlərin onkoloji xəstələrinə belə yüksək keyfiyyətli yardım göstərmək iqtidarındadır. Y.Amano Milli Onkologiya Mərkəzi ilə gələcəkdə də sıx şəkildə əməkdaşlıq etmək niyyətində olduğunu bildirib.

Qonaqlar mərkəzin radioterapiya şöbəsinin işi ilə tanış olub, Nüvə Təbabəti Mərkəzinə gedib, PET-KT bölümünün və radioaktiv tibbi məhsullar hazırlayan Tsiklotron reaktorunun işi ilə tanış olublar.

Görüşün sonunda Yukio Amano Milli Onkologiya Mərkəzinin muzeyində olub və Fəxri qonaqlar kitabına ürək sözlərini yazıb.

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli Prezident, Əziz Qardaşım!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq hissi duyuram. Ali dövləti vəzifənizdə uğurlarınızın davamlı olmasını, qardaş Azərbaycan xalqının maraqları naminə və ölkənizi bundan sonra da tərəqqiyə doğru aparmaq fəaliyyətinizdə Sizə yeni-yeni nailiyyətlər arzulayıram.

Azərbaycan xalqı Sizə yenidən etimad göstərərək zati-alinizin müdrik dövlət xadimi kimi keyfiyyətlərini, eləcə də Azərbaycanın hərtərəfli və davamlı inkişafı istiqamətində apardığınız əzmkar və yorulmaz fəaliyyətinizi çox yüksək qiymətləndirdiyini nümayiş etdirdi.

Ölkələrimiz arasında səmərəli və dinamik inkişaf edən əməkdaşlıq münasibətlərinin indiki səviyyəsindən məmnunluq duyuram.

Zati-aliləri, ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığı möhkəmləndirmək istiqamətində Sizinlə işləməyə davam etmək istərdim. Bu isə xalqlarımızın maraqlarına xidmət etməyin və onların arasındakı qardaşlıq əlaqələrinin təcəssümüdür.

*Hörmətlə,*

***Əlahəzrət VI MƏHƏMMƏD,***
***Mərakeşin Kralı***

---

Zati-aliləri cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Xorvatiya Respublikasının xalqı adından və şəxsən öz adımdan təbrik edirəm. Yeni Prezidentlik dövründə də ölkənizi tərəqqi yolu ilə irəli aparacağınıza əminəm.

Xorvatiya ilə Azərbaycan arasında münasibətlər xalqlarımızın mənafeyi naminə inkişaf etməkdədir. Bu baxımdan Sizin xalqlarımız arasındakı dost münasibətlərin gücləndirilməsinə şəxsi töhfənizə və qətiyyətinizə inanıram. Bu xoş fürsətdən istifadə edərək, mən qarşılıqlı münasibətlərimizin inkişafının təşviqi üçün əlimdən gələni etməkdə qərarlı olduğumu bildirmək istəyirəm.

Zati-aliləri, xahiş edirəm, ən xoş arzularımı və ən yüksək ehtiramımı qəbul edin.

*Sizə sadiq olan,*

***Stepan MESİÇ,***
***Xorvatiya Respublikasının sabiq Prezidenti***

---

Hörmətli cənab Prezident!

Seçicilərin mütləq əksəriyyətinin səsini qazanaraq yenidən Prezident seçilməyinizdən məmnun oldum. Bu uğur son illərdəki liderliyinizin Azərbaycan Respublikasının xalqı tərəfindən yüksək qiymətləndirilməsi və Sizin rəhbərliyinizlə ölkənin böyük gələcəyi ilə bağlı xalqda olan gözləntilərin gözəl nümayişidir. Bu xoş anda mənim səmimi təbriklərimi qəbul etməyinizi xahiş edirəm.

"BAKUTEL 2016" və "BAKUTEL 2017" sərgilərində Sizinlə görüşməkdən böyük şərəf duydum. Ölkənizdə və dünyada sosial-iqtisadi inkişafın təmin edilməsində informasiya və kommunikasiya texnologiyalarının yaratdığı imkanlar barədə Sizdə olan dərin biliklər və ümumiyyətlə, bu sahəyə, kiçik və orta müəssisələrə, xüsusən də Beynəlxalq Telekommunikasiya İttifaqına göstərdiyiniz güclü dəstəyiniz mənə çox müsbət təəssürat bağışladı. Azərbaycan Respublikası Asiya-Avropa yol xəttinə qoşulmaqla mühüm bir mərkəzə çevrildi. Sizi əmin etmək istərdim ki, ölkəniz və regionunuz üçün ümumi maraq doğuran bütün işlərdə Azərbaycan Respublikası ilə əməkdaşlıq etməyə sadiq olaraq qalırıq.

Gələcək işlərinizdə Sizə böyük uğurlar diləyirəm.

Hörmətli cənab Prezident, mənim ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Houlin ÇJAO,***
***Beynəlxalq Telekommunikasiya İttifaqının baş katibi***

---

Hörmətli cənab Prezident İlham Əliyev!

Vyetnam Sosialist Partiyasının Mərkəzi Komitəsi adından və şəxsən öz adımdan yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə və Yeni Azərbaycan Partiyasına təbriklərimi qəbul edin. Ürəkdən inanıram ki, Sizin rəhbərliyinizlə Azərbaycan Respublikası bundan sonra da firavanlaşacaq, regional və qlobal sülhə, təhlükəsizliyə və inkişafa töhfə verəcək. Vyetnam Sosialist Partiyası və hökuməti Azərbaycan Respublikası ilə ənənəvi dostluq münasibətlərini və müxtəlif sahələrdə əlaqələri genişləndirərək Azərbaycan Prezidenti və Yeni Azərbaycan Partiyasının sədri kimi Sizinlə əməkdaşlığı inkişaf etdirməyə davam edəcək.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və ali dövləti vəzifənizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

***Nquyen Phu TRONQ,***
***Vyetnam Sosialist Partiyası Mərkəzi Komitəsinin baş katibi***

---

Hörmətli cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaq istəyirəm. Sizin inamlı qələbəniz qeyri-sabit və dəyişkən bir regionda Azərbaycanı sabitlik, inkişaf və tərəqqi adasına çevirən uzaqgörən liderliyinizə Azərbaycan xalqının etimadının həqiqi göstəricisidir.

Mən Azərbaycan ilə ABŞ arasında enerji təhlükəsizliyindən terrorizmlə mübarizəyə qədər müxtəlif istiqamətlərdə mövcud olan güclü tərəfdaşlıq və dostluq əlaqələrini yüksək qiymətləndirirəm. Təqdirəlayiq haldır ki, 2001-ci il sentyabrın 11-də baş vermiş mənfur terror aktlarından sonra Azərbaycan Əfqanıstanda terrorizmə qarşı keçirilən əməliyyatlar üçün öz hava məkanını və quru yollarını açaraq, həmçinin İraq və Balkanlarda olduğu kimi, Amerika hərbçiləri ilə çiyin-çiyinə döyüşmək məqsədilə öz əsgərlərini göndərərək, ABŞ-a qeyd-şərtsiz yardım göstərən ilk ölkələrdən biri olmuşdur.

Eyni zamanda, Azərbaycan tərəfindən ABŞ-ın, eləcə də Avropadakı müttəfiqlərimizin və İsrail dövlətinin enerji təhlükəsizliyinin gücləndirilməsinə verilən böyük töhfələri də alqışlayıram. Azərbaycanın əvəzolunmaz və həlledici rol oynadığı Cənub Enerji Dəhlizi bir çox Avropa ölkələrinin öz enerji mənbələrini şaxələndirərək enerji müstəqilliyinə nail olmalarına kömək edəcəkdir. Bu, ABŞ üçün də vacibdir.

Həmçinin münaqişələrlə əhatələnmiş çox mürəkkəb regionda yerləşməsinə baxmayaraq, Azərbaycanın müsəlman, xristian və yəhudilərin dinc şəkildə birgə yaşadıqları uğurlu və beynəlxalq səviyyədə tanınan model yarada bilməsi və dinlərarası tolerantlıq və harmoniya sahəsində mayaka çevrilməsi faktını da yüksək qiymətləndirirəm.

Cənab Prezident, növbəti illərdə də Sizə və ölkənizə davamlı uğurlar və inkişaf arzu edirəm. Səmimi qəlbdən ümid edirəm ki, həyat yoldaşımla birgə ölkənizə bir daha səfər edə biləcəyəm.

*Hörmətlə,*

***Con HEMBRİK,***
***ABŞ-ın Nevada Ştatı Assambleyasının sabiq spikeri və hazırkı üzvü***

---

Hörmətli cənab Prezident İlham Əliyev!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirik. Seçkilərin nəticəsi ölkə vətəndaşları tərəfindən Sizin rəhbərliyinizə və nailiyyətlərinizə verilən qiymətin təcəssümüdür. Məsuliyyətli və səriştəli dövlət başçılarına xüsusilə bu gün, dünyanın üzləşdiyi böyük çətinliklər dövründə həddsiz ehtiyac var.

Zati-aliləri, Sizinlə Bakıda və Nyu-Yorkda keçirilmiş görüşlərimizi böyük məmnuniyyət hissi ilə xatırlayırıq və Sizinlə, hökumətinizin nümayəndələri və Azərbaycan xalqı ilə aramızda yaranmış sıx əməkdaşlığı yüksək qiymətləndiririk.

Bildiyiniz kimi, bizim Sizinlə və ölkənizlə xüsusi münasibətlərimiz var və bir çox mühüm məsələlərdə Sizinlə əməkdaşlığı gələcəkdə də davam etdirmək niyyətindəyik.

Sizinlə ən qısa zamanda görüşməyə ümidvarıq və mövcud qarşılıqlı faydalı əməkdaşlığımızı genişləndirməyi davam etdirmək istəyirik.

*Ən xoş arzularla,*

***Malkolm HONLAYN,***
***Amerika Yəhudi Təşkilatları Prezidentləri Konfransının icraçı direktoru***

---

Hörmətli İlham Heydər oğlu!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Sizin inamlı qələbəniz daha güclü və gündən-günə inkişaf edən Azərbaycanın gələcəyi naminə yürütdüyünüz siyasi xətti seçicilərin yüksək səviyyədə dəstəklədiyini sübut etdi.

Sizin parlaq liderlik keyfiyyətləriniz, müdrik və uzaqgörən siyasi xadim nüfuzunuz doğma Vətənə bundan sonra da sədaqətlə xidmət edəcəyinizin təminatıdır.

Əminəm ki, Sankt-Peterburq ilə Azərbaycan arasında ənənəvi dostluğa və qarşılıqlı hörmətə əsaslanan strateji tərəfdaşlıq bundan sonra da dərinləşəcək və möhkəmlənəcəkdir.

2015-ci ilin oktyabrında Bakıdakı görüşümüzü məmnunluq hissi ilə xatırlayıram və səmərəli əlaqələrimizi bundan sonra da davam etdirməyə ürəkdən şad olaram.

Sizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə uğurlar, tükənməz enerji, yeni-yeni nailiyyətlər arzulayıram.

*Dərin hörmətlə,*

***Georgi POLTAVÇENKO,***
***Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinin qubernatoru***

---

Hörmətli cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Seçkilərdəki parlaq qələbəniz ölkənizi inkişaf etdirmək və Azərbaycan vətəndaşlarının rifahını yaxşılaşdırmaq istiqamətində gördüyünüz işlərə xalqınızın inam və etibarının təcəssümüdür.

Beynəlxalq Güləş Federasiyasının prezidenti vəzifəsində çalışarkən mən Sizin güləşə və ümumilikdə idmana olan güclü dəstəyinizin şəxsən dəfələrlə şahidi oldum.

Zati-aliləri, Sizə möhkəm cansağlığı, ailənizə xoşbəxtlik, Azərbaycan xalqına isə firavanlıq diləyirəm.

*Dərin hörmətlə,*

***Rafael MARTİNETTİ,***
***Beynəlxalq Güləş Federasiyasının sabiq prezidenti***

---

Hörmətli cənab Prezident!

Yenidən Prezident seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Siz böyük xalqın həqiqətən dahi liderisiniz. İnanıram ki, Tanrının izni ilə mənə tezliklə Sizinlə yenidən görüşmək nəsib olacaq.

*Səmimiyyətlə,*

***Stiven SİQAL,***
***Amerika Birləşmiş Ştatlarında Sizin sadiq dostunuz, aktyor və rejissor***

---

Çox hörmətli cənab Prezident, əziz İlham Heydər oğlu!

Sizin yenidən Azərbaycan dövlətinin başçısı seçilməyinizi səmimi qəlbdən alqışlayıram. Zaman və xalq öz sözünü dedi: Siz Azərbaycanın milli liderisiniz! Azərbaycan xalqı dünya şöhrətli siyasi xadim Heydər Əliyevin tarixin sınağından çıxmış siyasi xəttinin layiqli davamçısı, Vətənin gələcəyi naminə yorulmadan çalışan, ölkəni inamla irəliyə aparan dövlət başçısı kimi yenidən Sizi seçdi.

Ali dövləti vəzifənizdə, məsuliyyətli işinizdə Sizə yeni-yeni nailiyyətlər arzulayıram.

Siz Azərbaycanın tərəqqisinin və rifahının qarantısınız.

*Hörmətlə,*

***Sizin Tahir SALAHOV,***
***Rusiya İncəsənət Akademiyasının vitse-prezidenti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ-nin, Azərbaycanın və Rusiyanın xalq rəssamı***

---

Hörmətli cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimizi çatdırırıq. Ümidvarıq ki, yeni prezidentliyiniz dövründə Azərbaycanla Ukrayna arasında ümumi fundamental dəyərlərə və prinsiplərə, habelə qlobal siyasi və iqtisadi maraqlarımıza əsaslanan dostluq münasibətləri daha da dərinləşəcəkdir.

Regionda sabitlik və firavanlıq kimi ümumi məqsədlərə nail olunması, həmçinin Ukrayna və Xarici Ölkə Kazakları Birləşmiş Radasının dəstəyi və yardımı ilə kazakların dirçəlişi yolunda fəaliyyətinizdə uğurlar diləyirik.

*Hörmətlə,*

***Mixail YAMNENKO,***
***"Beynəlxalq Kazak Akademiyası" Beynəlxalq İctimai Təşkilatının prezidenti, ordu generalı***

***Sergey SAMUYLOV,***
***Azərbaycan Respublikasında Ukrayna və Xarici Ölkə Kazakları Birləşmiş Radasının konsulu, Azərbaycan Kazaklar Birliyinin atamanı, kazak general-leytenantı***

***Fikrət VƏLİYEV,***
***Azərbaycan Respublikasında Ukrayna və Xarici Ölkə Kazakları Birləşmiş Radasının iqtisadi məsələlər üzrə müşaviri, "Beynəlxalq Kazak Akademiyası" vitse-prezidentinin müşaviri, general-leytenant***

---

Zati-aliləri!

Azərbaycan Respublikasının Prezidenti seçkilərində layiqli qələbəniz münasibətilə Sizi İslam Əməkdaşlıq Təşkilatının filialı olan Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun idarə heyəti, katibliyi və üzv ölkələri adından səmimi qəlbdən təbrik edir və yeni prezidentliyiniz dövründə Sizə yeni-yeni uğurlar arzulayıram.

Sizin səriştəli rəhbərliyiniz sayəsində Azərbaycan bu gün təkcə İslam Əməkdaşlıq Təşkilatı ölkələri arasında deyil, həm də dünyada nüfuz sahibi olan ölkələrdən birinə çevrilib. Böyük səs çoxluğu ilə qazandığınız qələbə Azərbaycan xalqının ölkədə uğurla həyata keçirilən sabitlik, təhlükəsizlik və inkişaf yönümlü siyasətə bəslədiyi etimadın və güclü dəstəyin bariz nümunəsidir. Əminik ki, növbəti yeddi ildə də Azərbaycan Respublikası Sizin müdrik siyasətiniz sayəsində indiki inkişaf tempini qoruyub saxlayacaq, gündəlikdə duran bütün məsələlərin, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə nail olacaq.

Biz Sizin bütün dünyada gənclərin maraqları naminə İslam Əməkdaşlıq Təşkilatının gənclər strategiyasını həyata keçirən Dialoq və Əməkdaşlıq uğrunda İslam Konfransı Gənclər Forumunun möhkəmləndirilməsinə və inkişaf etdirilməsinə göstərdiyiniz davamlı dəstəyə görə dərin minnətdarlığımızı bildiririk.

Həmçinin Azərbaycan Respublikasının milli maraqlarına xidmət edərək "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində keçirilən tədbirlərdə də əməkdaşlığı davam etdirmək niyyətindəyik.

Zati-aliləri, Sizə Azərbaycan xalqının firavanlığı və ölkəmizin tərəqqisi naminə gələcək fəaliyyətinizdə uğurlar arzulayır, ən yüksək ehtiramımızı qəbul etməyinizi xahiş edirik.

*Dərin hörmətlə,*

***Elşad İSGƏNDƏROV,***
***Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun sədri***

*Türkiyə Respublikası, İstanbul şəhəri*

---

Hörmətli İlham Heydər oğlu!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Siz öz Vətəninizin əsl milli liderisiniz. Sizin bütün fəaliyyətiniz Azərbaycan xalqının rifahının və ölkənin beynəlxalq nüfuzunun möhkəmlənməsinə yönəlib. Prezident seçkilərindəki inamlı qələbəniz Azərbaycan vətəndaşlarının Sizə sonsuz inamının sübutudur. Xalqınız ölkənin iqtisadi və siyasi inkişafını məhz Sizin fəaliyyətinizdə görür. Məhz Sizin siyasi iradəniz və müdrik rəhbərliyiniz sayəsində Azərbaycan Respublikası çətin və böhranlı vəziyyətlərdən ləyaqətlə çıxa bilib.

Hazırda dünya ölkələri arasında ictimai diplomatiyanın yeni formaları bərqərar olmaqdadır. Bu diplomatiyanın əsasında müasir dünyanın mədəni-sivil müxtəlifliyini əks etdirən dostluq, qarşılıqlı anlaşma, əməkdaşlıq, habelə tarixi-mədəni irsin qorunub saxlanması dayanır. Azərbaycan, Rusiya və digər ölkələr arasında xalq diplomatiyasının möhkəmlənməsinə şəxsi töhfənizə görə Sizə dərin minnətdarlığımızı bildiririk.

Hörmətli İlham Heydər oğlu, Sizə möhkəm cansağlığı, tükənməz enerji və ali dövləti vəzifənizdə yeni-yeni uğurlar, qardaş Azərbaycan xalqına isə tərəqqi və rifah arzulayırıq.

Əminik ki, dövlətlərarası ictimai diplomatiya çərçivəsində ənənəvi əməkdaşlığımız xalqlar dostluğunun möhkəmlənməsi və sülhün qorunub saxlanması naminə bundan sonra da inkişaf edəcəkdir.

Hörmətlə,

***Valeri KALYAKİN,***
***"Qələbənin Varisləri" Beynəlxalq İttifaqının prezidenti***

*Rusiya Federasiyası, Moskva şəhəri*

---

Hörmətli cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Türk Dünyası Araşdırmalar Fondu adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm. Bizim fondun Azərbaycanda təhsil sahəsində gördüyü işlərə verdiyiniz dəstəyə görə Sizə minnətdarıq. Azərbaycanı türk dünyasında və beynəlxalq aləmdə inkişaf etmiş nüfuzlu dövlətə çevirmək üçün həyata keçirdiyiniz uğurlu fəaliyyətiniz və liderliyiniz bizim qürur mənbəyimizdir.

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz bizi hədsiz dərəcədə sevindirib. Zati-alinizi bu münasibətlə bir daha təbrik edir, ali dövləti fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirik.

*Dərin hörmətlə,*

***Közhan YAZQAN,***
***Türk Dünyası Araşdırmalar Fondunun baş direktoru***

*Türkiyə Respublikası, İstanbul şəhəri*

---

Möhtərəm cənab Prezident!

Sizi Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə səmimi qəlbdən təbrik edirəm.

Avropada yaşayan və fəaliyyət göstərən Azərbaycan icmaları xalqımızın bu düzgün seçimini dəstəkləyir və məmnunluqlarını ifadə edirlər.

Rəhbərlik etdiyim Avropa Azərbaycanlıları Konqresi Azərbaycan hakimiyyətinin yürütdüyü daxili və xarici siyasəti bəyənir, ona hər zaman yüksək dəstək verir.

Biz - Avropa azərbaycanlıları tarixi vətənimizin bundan sonra da çiçəklənməsini, xalqımızın rifahının daha da yüksəlməsini arzulayır və Sizə bu çətin vəzifədə uğurlar diləyirik.

Sizə cansağlığı və bundan sonrakı prezidentlik dövrünüzdə müvəffəqiyyətlər arzu edirik.

*Dərin hörmətlə,*

***Sahil QASIMOV,***
***Avropa Azərbaycanlıları Konqresinin prezidenti, Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvü***

---

Hörmətli cənab Prezident!

Aprelin 11-də keçirilmiş prezident seçkilərində Azərbaycan xalqı öz gələcəyinə səs verdi. Bu münasibətlə "Paris Azərbaycan Evi" Sizə və Sizin şəxsinizdə Azərbaycan xalqına və hökumətinə səmimi təbriklərini çatdırır.

Azərbaycan xalqı respublikada gedən sürətli inkişafı və əldə olunan uğurları yüksək qiymətləndirdi. Seçkilərdəki inamlı qələbəniz xalqın Sizə bəslədiyi dərin etimad və yüksək nüfuzunuzun danılmaz etirafı, eləcə də xalqın rifahının daha da yaxşılaşmasına, Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsinə yönəlmiş fəaliyyətinizə verilən layiqli qiymətdir.

Əminik ki, regionda sabitliyin qorunması, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, Azərbaycanın dövlət quruculuğu və rifahı naminə səylərinizi əsirgəməyəcək, sosial-iqtisadi inkişaf, elm və mədəniyyət sahələrində yeni-yeni nailiyyətlər əldə edəcəksiniz.

Cənab Prezident, Sizə ali dövləti vəzifənizin yerinə yetirilməsində uğurlar arzulayır, yüksək hörmət və ehtiramımızı qəbul etməyinizi xahiş edirik.

*Hörmətlə,*

***Mirvari FƏTƏLİYEVA,***
***"Paris Azərbaycan Evi"nin sədri, Fransada Azərbaycanın Dostları Assosiasiyasının baş katibi***

---

Möhtərəm cənab Prezident!

Sizi aprelin 11-də keçirilmiş prezident seçkilərində qazandığınız möhtəşəm və parlaq qələbə münasibətilə Azərbaycan-Yaponiya Dostluq Mərkəzi adından təbrik edir, doğma Azərbaycanımız naminə çoxşaxəli, genişmiqyaslı və cəsarətli fəaliyyətinizdə yeni-yeni uğurlar diləyirik. Bu inamlı qələbə xalqımızın Sizə sonsuz etimadının və inamının ifadəsidir.

Sizin zəngin siyasi təcrübəniz, ulu öndər Heydər Əliyevin dövlətçilik ənənələrinə sədaqətiniz dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlılar üçün mühüm qürur mənbəyidir. Xalqımızın rifahının yaxşılaşmasına yönələn daxili siyasətiniz və müasir müstəqil Azərbaycan Respublikasının beynəlxalq aləmdə nüfuzunun daha da möhkəmlənməsi istiqamətində balanslaşdırılmış xarici siyasətiniz doğma Azərbaycanımızın bundan sonra da çiçəklənəcəyinə, müasir dünyanın dövlətləri arasında layiqli yer tutacağına bizdə tam əminlik yaradır.

Hörmətli cənab Prezident, Sizin bu seçkilərdəki qələbəniz müsəlman Şərqinin ilk demokratik respublikası olmuş Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə ən layiqli töhfədir.

Sizə möhkəm cansağlığı, xalqımızın rifahı naminə yorulmaz fəaliyyətinizdə yeni-yeni nailiyyətlər arzulayırıq.

*Hörmətlə,*

***Xəlil KƏLƏNTƏR,***
***Tokioda fəaliyyət göstərən Azərbaycan-Yaponiya Dostluq Mərkəzinin sədri***

---

Çox hörmətli və dəyərli Prezidentimiz!

Azərbaycan Respublikasının Prezidenti seçkilərində qazandığınız möhtəşəm qələbə münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırıram.

Mübaliğəsiz deyə bilərəm ki, 2018-ci il aprel ayının 11-i həyatımın ən xoşbəxt günlərindən biri oldu. Prezident seçkilərində azərbaycanlıların və respublikamızda yaşayan digər millətlərdən olan vətəndaşların etimadı nəticəsində Sizə verilmiş fantastik səs faizi (86,02) tamamilə nadir bir haldır. Mən digər ölkələrdəki prezident seçkiləri prosesində xalqın belə yekdilliyini görmədim.

Keçirilmiş seçkilərin yekunu fenomenal oldu: Azərbaycan xalqı ötən üç dönəm - 15 il ərzində görkəmli siyasi xadim kimi məhz Sizi bu ali vəzifəyə yenidən layiq görüb. Hər kəsə aydın oldu ki, ölkəyə rəhbərlik etdiyiniz illər ərzində Siz dünya siyasətinin dahisi, ulu öndər Heydər Əliyevin qurduğu bünövrə üzərində tamamilə yeni, nadir, müasir və çoxşaxəli, modern iqtisadiyyatı olan müstəqil dövlət yaratmağa müvəffəq oldunuz. Ənənəvi neft və qaz sahəsindən əlavə, digər istehsal sahələrinə aid yeni zavod və fabriklər inşa edildi. Yüngül sənaye və kənd təsərrüfatı daha tutumlu oldu. Avtomobil və dəmir yollarının yüksək inkişaf səviyyəsi heyrətamizdir.

Azərbaycandan Türkiyəyə Bakı-Tbilisi-Qars dəmir yolu layihəsinin gerçəkləşdirilməsinin böyük əhəmiyyətini xüsusilə qeyd etmək lazımdır. Son layihənin həyata keçirilməsi bütün Avropanı heyran edib. Çünki bu layihə Cənubi Asiya regionu ölkələrini bütün Qərbi Avropa ilə birləşdirir. Lap bu yaxınlarda isə qonşu İran istiqamətində Astara-Rəşt dəmir yolunun tikintisinə başlanılmışdır ki, heç bunu ağlımızdan keçirə bilməzdik.

Mən hələ bizim möhtəşəm qaz layihəmiz TANAP-dan danışmıram: Bakıdan bizim qazın Avropa ölkələri üçün Gürcüstan, Türkiyə və Yunanıstan vasitəsilə İtaliyanın cənubuna nəqli Azərbaycan xəzinəsinə milyonlarla avro/dollar gətirəcəkdir. Heç şübhəsiz, milli uğurlar sırasında onu da qeyd etmək lazımdır ki, Siz ən güclü Azərbaycan Ordusunu yaratmısınız və bu ordu erməni işğalçılarını bizim doğma torpaqlardan birdəfəlik çıxarmağa qadirdir. Bunu Sizdən savayı heç kim edə bilməzdi, əziz Prezidentimiz. Məhz bu səbəbdən Sizin yenidən dövlət başçısı seçilməyiniz daha 7 il müddətinə sabitliyin və inkişafın etibarlı təminatıdır.

Hörmətli cənab Prezident, Vətəndən uzaqlarda yaşasam da, Azərbaycanımızın inkişafını və Sizin çoxşaxəli fəaliyyətinizi daim izləyir və bundan qürur duyuram. Sizə möhkəm cansağlığı, ali dövləti fəaliyyətinizdə uğurlar diləyirəm.

*Dərin hörmətlə,*

***Arif MİRZƏYEV,***
***Azərbaycan Respublikasının Almaniyada yaşayan əməkdar artisti, bəstəkar və orqan ifaçısı, beynəlxalq müsabiqələr laureatı***

---

Hörmətli cənab Prezident!

Azərbaycanda keçirilən prezident seçkilərində qətiyyətli qələbəniz münasibətilə Sizi Belqrad şəhərindəki Azərbaycan Mədəniyyət Mərkəzinin çoxsaylı üzvləri adından səmimi qəlbdən təbrik edirik.

Sizin həyata keçirdiyiniz siyasət nəticəsində doğma Azərbaycanımız dövlət quruculuğu, sabit və dayanıqlı inkişaf, eləcə də beynəlxalq əməkdaşlıq sahələrində böyük uğurlar qazanmışdır. Dünyanın bir çox regionlarında gərginliyin artdığı, müxtəlif mədəniyyətlər arasında ziddiyyətlərin gücləndiyi bir dövrdə dövlətimiz nəinki yerləşdiyi mürəkkəb regionda öz təhlükəsizliyini və daxili sabitliyini təmin edə bilir, həmçinin dünyada sülhün, təhlükəsizliyin, əməkdaşlığın və sivilizasiyalar arasında dialoqun genişləndirilməsi prosesinə öz dəyərli töhfələrini verir, regional əhəmiyyətli böyük enerji və infrastruktur layihələrini reallaşdırır.

Azərbaycanın Qərb və Şərq mədəniyyətləri arasında tarixən oynadığı körpü rolunu bu gün də öz xarici siyasətində uğurla davam etdirməsi, Avropa, islam dünyası, eləcə də qlobal səviyyədə dialoq və əməkdaşlığa xidmət edən beynəlxalq tədbirləri uğurla reallaşdırması, dünyanın müxtəlif ölkələri ilə qarşılıqlı inama söykənən əməkdaşlıq əlaqələrinin qurulması onun beynəlxalq aləmdə daha yaxından tanınmasına, dost və tərəfdaşlarımızın artmasına səbəb olmuşdur.

Zati-aliləri, yaranmış imkandan istifadə edərək Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi bir daha təbrik edir, Sizə möhkəm cansağlığı və bu ali dövləti vəzifənizdə uğurlar arzulayırıq.

*Dərin hörmət və ehtiramla,*

***Professor Zərifə ƏLİZADƏ,***
***Belqraddakı Azərbaycan Mədəniyyət Mərkəzinin sədri***

---

Zati-aliləri!

Sizi Azərbaycan Respublikasının Prezidenti seçkilərində qazandığınız qələbə münasibətilə "Ana Vətən" Niderland Azərbaycanlı Qadınlar Birliyi, onun tərkibində fəaliyyət göstərən Nizami Gəncəvi adına Haaqa həftəsonu Azərbaycan dili məktəbinin şagirdləri adından və şəxsən öz adımdan ürəkdən təbrik edirəm.

Hörmətli Prezident, inanırıq ki, Azərbaycanımızın yüksəlişi üçün gördüyünüz böyük işlər bundan sonra da davam edəcək və ölkəmiz beynəlxalq aləmdə daim inkişaf etmiş bir ölkə olaraq tanınacaqdır. Biz - Hollandiyada yaşayan azərbaycanlı qadınlar həmişə Sizin siyasətinizi dəstəkləmişik və bundan sonra da dəstəkləyəcəyik.

*Dərin hörmətlə,*

***Mayisə AĞAMİRZƏYEVA,***
***Haaqadakı "Ana Vətən" Niderland Azərbaycanlı Qadınlar Birliyinin sədri***

---

Zati-aliləri cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi Primorye azərbaycanlıları adından səmimi qəlbdən təbrik edirik. Sizin seçkilərdəki inamlı qələbəniz barədə xəbər Primorye diyarında yaşayan azərbaycanlıların qəlbində xoş duyğular oyatdı. Xalqımızın 11 aprel seçkilərində nümayiş etdirdiyi yekdillik bir daha sübut etdi ki, azərbaycanlılar Vətənimizin rifahı naminə Sizin siyasətinizi və təşəbbüslərinizi tam dəstəkləyir, rəhbərlik istedadınızı və müdrikliyinizi yüksək qiymətləndirir, Azərbaycanın tərəqqisi və sevimli ölkəmizin bütün dünyada nüfuzunun möhkəmlənməsi işində ümummilli lider Heydər Əliyev ideallarına və kursuna sədaqətinizə ehtiramla yanaşırlar.

Sizin qayğıkeş və uzaqgörən rəhbərliyinizlə Azərbaycan Respublikası gündən-günə güclənir və gözəlləşir. Sizin çox dəyərli ideyalarınız və gərgin əməyiniz sayəsində xalqımızın çoxəsrlik ənənələri ilə ən müasir texnologiyaların uzlaşdırılması Azərbaycanın simasını dəyişib, onu bütün dünyada həmvətənlərimiz üçün qürur mənbəyinə, digər millətlərin nümayəndələri üçün isə hörmət obyektinə çevirib.

İcazə verin, Azərbaycan-Rusiya münasibətlərinin möhkəmlənməsinə, tarixi Vətənin hüdudlarından kənarda yaşayan azərbaycanlıların, planetimizin müxtəlif regionlarındakı həmvətənlər təşkilatlarının və birliklərinin dəstəklənməsinə misilsiz töhfənizə görə Sizə çox böyük minnətdarlığımı ifadə edim.

Primorye azərbaycanlıları Sizə möhkəm cansağlığı, tükənməz enerji, Azərbaycanın rifahı naminə bütün işlərinizdə və təşəbbüslərinizdə yeni-yeni uğurlar arzu edirlər.

*Dərin hörmətlə,*

***Mərdan NOVRUZOV,***
***Rusiya Federasiyasının Primorye diyarındakı Azərbaycan icmasının sədri***

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Möhtərəm cənab Prezident!

Ölkəmizdə keçirilən prezident seçkilərində qazandığınız möhtəşəm və tarixi qələbəniz münasibətilə Sizi Solikamsk şəhərindəki Azərbaycan diaspor təşkilatı adından və şəxsən öz adımdan səmimi qəlbdən təbrik edirəm.

Birliyimizin və həmrəyliyimizin əsasında Azərbaycan Respublikasının müstəqilliyi dayanır. Bu müstəqilliyin qorunması, inkişafı və dünya birliyində ölkəmizin mövqeyinin möhkəmləndirilməsi naminə ali dövləti fəaliyyətinizdə Sizə uğurlar və möhkəm cansağlığı arzulayırıq.

Əminəm ki, Azərbaycan hər zaman Sizin rəhbərliyinizlə tərəqqi, quruculuq, sabitlik və müasirlik timsalı olacaqdır. Azərbaycan Sizinlə güclü, Sizinlə qüdrətlidir. Respublikamızda sabitliyin davamlı olması naminə Sizə tükənməz enerji və məqsədyönlü işlərinizdə yeni-yeni uğurlar diləyirəm.

*Hörmətlə,*

***Uğur ƏFƏNDİYEV,***
***Rusiya Federasiyası Perm vilayətinin Solikamsk şəhərindəki Azərbaycan diasporunun sədri***

---

Möhtərəm cənab Prezident!

Birləşmiş Ukrayna Azərbaycanlıları Konqresi və Ukrayna Millətlər Assambleyası adından Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə səmimi qəlbdən təbrik edir, gələcək işlərinizdə uğurlar arzulayırıq.

Sizin xalqımızın yüksək etimadını qazanaraq prezident seçilməyiniz Ukraynada yaşayan 500 mindən çox azərbaycanlının böyük sevincinə səbəb olmuşdur. Aprelin 11-də keçirilmiş prezident seçkilərində qazandığınız parlaq qələbə ulu öndərimiz Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirməyinizin məntiqi nəticəsidir. Qürurla qeyd etmək istəyirik ki, Sizin rəhbərliyinizlə doğma Azərbaycanımız inkişaf edərək dünyanın aparıcı ölkələri arasında öz layiqli yerini tutmuşdur. Dünyanın müxtəlif ölkələrində yaşayan 10 milyonlarla azərbaycanlı bu gün inkişaf və intibah tarixini yaşayan müstəqil dövlətimizlə fəxr edir, bu yolda Sizin yürütdüyünüz uğurlu siyasəti tam dəstəkləyir. Bu şərəfli və məsuliyyətli işinizdə Sizə böyük uğurlar və yeni-yeni nailiyyətlər diləyir, Sizə və ailə üzvlərinizə möhkəm cansağlığı və səadət arzulayırıq.

Möhtərəm Prezident, Sizi əmin etmək istəyirik ki, Ukraynada yaşayan hər bir soydaşımız özünü müstəqil dövlətimizin sıravi əsgəri hesab edir, istənilən vaxt Sizin çağırışınıza qoşularaq işğal altındakı torpaqlarımızın düşmən tapdağından azad edilməsinə hazır olduğunu bildirir. İnanırıq ki, Sizin rəhbərliyinizlə ölkəmiz daha böyük inkişaf yolu keçəcək, tezliklə Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaqdır.

*Hörmətlə,*

***Rövşən TAĞIYEV,***
***Birləşmiş Ukrayna Azərbaycanlıları Konqresinin sədri,***
***Ukrayna Millətlər Assambleyasının rəhbəri***

---

Hörmətli cənab Prezident İlham Əliyev!

Sizi yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Gürcüstanın Bolnisi şəhər rəhbərliyi və burada yaşayan azərbaycanlılar adından səmimi qəlbdən təbrik edirik.

Sizə möhkəm cansağlığı, uzun ömür, Gürcüstan-Azərbaycan dostluğu naminə uğurlar diləyirik.

*Dərin hörmətlə,*

***Lonqinoz HƏSƏNOV,***
***Gürcüstanın Bolnisi şəhər merinin müavini***

---

Hörmətli İlham Heydər oğlu!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Sizin inamlı qələbəniz apardığınız siyasət sayəsində həm ölkə daxilində, həm də onun hüdudlarından kənarda şəxsi nüfuzunuzun daha da güclənməsinin sübutudur. Azərbaycan Respublikasının beynəlxalq aləmdə nüfuzu daha da artıb, ölkə iqtisadiyyat, idman, mədəniyyət və digər sahələrdə daha inamlı qələbələr qazanmaqdadır.

Prezident seçkilərində qazandığınız qələbə biz - qədim Dərbənd əhalisi üçün xüsusən önəmlidir, çünki dövlətlərimiz arasında mehriban qonşuluq əlaqələri hər zaman yüksək dəyərləndirilir. Bu əlaqələr yeni prezidentliyiniz dövründə daha da möhkəmlənəcək, xüsusən iqtisadi və mədəni sahələrdə inkişaf edəcəkdir.

Dost Azərbaycanın tərəqqisi və firavanlığı yolunda fəaliyyətinizdə Sizə yeni-yeni uğurlar arzulayıram.

*Dərin hörmətlə,*

***Həsən MİRZƏYEV,***
***Dağıstan Təhsil və Mədəniyyət Akademiyasının rektoru, professor, Dərbənd Şəhər Deputatlar Məclisinin deputatı***

---

Möhtərəm cənab Prezident!

Yenidən Azərbaycan Respublikasının Prezidenti seçilməyiniz münasibətilə Sizi İsveç Krallığında fəaliyyət göstərən "Azərbaycan Naminə" Cəmiyyəti adından ürəkdən təbrik edir, gələcək işlərinizdə uğurlar arzulayırıq.

Sizin xalqımızın yüksək etimadını qazanmağınız İsveçdə yaşayan azərbaycanlıların böyük sevincinə səbəb olmuşdur. Aprelin 11-də keçirilən prezident seçkilərindəki qələbəniz Sizin ulu öndərimiz Heydər Əliyevin siyasi kursunu uğurla davam etdirməyinizin bariz nümunəsidir.

Fəxrlə qeyd etmək istərdik ki, Sizin rəhbərliyinizlə doğma Vətənimiz inkişaf edərək dünyanın aparıcı ölkələri arasında layiqli yerini tutub. Dünyanın müxtəlif ölkələrində yaşayan milyonlarla azərbaycanlı bu gün inkişaf və intibah tarixini yaşayan dövlətimizlə fəxr edir, bu yolda Sizin yürütdüyünüz uğurlu siyasəti ürəkdən dəstəkləyir.

Bu xoş fürsətdən istifadə edərək, çox şərəfli və məsuliyyətli işinizdə Sizə böyük uğurlar və yeni nailiyyətlər diləyir, zati-alinizə və doğmalarınıza möhkəm cansağlığı və səadət arzulayırıq.

*Hörmətlə,*

***Nadir HOLLENBRAND,***
***İsveç Krallığının Stokholm şəhərində fəaliyyət göstərən "Azərbaycan Naminə" Cəmiyyətin sədri,***
***Avropa Azərbaycanlıları Konqresinin vitse-prezidenti***

---

Hörmətli cənab Prezident!

İcazə verin, Latviya Azərbaycanlılarının "Azəri" Cəmiyyəti adından Sizi Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə ürəkdən təbrik edim.

Biz, Latviyada yaşayan azərbaycanlılar qürur hissi duyuruq ki, Sizin rəhbərliyiniz ilə tarixi Vətənimiz həm sosial-iqtisadi baxımdan, həm də dövlətçiliyin möhkəmləndirilməsi sahəsində gündən-günə tərəqqi edir.

*Dərin hörmət və ehtiramla,*

***Ulduzxan ƏHMƏDOV,***
***Latviya Azərbaycanlılarının "Azəri" Cəmiyyətinin sədri***

---

Möhtərəm cənab Prezidentimiz!

Zati-alinizin yenidən Azərbaycan Prezidenti seçilməsinə qəlbən sevinir və Qırğız Xalq Assambleyasının "Azəri" İctimai Birliyi və qardaş ölkədə yaşayan çoxsaylı soydaşlarımız adından Sizə səmimi təbriklərimizi çatdırırıq.

Siz, eyni zamanda, bütün dünya azərbaycanlılarının Prezidentisiniz.

Həyata keçirdiyiniz dövlətçilik siyasəti Azərbaycanımızın müstəqilliyinin möhkəmləndirilməsini, hərtərəfli inkişafını və beynəlxalq aləmdə mövqeyinin getdikcə yüksəlməsini təmin etdikcə, doğma Vətənimizlə daha çox qürur duyuruq.

Əziz Prezidentimiz!

Ali Baş Komandanı olduğunuz Azərbaycan Silahlı Qüvvələrinin Vətən torpaqlarını işğalçılardan azad edəcəyi günün yaxınlaşdığına əminik və Qarabağda keçirəcəyimiz qələbə bayramını səbirsizliklə gözləyirik.

Zati-alinizə uzun ömür, cansağlığı, səadət və ali dövləti vəzifənizdə bundan sonra da böyük uğurlar arzulayırıq.

***Əzizağa ƏLİYEV,***
***Qırğız Xalq Assambleyasının "Azəri" İctimai Birliyinin prezidenti, Qırğız Respublikasının əməkdar hüquqşünası***

---

## *Cai-Çul ÇOY:* "Bakı 2025-ci ildə Ümumdünya Expo Sərgisinə evsahibliyi etmək qüdrətindədir"

"Bakı 2025-ci ildə Ümumdünya Expo Sərgisinə evsahibliyi etmək qüdrətindədir". AZƏRTAC xəbər verir ki, bu fikri Beynəlxalq Sərgilər Bürosunun qiymətləndirmə missiyasının rəhbəri Cai-Çul Çoy missiyanın Bakıya səfərinin yekunlarına dair mətbuat konfransında deyib.






Aprelin 16-dan ölkəmizdə səfərdə olan Beynəlxalq Sərgilər Bürosunun qiymətləndirmə missiyası səfərini başa vurub. Nümayəndə heyəti yüksək vəzifəli hökumət nümayəndələri və 2025-ci ildə Beynəlxalq Sərgilər Bürosunun Ümumdünya Expo Sərgisinə evsahibliyinə Bakı şəhərinin namizədliyi üzrə İşçi Qrupunun üzvləri ilə görüşlər keçirib.

Maliyyə naziri vəzifəsini icra edən, 2025-ci ildə Beynəlxalq Sərgilər Bürosunun Ümumdünya Expo Sərgisinə evsahibliyinə Bakı şəhərinin namizədliyi üzrə İşçi Qrupunun sədri Samir Şərifov dedi ki, qiymətləndirmə missiyası, həmçinin Milli Məclisin üzvləri, elm və təhsil, gənclər və biznes sektorunun nümayəndələri ilə Bakının namizədliyinə dair müzakirələr aparıb.

Bildirildi ki, nümayəndə heyəti "Expo 2025" Bakı sərgisi üçün ayrılan əraziyə də baş çəkib. 295 hektar sahəni əhatə edən ərazi hava limanına yaxın, şəhərin şərq hissəsində yerləşir və paytaxtın genişləndirilməsi planının bir hissəsidir. Baş plana uyğun olaraq, geniş yaşıllıq zolağına malik olacaq və "Expo 2025" sərgisi üçün ayrılan bu ərazi gələcəkdə dünyanın ən müasir şəhər parklarından birinə çevriləcək. Orada həmçinin Azərbaycanın müstəqillik dövründə əldə etdiyi inkişafı əks etdirən sərgi mərkəzi və Bakı şəhərinin yeni yaşayış qəsəbəsi yerləşəcək.

Samir Şərifov dedi ki, 2025-ci ildə Ümumdünya Expo Sərgisinə Bakının evsahibliyi etməsi ölkəmizin, mədəniyyətimizin və insan kapitalımızın dünya miqyasında daha yaxşı tanıdılmasına vacib töhfə verəcək. Bu sərgi Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu, birinci Avropa Oyunları, "Formula-1" Qran-prisi və bir çox başqa irimiqyaslı tədbirlərə uğurla evsahibliyi etməsindən sonra Azərbaycan üçün bu istiqamətdə atılan növbəti addım olacaq. Bu, müstəqilliyimizi bərpa etdikdən sonra ölkəmizin nail olduğu tərəqqini daha da möhkəmləndirəcək.

İşçi Qrupunun sədri vurğuladı ki, son on ildə Azərbaycan Expo hərəkatının qürurlu iştirakçısı olub. Azərbaycan öz nailiyyətlərini nümayiş etdirmək və Bakıya gəlib sərgidə təmsil olunacaq ölkələr arasında qlobal bilik və təcrübələri bölüşmək üçün dünyanın bütün qitələrini təmsil edən geniş auditoriyanı cəlb etməyə hazırdır. "Expo 2025" Ümumdünya Sərgisinə Bakı şəhərinin evsahibliyi etməsi şəhərimizin, ümumiyyətlə, Azərbaycanın inkişafını sürətləndirəcək. Milli İnkişaf Strategiyamıza uyğun olaraq, Ümumdünya 2025-ci il sərgisi layihəsi biznes imkanlarının yaradılması, yeni tərəfdaşlıqların qurulması, turizmin inkişaf etdirilməsi və yeni iş yerlərinin açılması vasitəsilə iqtisadiyyatımızın şaxələndirilməsinə də töhfə verəcək.

Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi, ölkəmizin Beynəlxalq Sərgilər Bürosundakı nümayəndə heyətinin rəhbəri Elçin Əmirbəyov dedi ki, Azərbaycan Expo hərəkatının fəal üzvüdür. Ölkəmiz 18 il ərzində beynəlxalq sərgilərdə fəal iştirak edib. Son üç sərgidə Azərbaycanın milli pavilyonları müxtəlif nominasiyalar üzrə yüksək mükafatlara layiq görülüb.

Elçin Əmirbəyov qeyd etdi ki, Azərbaycan hökuməti və ölkənin biznes sektoru Bakının namizədliyini tam şəkildə dəstəkləyir. Azərbaycanın iqtisadi gücü və sabitliyi sayəsində Ümumdünya "Expo 2025" Bakı layihəsi bütün sərgi iştirakçıları və qonaqlar üçün möhtəşəm təcrübə vəd edir. O, sərgi üçün təklif edilən mövzudan da danışdı. Qeyd etdi ki, bu mövzu "İnsan kapitalını inkişaf etdirək, daha yaxşı gələcək quraq" mövzusudur. Bu mövzu həm ümumbəşəri xarakter daşıyır, eyni zamanda, Azərbaycan üçün müstəsna əhəmiyyət kəsb edir. Ona görə ki, müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan insan kapitalının inkişafına xüsusi diqqət ayırıb.

Beynəlxalq Sərgilər Bürosunun qiymətləndirmə missiyasının rəhbəri Cai-Çul Çoy səfərin əsas məqsədlərindən danışaraq dedi: "Biz Bakıda böyük qonaqpərvərliyin şahidi olduq. Müxtəlif yüksək səviyyəli görüşlər keçirdik. Missiyanın ilkin rəyi müsbətdir. Azərbaycan, Bakı 2025-ci ildə sərgiyə evsahibliyi etmək qüdrətindədir. Bakı şəhəri sərginin keçirilməsi üçün uyğundur. Müfəssəl layihə may ayında hazır olacaq. Bu ilin noyabr ayında konkret namizəd elan ediləcək".

Beynəlxalq Sərgilər Bürosunun baş katibinin müavini Dimitri Kerkentzes isə Azərbaycanda sadə vətəndaşların da bu sərgiyə müsbət yanaşdığını bildirdi.

Sonra suallar cavablandırıldı.

Samir Şərifov bildirdi ki, Azərbaycanın "Expo 2025" Ümumdünya Sərgisinə evsahibliyi etməsi ilə bağlı maliyyə məsələlərinin dəqiqləşdirilməsi və ətraflı araşdırılması məqsədilə mütəxəssislər cəlb edilib, bunun üzərində hesablamalar aparılır. O əlavə etdi ki, Bakının ev sahibi seçiləcəyi təqdirdə, yeddi il ərzində hər il üçün təxminən 120 milyon avroyadək xərc gözlənilir. Ümumi olaraq, Ümumdünya Sərgisinin meydançasının qeyd olunan ərazidə tikilib hazırlanması üçün həmin dövr ərzində ümumi xərclərimiz 765 milyon avro məbləğində qiymətləndirilir.

---

## *Daimi nümayəndəlik:* "Bəzi müşahidə missiyalarının qərəzli siyasi yanaşma əsasında hazırlanmış ilkin hesabatla çıxış etməsi təəssüf doğurur"

ATƏT-in Daimi Şurasının aprelin 19-da keçirilmiş növbəti iclasında Azərbaycanın ATƏT yanında daimi nümayəndəliyi tərəfindən ölkəmizdə keçirilmiş prezident seçkiləri ilə bağlı bəyanat səsləndirilib.

AZƏRTAC xəbər verir ki, bəyanatda prezident seçkilərinin azad, demokratik, ədalətli və şəffaf şəraitdə 74.3 faiz kimi yüksək seçici fəallığı ilə keçirildiyi vurğulanıb. Qeyd edilib ki, bu, seçicilərin seçki prosesinə etimadının göstəricisidir. Səsvermənin nəticəsində Prezident İlham Əliyevin 86.02 faizlik yüksək göstərici ilə seçicilərin etimadını qazandığı bildirilib, bunun Azərbaycan Prezidenti tərəfindən həyata keçirilən sosial, iqtisadi və siyasi islahatlara geniş ictimai dəstəyin bariz göstəricisi olduğu vurğulanıb.

Qeyd olunub ki, rəsmi nəticələr seçkidən əvvəl və seçki günü yerli və beynəlxalq nüfuzlu təşkilatlar tərəfindən keçirilmiş rəy sorğuları və "exit-poll"ların nəticələri ilə üst-üstə düşür. Bu, bir daha göstərir ki, seçkilərin nəticələri Azərbaycan xalqının iradəsini və fikirlərini əks etdirib.

Bəyanatda prezident seçkiləri ilə əlaqədar bütün hazırlıq işlərinin yüksək keyfiyyətlə və effektiv şəkildə həyata keçirildiyi, bütün fundamental hüquq və azadlıqların, o cümlədən sərbəst toplaşma və söz azadlıqlarının təmin edildiyi, namizədlərə öz seçki kampaniyalarını azad və sərbəst şəkildə təşkil etmələri üçün bütün şəraitin yaradıldığı diqqətə çatdırılıb. Seçkidən əvvəl və seçki günü Azərbaycan tərəfindən nümunəvi şəffaflıq və açıqlıq nümayiş etdirildiyi bildirilib. Diqqətə çatdırılıb ki, seçkilərin 58 min 175 yerli müşahidəçi, o cümlədən QHT-lər tərəfindən irəli sürülmüş 4041 müşahidəçi ilə yanaşı, 59 ölkə və 61 beynəlxalq təşkilatı təmsil edən 894 beynəlxalq müşahidəçi tərəfindən izlənilməsi üçün bütün şərait yaradılıb. Həmçinin 1000 seçki məntəqəsində quraşdırılmış veb-kameralar vasitəsilə onlayn müşahidə aparılıb.

Keçirilmiş seçkilər müşahidəçilərin mütləq əksəriyyəti tərəfindən azad, ədalətli və şəffaf qiymətləndirilib, səsvermə mühüm nailiyyət kimi dəyərləndirilib. Vurğulanıb ki, seçkilər ölkənin demokratik inkişafı və demokratik institutların gücləndirilməsi istiqamətində mühüm mərhələ təşkil edir.

Buna baxmayaraq, ATƏT-in Demokratik Təsisatlar və İnsan hüquqlar Bürosu, ATƏT Parlament Assambleyası və AŞ PA nümayəndələrindən ibarət müşahidə missiyasının ölkəmizə qarşı ədalətsiz mövqe nümayiş etdirməsi, subyektiv iddialar və qərəzli siyasi yanaşma əsasında hazırlanmış ilkin hesabatla çıxış etməsinin dərin təəssüf doğurduğu vurğulanıb.

Azərbaycan daimi nümayəndəliyi tərəfindən bildirilib ki, seçki müşahidə missiyasının hesabatında çoxsaylı bir-birinə zidd olan məqamların və əsassız iddiaların əks olunması bütövlükdə missiyanın bitərəfliyini, obyektivliyini və peşəkarlığını ciddi sual altına qoyur. Fərdi qanun pozuntularının ümumiləşdirilərək, bütünlükdə seçki prosesinə şamil edilməsi missiya tərəfindən öz mandatının aşılması kimi qiymətləndirilir. Azərbaycan tərəfi seçki müşahidə missiyasının ilkin qiymətləndirməsini ədalətli və obyektiv hesab etmir və onu bütünlüklə rədd edir. Müşahidə missiyasının hesabatından asılı olmayaraq, seçkilərdə qərarı Azərbaycan xalqı verir və Azərbaycan xalqı birmənalı şəkildə bu seçimlərdə öz iradəsini ifadə edib.

İclasda ABŞ, Avropa İttifaqı, Qazaxıstan, Rusiya, Gürcüstan, Türkiyə, Belarus, Özbəkistan, Türkmənistan, Tacikistan, Qırğızıstan nümayəndələri çıxış edərək seçkilərlə bağlı fikirlərini bölüşüb və təmsil etdikləri ölkələrin Azərbaycanın yeni seçilmiş Prezidenti və Azərbaycan xalqı ilə əməkdaşlığı daha da inkişaf etdirmək əzmində olduğunu vurğulayıblar.

ATƏT Parlament Assambleyasının nümayəndəsi öz növbəsində Azərbaycanın ATƏT PA üçün əhəmiyyətli ölkə olduğunu və onunla əməkdaşlığa mühüm önəm verdiklərini bildirib. Seçkilərin müşahidəsi ilə bağlı Azərbaycan tərəfi ilə faydalı əməkdaşlıq etdiklərini diqqətə çatdırıb, qurumun sözügedən istiqamətdə Azərbaycan ilə əməkdaşlığı bundan sonra da davam etdirmək niyyətini ifadə edib.

Avropa İttifaqı adından səsləndirilən bəyanatda DTİHB-nin hesabatına istinadən irəli sürülən bəzi iradlarla bağlı Azərbaycan daimi nümayəndəliyi tərəfindən qeyd edilib ki, Azərbaycan tərəfi Aİ-nin yüksək səviyyəli rəsmiləri tərəfindən verilən bəyanatlarla bu qurumun ATƏT yanında nümayəndəliyinin bəyanatı arasında fərqliliklərin olmasını ölkəmizə qarşı nümayiş etdirilən ikili standartlar siyasətinin nümunəsi kimi qiymətləndirir və bu cür yanaşmanı qətiyyətlə rədd edir. Azərbaycanın nailiyyətlərinin Aİ-nin Vyanadakı nümayəndəliyinin diqqətindən yayınması və yalnız mənfi gündəlik üzərində diqqətin cəmlənməsi qəbuledilməzdir.

Daimi nümayəndəlik vurğulayıb ki, Azərbaycan tərəfi maraqlı tərəflərlə bərabərhüquqluluq və qarşılıqlı hörmət əsasında əməkdaşlığa açıqdır və tərəfdaşlarından analoji yanaşma nümayiş etdiriləcəyini gözləyir.

---

## Bu gün Azərbaycan müasir sosial infrastruktura malik ölkədir

Prezident İlham Əliyev andiçmə mərasimində ölkənin keçdiyi inkişaf yolu, görülən işlər və gələcəkdə həyata keçiriləcək layihələr barədə dərin məzmunlu nitq söylədi. Bu həm də dövlət başçısının xalq qarşısında verdiyi hesabat idi.

Prezident ölkə üçün vacib olan bir çox məsələlərlə yanaşı, aparılan sosial infrastruktur layihələrinin əhəmiyyətini qeyd edərək demişdir: "Biz bu illər ərzində ölkə daxilində enerji təminatını yaxşılaşdıra bilmişik. Böyük infrastruktur layihələri icra edilib. Son 15 il ərzində 30-dan çox elektrik stansiyası tikilib. Onların generasiya gücü 3900 meqavata bərabərdir. Müqayisə üçün deyə bilərəm ki, bizim indi ümumi generasiya gücümüz təqribən 6,5 min meqavata bərabərdir. Onun 3,9 min meqavatını biz 15 il ərzində yarada bilmişik. Azərbaycan elektrik enerjisini idxal edən ölkədən ixrac edən ölkəyə çevrilmişdir".

Artıq məlumdur ki, qazlaşma bu ilin sonunadək Azərbaycanda 95 faizə çatacaq. Bu, dünya miqyasında ən yüksək göstəricidir. 2004-cü ildən bu günə qədər ölkəmizdə 15 min kilometr yeni yol çəkilib. Bu istiqamətdə işlər uğurla davam edir. Beynəlxalq və yerli əhəmiyyətli magistral yollarla yanaşı, kənd yollarının yenidən qurulması və ya tikintisi istiqamətində də mühüm layihələr icra edilir. Bu işlər sayəsində artıq yüzlərlə kəndin yolu abadlaşıb.

Xatırladaq ki, 2004-cü ildə Bakının su təchizatı ilə bağlı ciddi problemləri vardı. Həmin dövrdə paytaxt sakinlərinin 29 faizi davamlı təmiz içməli su ilə təmin olunurdu. Bu gün isə həmin rəqəm 81 faizdir. Ölkə üzrə isə 2004-cü ildə təqribən 20 faiz əhali içməli su ilə təmin edilirdi, hazırda bu rəqəm 67 faizə çatıb. Dövlət ölkənin bütün şəhər və kəndlərində yaşayan əhalini təmiz içməli su ilə təmin etməyi qarşısına məqsəd qoyub. Hazırda bu istiqamətdə bir sıra layihələr həyata keçirilir. Onlar başa çatdıqdan sonra ölkə üzrə əhalinin təmiz içməli su ilə təminatı xeyli yaxşılaşacaq.

Bunlardan əlavə, aqrar sektorda həyata keçirilən islahatlar nəticəsində daha çox torpaq sahələri əkin dövriyyəsinə daxil edilib. Meliorasiya tədbirləri çərçivəsində 4 böyük su anbarı tikilib və yüzlərlə subartezian quyusu qazılıb. Bunun sayəsində son bir neçə il ərzində hər il 100 mindən çox hektardan çox əkin sahəsinə suvarılma suyunun verilməsi təmin edilib. Elə buna görə də son dövrlər kənd təsərrüfatı məhsullarının ixracının dinamikasında böyük artım qeydə alınıb.

Ölkə daxilində nəqliyyat infrastrukturunun inkişafı üçün də mühüm layihələr icra olunub. 7 aeroport tikilib, onlardan 6-sı beynəlxalq statusa malikdir. Həmin aeroportlar fəaliyyət göstərir, ölkəyə turistlərin gəlməsini və yük daşınmasını təmin edir. Ələtdə Xəzər dənizində ən böyük yeni ticarət limanı tikilir və o, yaxın gələcəkdə tam istifadəyə veriləcək.

Aparılan islahatlar sayəsində iqtisadiyyatımızın bütün sahələrində olduğu kimi, elektroenergetikada da sürətli inkişaf təmin edilib. Enerji verilişini yüksək səviyyədə təmin etmək üçün son illər 44 ədəd 110, 167 ədəd 35 kilovoltluq yarımstansiyalar və 5 mindən çox transformator məntəqəsi inşa olunub, 54 min kilometr hava və kabel xətti çəkilib. Görülən işlər nəticəsiz qalmayıb. Belə ki, əvvəllər regional şəbəkələrdə xroniki hal almış ifrat yükləmələr, qəza açılmaları minimuma endirilib, şəbəkələrin güc qəbul etmək qabiliyyəti 2 dəfədən çox artıb. Bunun sayəsində texniki itkilər Bakı şəhəri üzrə 7,8, regionlar üzrə 11,4 faizə enməklə "Azərişıq" üzrə 9,6 faiz təşkil edib.

Son dövrlər "Azərişıq" ASC-də investisiya qoyuluşu da yüksək olub. O cümlədən, uçotun bərpa olunması və itkilərin xeyli dərəcədə azalması hesabına ASC-nin gəlirləri artıb və paylayıcı şəbəkələrin yenidən qurulmasına qoyulan investisiyalar qısa müddət ərzində özünü doğruldub.

"Azərişıq" təkcə Bakıda deyil, regionların sosial-iqtisadi inkişafına dair 2014-2018-ci illər üzrə Dövlət Proqramı çərçivəsində bölgələrdə də fəaliyyətini yenidən qurub. Qeyri-neft sektorunun, o cümlədən kənd təsərrüfatının, eləcə də meliorasiyanın enerji təchizatını yaxşılaşdırmaq üçün 110 kilovoltluq 5,35 kilovoltluq 35 yarımstansiya tikilib, 110 kilometrdən çox elektrik xətti çəkilib, 450 komplekt transformator məntəqəsi quraşdırılıb. Görülən işlər sayəsində qeyd edilən sahələrin enerjiyə olan tələbatı xeyli yaxşılaşıb.

"Azərsu" Açıq Səhmdar Cəmiyyəti də sosial infrastruktur layihələrinin icrasında mühüm rol oynayır. ASC tərəfindən indiyədək 30-dan çox içməli su mənbəyi istismara verilib. Oğuz-Qəbələ-Bakı su kəməri, Ceyranbatan ultrasüzgəcli təmizləyici qurğular kompleksi, Mingəçevir, Quba, Xanbulan sutəmizləyici, Külüllü, Qızılqaya, Göygöl suqəbuledici qurğuların, Şirvan-Muğan, Sabirabad-Saatlı qrup su kəmərləri və digər lokal mənbələr xüsusi önəm daşıyır. İcrasına başlanılan 50 şəhər və rayon mərkəzinin 23-də su və kanalizasiya, 10-da su şəbəkələrinin tikintisi başa çatdırılıb. Bölgələrdəki rayon mərkəzləri ilə yanaşı, əhalinin sayı ümumilikdə 630 min nəfər olan 520 kənddə də müxtəlif layihələr icra edilib.

Bunlardan başqa, təkcə ötən il 28 rayonun 170 kəndində 530 kilometr magistral və paylayıcı su xətləri çəkilib, 1432 bulaq tikilib. Bununla da 271 min nəfər əhalinin keyfiyyətli içməli suya olan tələbatı ödənilib. Ötən il dövlət büdcəsindən ayrılan vəsait hesabına Abşeron yarımadasının 18 qəsəbəsində başlanan işlər də cari ilin ilk ayında başa çatdırılıb.

Regionların sosial-iqtisadi inkişafı ilə bağlı həyata keçiriləcək layihələrin icrası sayəsində cari ildə Ağdaş, Qəbələ, Daşkəsən, Xaçmaz, Xızı, Ağcabədi şəhərlərində su və kanalizasiya şəbəkələrinin, Astara şəhərində su şəbəkəsinin inşası başa çatdırılacaq. Daşkəsən, Göyçay, Qəbələ şəhərlərində isə sutəmizləyici qurğunun tikintisi yekunlaşacaq və əlavə 10-dan çox şəhərdə belə qurğuların tikintisinə başlanılacaq.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***



NORM
ƏSL SEMENT

11 aprel 2018-ci ildə Azərbaycan xalqı ölkəmizin rifahı, davamlı inkişafı və xoşbəxt gələcəyi uğrunda müstəqil iradəsini yekdil şəkildə ifadə edərək öz Prezidentini seçdi.
Norm şirkəti Zati-aliləri cənab İlham Əliyevin yenidən Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilməsi münasibətilə xalqımızı təbrik edir, bu qəti qələbənin dövlətimizə daha böyük uğurlar, nailiyyətlər gətirəcəyinə inanır.

norm.az

# Müstəqillik və qələbə yolunun bayraqdarı

*Əvvəli 1-ci səh.*

## Bu gün Azərbaycan xalqı öz taleyinin sahibidir

Andiçmə mərasimində son 15 il ərzində Azərbaycanda gedən demokratik inkişaf proseslərinə bir daha nəzər yetirən cənab İlham Əliyev öncə vurğuladı ki, qısa zaman ərzində müstəqil Azərbaycanda bütün azadlıqlar təmin edilib.

Dövlət siyasi islahatları dərinləşdirərək bütün azadlıqları - söz azadlığını, mətbuat azadlığını, sərbəst toplaşma azadlığını, siyasi fəaliyyət azadlığını təmin edib: “Demokratik inkişafla bağlı bizim siyasətimiz çox düzgün siyasətdir və bizim milli maraqlarımızı təmin edir. Biz bunu kiminsə xoşuna gəlmək üçün yox, ona görə edirik ki, Azərbaycanda siyasi islahatlar daha da dərinləşsin, Azərbaycan xalqı həmişə öz taleyinin sahibi olsun, necə ki, bu gün Azərbaycan xalqı öz taleyinin sahibidir və seçkilər, onun nəticələri bunu bir daha təsdiqləyir”.

## Namizədlərin dəyərli təklifləri nəzərə alınacaq

Dövlət başçısı seçki prosesində ona rəqib olan namizədlərin fəaliyyətinə də toxundu. Qeyd etdi ki, təbliğat-təşviqat prosesi zamanı namizədlərin çıxışlarında kifayət qədər kəskin tənqidi fikirlər səslənib. Bütün bunlar müsbət hal kimi qiymətləndirilməlidir. Çünki bu, siyasi mübarizənin düzgün istiqamətdə inkişaf etməsindən xəbər verir.

Prezident həmçinin namizədlər tərəfindən qaldırılmış məsələlərə diqqətlə baxılacağını və dəyərli təkliflərin nəzərə alınacağını vurğuladı: “Bir sözlə, bu 15 il ərzində biz çalışmışıq ki, Azərbaycanda siyasi mübarizə sivil qaydada təmin olunsun və buna böyük dərəcədə nail ola bilmişik. Fürsətdən istifadə edərək, seçkilərdə iştirak etmiş bütün namizədlərə öz təşəkkürümü bildirirəm, onlara gələcəkfəaliyyətlərində uğurlar diləyirəm”.

## Marginallaşmış antimilli qüvvələrin yeri tarixin zibilxanasıdır

Bu bir həqiqətdir ki, Azərbaycanda istənilən mühüm ictimai-siyasi proseslər həyata keçirilən zaman antiazərbaycançı şəbəkə öz köhnə peşəsinə sadiq qalaraq çirkin kampaniyalara başlayır. Onların daxildəki buyruq qulları da “canla-başla” tapşırıqları yerinə yetirirlər.

Bu qüvvələr prezident seçkiləri ərəfəsində “aktivləşsələr” də, niyyətləri, həmişə olduğu kimi, ürəklərində qaldı.

Prezident İlham Əliyev isə antimilli qüvvələrə əsl yerlərini göstərdi: “O ki qaldı, antimilli qruplaşmaya, onlar tam marginallaşıb. Bu seçkilər bir daha göstərdi ki, onların Azərbaycanın siyasi səhnəsində yeri yoxdur. Onların yerini Azərbaycan xalqı çoxdan müəyyən edib, bu da tarixin zibilxanasıdır. Xarici qrant, ianə hesabına fəaliyyət göstərən, öz dövlətinə qarşı çıxış edən, bir çox hallarda milli satqınlıq nümayiş etdirən ünsürlərə Azərbaycan xalqı bir daha öz yerini göstərdi. Seçkilərdən əvvəl və seçkilərdən sonra onların təşkil etdikləri yığıncaqlar bir daha onu göstərir ki, Azərbaycan xalqı heç vaxt imkan verməz ki, xaricdən idarə olunan qruplaşma Azərbaycanda hansısa mövqeyə sahib olsun. Biz bundan sonra da demokratik inkişafla bağlı səylərimizi artıracağıq, gələcək fəaliyyətimizdə də bu istiqamət önəmli yer tutacaqdır”.

## İşğalçı Ermənistan bütün regional layihələrdən təcrid ediləcək

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqaməti ilə bağlı aparılan danışıqlara gəlincə Prezident qeyd etdi ki, Azərbaycan hökumətinin münaqişə ilə bağlı prinsipial mövqeyi xalq tərəfindən dəstəklənir.

Ona görə də bu siyasətdən heç zaman geri çəkilməyəcək, bundan sonrakı illərdə də işğalçının bütün regional işlərdən təcrid edilməsi, ifşa olunması üçün səylər göstəriləcək: “Yaxın tarix və bölgədə gedən proseslər göstərir ki, bir çox hallarda beynəlxalq hüquq normaları işləmir. Kim güclüdür, o da haqlıdır. Biz bunu dəfələrlə görmüşük, bu gün də görürük. Demək olar ki, son 15 il ərzində beynəlxalq davranış qaydaları dəyişdi, beynəlxalq hüquq normaları arxa plana keçdi. Güc amili daha önəm qazandı. Bu, reallıqdır. Biz real həyatda yaşayırıq və reallıqla hesablaşmalıyıq.

Aprel döyüşləri bizim şanlı tariximizdir, böyük qələbəmizdir. Bizim hərbi qələbəmiz Azərbaycan xalqının gücünü, yenilməz ruhunu göstərir. Onu göstərir ki, Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. Bunu göstərir ki, biz öz torpaqlarımızı azad edəcəyik. Buna nail olmaq üçün daha da güclü olmalıyıq və olacağıq”.

## Ölkə vətəndaşının rifahı daim diqqət mərkəzində olacaq

Son 15 il ərzində sosial məsələlərin həllinə çox böyük diqqət göstərildiyini deyən Prezident bütün bunları rəqəmlərin də təsdiqlədiyini dedi. Rəqəmlərə nəzər yetirdikdə görərik ki, son 15 ildə ölkədə maaşlar təxminən 7 dəfə, pensiyalar 10 dəfədən çox artıb, 3100-dən çox məktəb tikilib və təmir edilib, 280-290 min məcburi köçkün yeni mənzillərlə təmin olunub, 640-dan çox xəstəxana, 30 elektrik stansiyası, 4 su anbarı, 7 beynəlxalq aereport tikilib və təmir edilib, bölgələrdə 43 Olimpiya İdman Mərkəzi yaradılıb, 13 “ASAN xidmət” mərkəzi açılıb, 443 körpü-tunel tikilib, 15 min kiliometrlik yol çəkilib, qazlaşdırma 93 faizə çatıb.

Bütün bunlar göstərir ki, sosial siyasət daim diqqət mərkəzindədir: “Dəfələrlə bu məsələ ilə bağlı fikrimi bildirmişəm, bir daha demək istəyirəm ki, gələcək fəaliyyətimdə də Azərbaycan vətəndaşının maraqları, onun rifahı daim diqqət mərkəzində olacaqdır. Nəzərə alsaq ki, növbəti illərdə biz çox ciddi islahatlar aparacağıq, islahatları dərinləşdirəcəyik, əminəm ki, vətəndaşlarımızın yaşayış səviyyəsi daha da yaxşılaşacaqdır”.

Dövlət başçısı onu da vurğuladı ki, yoxsulluğa qarşı mübarizədə Azərbaycan böyük uğurlara imza atıb. Bu məsələlərlə məşğul olan bütün beynəlxalq təşkilatlar bunu nümunə kimi göstərirlər ki, ölkəmizdə yoxsulluq təxminən 50 faizdən 5,4 faizə düşüb. İşsizliklə bağlı böyük işlər görülüb və bu gün Azərbaycanda işsizlik 5 faiz səviyyəsindədir.




## Əlavə gəlirlər ölkənin inkişafına yönəldiləcək

Bu müddət ərzində ciddi iqtisadi islahatların aparıldığını vurğulayan cənab İlham Əliyev bildirdi ki, daim iqtisadiyyatı güclü olan ölkələr müstəqil siyasət apara bilirlər. Azərbaycan iqtisadiyyatı isə son 15 il ərzində 3,2 dəfə artıb. Bu isə çox böyük göstəricidir.

Son 15 ildə ölkə iqtisadiyyatına 231 milyard dollar sərmayə qoyulub, valyuta ehtiyatları 24 dəfə artaraq 44,2 milyard dollara yüksəlib, Xəzər dənizində 270 gəmidən ibarət hərbi donanma yaradılıb, açıq okeana çıxışı olmayan ölkə qısa zamanda regional nəqliyyat dəhlizinə, logistik mərkəzə, təbii qaz ixracatçısına, kosmik dövlətə çevrilib.

“Əsrin müqaviləsi” 2050-ci ilədək uzadılıb, Bakı-Tbilisi-Qars dəmir yolu xətti istifadəyə verilib, 2 milyard ton neft hasil edilib. Azərbaycan həmçinin “Şərq-Qərb”, “Şimal-Cənub” nəqliyyat dəhlizləri, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biri olan dörd layihədən ibarət (“Şahdəniz-2”, Cənubi Qafqaz Boru Kəməri, TANAP və TAP) “Cənub qaz dəhlizi” kimi 40 milyarddan çox investisiya yatırılan layihələrin əsas təşəbbüskarlarından biridir. Bu il “Cənub qaz dəhlizi”nin 3 seqmenti - “Şahdəniz-2”, Cənubi Qafqaz Boru Kəməri, TANAP istifadəyə veriləcək.

Bütün bu uğurları Prezident belə dəyərləndirib: “Biz artıq Avrasiyanın enerji xəritəsini dəyişdirmişik. Bundan sonrakı illər ərzində Azərbaycan Avrasiyada çox önəmli enerji resurslarını dünya bazarlarına çıxaran ölkə kimi fəaliyyət göstərəcək. Əlbəttə, bizə əlavə gəlirlər gələcək ki, bu gəlirləri də biz ölkəmizin inkişafına yönəldəcəyik”.

## Daha da qüdrətli ölkəyə çevriləcəyik

Bir sözlə, müstəqil Azərbaycan son 15 il ərzində Prezident İlham Əliyevin məqsədyönlü, düşünülmüş siyasəti ilə kifayət qədər böyük uğurlar qazanıb.

Lakin dövlət başçısı bu nailiyyətlərin məqsədə çatmaq üçün kifayət etmədiyini vurğulayaraq gələcəyə inamla baxmağı vacib hesab edir. Növbəti illərdə görüləcək işlər haqqında dövlətin çox aydın planlarının, proqramlarının olduğunu deyən Prezident Azərbaycanı daha da qüdrətli ölkəyə çevirəcəyini əminliklə vurğulayıb: “Azərbaycanın güclü siyasi iradəsi, böyük maliyyə resursları var və ölkəmiz indi öz hesabına yaşayan dövlətdir. Ölkədə xalq-iqtidar birliyi var. Ona görə mən əminəm ki, bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq. Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar”.

Bütün bu uğurların ancaq müstəqillik dövründə qazanıldığını diqqətə çatdıran dövlət başçısı müstəqilliyi xalqımızın ən böyük sərvəti adlandırdı: “Azərbaycan xalqı müstəqilliyimizin üstünlüklərinin nədən ibarət olduğunu yaxşı bilir. Bizim taleyimiz öz əlimizdədir, biz öz taleyimizin sahibiyik. Biz ancaq müstəqillik dövründə belə böyük uğurlara nail ola bilərdik. Bu gün müstəqillik bizim üçün ən böyük sərvətdir, ən böyük nemətdir, ən böyük xoşbəxtlikdir. Biz bundan sonra da müstəqillik və qələbələr yolu ilə gedəcəyik”.

***Rəşad BAXŞƏLİYEV,***
***“Azərbaycan”***

# İlham Əliyevdən şəhid ailələrinə böyük töhfə

## *8800 nəfərə 11 min manat məbləğində birdəfəlik ödəmə veriləcək*

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsini icra edən Səlim Müslümov jurnalistlərə müsahibəsində deyib.

Bildirilib ki, şəffaf və ədalətli şəkildə keçirilən prezident seçkilərində 86,02 faiz səslə möhtəşəm qələbəyə nail olaraq yenidən Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilən İlham Əliyevin andiçmə mərasimindən sonrakı gündə və ilk olaraq mühüm sosial müdafiə əhəmiyyəti daşıyan belə bir fərman imzalaması növbəti 7 ildə də sosial inkişaf kursunun uğurla davam etdiriləcəyini əyani şəkildə sübut edir. Həmin mərasimdə çıxışı zamanı Prezidentin gələcək fəaliyyətində də Azərbaycan vətəndaşının maraqlarının, rifahının daim diqqət mərkəzində olacağını bəyan etməsi bir gün sonra bu fərmanla bir daha gerçək təcəssümünü tapır.

Ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş qəhrəman Vətən övladlarının ailə üzvlərinin rifah halının yaxşılaşdırılması məqsədilə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən əsası qoyulan tədbirlərin son 15 ildə yüksək səviyyədə davam etdirildiyini diqqətə çatdıran S.Müslümov şəhid ailələrinə, həmin döyüşlərdə əlil olmuş insanlara dövlət qayğısının daim artdığını, bu məqsədlə icra olunan proqramların daha da genişləndirildiyini qeyd edib: “Həmin təbəqələrə aid vətəndaşların mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması istiqamətində işlər ildən-ilə gücləndirilməklə, ötən dövrdə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 6,1 mindən çox müasir tələblərə uyğun yeni mənzil inşa etdirilərək əlil və şəhid ailələrinin istifadəsinə verilib, 6 min nəfərdən çox müharibə əlili və onlara bərabər tutulan vətəndaş minik avtomobili ilə təmin edilib. Onlara verilən imtiyaz və güzəştlərin miqyası da genişləndirilməklə, Prezident İlham Əliyevin müvafiq fərmanları ilə 2007-ci ildən şəhid ailələrinin, 2008-ci ildən müharibə əlillərinin Azərbaycan Respublikası Prezidentinin təqaüdləri ilə təminatına başlanılıb. Ötən dövrdə bu təqaüdlərin, habelə, onlara ödənilən müavinətlərin, pensiyaların dəfələrlə artırılması təmin olunub”.

S.Müslümov vurğulayıb ki, 19 aprel 2018-ci il tarixli fərman isə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş və itkin düşmüş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılmasında daha bir əhəmiyyətli addım kimi ümumən cəmiyyət tərəfindən rəğbətlə qarşılanıb. “Məlum olduğu kimi, 1997-ci il avqustun 2-də “Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında” Azərbaycan Respublikasının Qanunu qüvvəyə minib və həmin dövrdən sonra hərbi qulluqçuların həlak olması, itkin düşməsi və ya xəsarət alması zamanı sığorta ödənişləri ilə bağlı maliyyə təminatı məsələsi həll edilməklə həmin sığorta ödənişlərinin verilməsi həyata keçirilib. Dövlət başçısının 19 aprel 2018-ci il tarixli Fərmanı isə həmin qanun qüvvəyə mindiyi günədək, yəni, 1997-ci il avqustun 2-dək ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə bu fərmanla müəyyənləşdirilmiş qaydada 11000 (on bir min) manat məbləğində birdəfəlik ödəmə verilməsini nəzərdə tutur. İlkin informasiyaya görə 8800 şəxs bu fərmanın icrası altına düşür. Həmin kateqoriyadan olan şəxslərə təxminən 95-100 milyon manat vəsait tələb olunacaq” - deyə əmək və əhalinin sosial müdafiəsi naziri vəzifəsini icra edən bildirib.

S.Müslümov deyib ki, fərmana uyğun olaraq Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ümumi siyahısını Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Ədliyyə Nazirliyi, Xüsusi Dövlət Mühafizə Xidməti, Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Sərhəd Xidməti və digər aidiyyəti dövlət orqanları ilə birgə müəyyən edilməklə, üç ay müddətində Maliyyə Nazirliyinə və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim ediləcək: “Birdəfəlik ödəmələr həmin ümumi siyahıdakı hərbi qulluqçuların Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq müəyyən edilən vərəsələrinə onların müraciəti və notariat qaydasında təsdiq olunmuş sənədləri (hərbi qulluqçunun ölümü haqqında şəhadətnamə, hərbi qulluqçunun ölmüş elan edilməsi haqqında məhkəmə qərarı, birdəfəlik ödəməni almaq üçün müraciət etmiş şəxsin vərəsəlik hüququnu təsdiq edən sənəd, birdəfəlik ödəməni almaq üçün müraciət etmiş şəxsin bank hesabı nömrəsinə dair arayış) təqdim etmələri əsasında ödəniləcək. Həmçinin birdəfəlik ödəmə həqiqi hərbi xidmətdə (toplanışda) olduğu zaman həlak olması, ölməsi və ya xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilməsi ilə əlaqədar əvvəllər sığorta ödənişi verilməmiş, o cümlədən barəsində sığorta ödənişinin verilməsinə dair qanuni qüvvəyə minmiş məhkəmə aktı olmayan hərbi qulluqçuların vərəsələrinə veriləcək”.

O, diqqətə çatdırıb ki, bununla bağlı Ədliyyə Nazirliyi 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olması, ölməsi və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan olunması ilə əlaqədar sığorta ödənişinin verilməsinə dair qanuni qüvvəyə minmiş məhkəmə aktı olan hərbi qulluqçular haqqında, Azərbaycan Respublikasının Dövlət Sığorta Kommersiya Şirkəti isə 1997-ci il avqustun 2-dək ölkəmizin ərazi bütövlüyü uğrunda həlak olması, ölməsi və ya xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilməsi ilə əlaqədar sığorta ödənişi verilmiş hərbi qulluqçular barədə bir ay müddətində Maliyyə Nazirliyinə və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə məlumat verəcəklər: “Nazirliyi birdəfəlik ödəmənin verilməsinə dair müraciəti təqdim olunmuş sənədlərlə birlikdə qəbul etməklə, onu müraciətlərin vahid elektron reyestrinə daxil edəcək. Müraciətin daxilolma tarixini, reyestr nömrəsini əks etdirən qəbz müraciət etmiş şəxsə təqdim olunacaq”.

Nazirliyin bazasında müxtəlif kateqoriyadan olan 12 737 şəhid ailəsi var. Hərbi qulluqçu kimi şəhid olanların sayı 8714 nəfərdir. Bazada olan rəqəmlərə görə 7605 nəfər 1997-ci il avqustun 2-nə kimi vəfat edənlərdir. Bundan başqa, 1997-ci il avqustun 2-dən sonra da vəfat edən şəxslər var və onlar döyüşlər zamanı yaralanıblar. Vətəndaşlar bu gündən başlayaraq sənədlərini toplaya bilərlər.

S.Müslümov qeyd edib ki, sənədlər elektron şəklində deyil, kağız formasında olacaq. Buna səbəb vətəndaşların hamısında elektron imzanın olmamasıdır.

Nazirliyin hərbi qulluqçunun adının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin təqdim etdiyi ümumi siyahıda olub-olmamasını müəyyən edəcəyini bildirən S.Müslümov qeyd edib ki, bunun əsasında və fərmanın digər tələbləri də nəzərə alınmaqla, birdəfəlik ödəmənin verilməsinə və ya bundan imtina edilməsinə dair qərar qəbul edəcək. Bundan sonra Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birdəfəlik ödəmənin verilməsinə dair qərar qəbul etdiyi şəxslər barədə məlumatları vəsaitin ayrılması məsələsinin həll edilməsi üçün, mütəmadi olaraq Maliyyə Nazirliyinin müəyyən etdiyi formaya əsasən həmin nazirliyə təqdim edəcək. Müraciətlərin daxilolma ardıcıllığına uyğun olaraq, birdəfəlik ödəmələr nağdsız qaydada müvafiq şəxslərin bank hesabına köçürüləcək və bu barədə həmin şəxslərə məlumat veriləcək.

S.Müslümov bildirib ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, eyni zamanda, birdəfəlik ödəmə üçün müraciət etmiş və ödəniş almış şəxslər, həmçinin ödənilmiş məbləğ barədə rüblük məlumatı Maliyyə Nazirliyinə təqdim edəcək, eləcə də hərbi qulluqçunun adını, soyadını və atasının adını daxil etməklə, ümumi siyahıda olub-olmamasını yoxlamağa imkan verən internet informasiya resursunun fəaliyyətini təmin edəcək. Bununla yanaşı, fərmanın icrası olaraq, Maliyyə Nazirliyi tərəfindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən daxil olmuş məlumatlar əsasında müraciətlərin daxilolma ardıcıllığı nəzərə alınmaqla, birdəfəlik ödəmələrin verilməsi ilə əlaqədar maliyyələşmənin həyata keçirilməsi üçün tələb olunan vəsaitin müvafiq illərin dövlət büdcəsində nəzərdə tutulması və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə ayrılması təmin olunacaq.

“Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin şəhid ailələrinə xüsusi diqqət və qayğısının daha bir təzahürü olan, həmin ailələrin rifah halının yaxşılaşdırılmasında xüsusi əhəmiyyət kəsb edən bu fərmanın vaxtlı-vaxtında və tam icrası ilə bağlı aidiyyəti dövlət qurumları birgə fəaliyyət müstəvisində bütün məqsədyönlü tədbirlərin görülməsi təmin olunacaqdır” - deyə S.Müslümov vurğulayıb.

# Dövlət və xalq qarşısında xidmətləri olan insanların sosial məsələlərinin həlli prioritetdir

## *Bu, Azərbaycan dövlətinin siyasətinin mərkəzində yenə də vətəndaşların rifahının dayandığını təsdiq edir*

Prezident İlham Əliyev “Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” fərman imzalamışdır. Bu, dövlət başçısının andiçmə mərasimindən və səlahiyyətlərini icra etməyə başladıqdan sonra imzaladığı ilk qanunvericilik aktıdır.

Azərbaycanın iqtisadi qüdrətinin artması həm ölkənin müdafiə potensialının gücləndirilməsi, həm də hərbi qulluqçuların etibarlı sosial müdafiəsinin təmin edilməsi üçün şərait yaratmışdır. Ölkədə hərbçilərin xidmət, mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onların sosial müdafiəsinin gücləndirilməsi və digər istiqamətlər üzrə məqsədyönlü tədbirlər həyata keçirilir.

Azərbaycan dövləti ölkənin ərazi bütövlüyü uğrunda həlak olmuş və itkin düşmüş hərbi qulluqçuların ailə üzvlərinin də sosial müdafiəsinin yaxşılaşdırılması məqsədilə ardıcıl tədbirlər görür.

Xatırladaq ki, 1997-ci ildə “Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında” qanun qüvvəyə mindikdən sonra hərbi qulluqçulara sığorta ödənişlərinin verilməsinə dair normativ hüquqi baza formalaşdırılmışdır.

Prezidentin bu il aprelin 19-da imzaladığı fərmana əsasən, 1997-ci il avqustun 2-dək Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların vərəsələrinə 11.000 manat ödəmə veriləcək. Bu fərman Prezident İlham Əliyevin vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi, Azərbaycanın ərazi bütövlüyünün qorunması üçün canlarını qurban vermiş hərbçilərimizin ailələrinə, vərəsələrinə diqqət və qayğısının daha bir təzahürüdür.

Fərmanda vurğulanır ki, Azərbaycan dövlətinin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün təmin edilməsi və qorunub saxlanması üçün ölkənin hərbi qüdrətinin artırılması, hərbi-sənaye kompleksinin inkişaf etdirilməsi, silahlı qüvvələrin döyüş qabiliyyətinin gücləndirilməsi və mənəvi-psixoloji vəziyyətinin daha da yüksəldilməsi dövlətin ən ümdə vəzifələrindəndir. Son illərdə hərbi sahəyə ayrılan xərclərin əhəmiyyətli dərəcədə artırılması ölkənin müdafiə potensialının gücləndirilməsi ilə yanaşı, Silahlı Qüvvələrdə xidmət edən hərbi qulluqçuların etibarlı sosial müdafiəsinin təmin edilməsinə də şərait yaratmışdır. Bu sahədə dövlət siyasətinin mühüm istiqamətlərindən biri hərbi qulluqçulara dövlət icbari sığortasının tətbiqidir.

Prezident İlham Əliyevin imzaladığı yeni fərman bir daha göstərir ki, ölkə əhalisinin sosial müdafiəsinin gücləndirilməsinə dövlət qayğısı davamlı xarakter daşıyır. Xatırladaq ki, son 15 il ərzində sosial məsələlərin həlli daim diqqət mərkəzində olmuşdur. Bu müddət ərzində maaşlar təxminən 7 dəfə, pensiyalar 10 dəfədən çox artmışdır. Dövlət başçısı cari ilin əvvəlində də bir çox kateqoriyalardan olan işçilərin maaşlarının, eləcə də pensiyaların artırılması barədə sərəncamlar imzalamışdır.

İmzalanan bütün sərəncamlar, verilən bütün fərmanlar və bunlara uyğun olaraq həyata keçirilən ardıcıl tədbirlər Azərbaycan Prezidenti tərəfindən bəyan olunmuş “Həyata keçirdiyimiz siyasətin mərkəzində Azərbaycan vətəndaşının maraqları və rifahı dayanır” şüarının həyatda yüksək səviyyədə reallaşdığının əyani sübutudur.

Başqa sözlə, Azərbaycan dövləti hər zaman bütün vətəndaşlarının sosial məsələlərinin həllini prioritet vəzifə hesab edir. Bu sırada imtiyazlı təbəqənin, dövlət və xalq qarşısında xidmətləri olan şəxslərin xüsusi yeri var.

Prezident İlham Əliyevin dünən imzaladığı fərman həm də ondan xəbər verir ki, dövlətin həyata keçirdiyi ardıcıl sosial siyasət getdikcə daha da gücləndiriləcək.

***Flora SADIQLI,***
***“Azərbaycan”***









# S.Sarkisyanın iqamətgahı mühasirəyə alınıb

## Xalq üsyanı bütün Ermənistana yayılıb

Əvvəldən də gözlənildiyi kimi, Ermənistanda keçmiş prezident Serj Sarkisyanın baş nazir postunu ələ keçirməsi ölkədə geniş etiraz aksiyalarına, xalqla hakimiyyət qarşıdurmasına rəvac verib. Xatırladaq ki, aksiyalar aprelin 13-dən keçirilir. Aprelin 17-də müxalif deputat Nikol Paşinyan Ermənistanda “məxməri inqilab”ın başlandığını bəyan edib. Aksiya iştirakçıları vaxtaşırı mitinqlər, təntənəli yürüşlər keçirir, paytaxtın mərkəzi küçələrini bağlayır və dövlət orqanlarının işinə mane olmağa çalışırlar.








### Dağlıq Qarabağdan Yerevana tanklar göndərilib

Son məlumata görə, Yerevanda müxalifətin etiraz aksiyalarının iştirakçıları “Respublika” meydanında yerləşən bir neçə nazirlik binasını blokadaya almağa çalışıblar. Sarkisyanın iqamətgahı mühasirəyə alınıb. Polis bu cəhdlərin qarşısını alır və müxaliflərin kütləvi həbsi həyata keçirilir.

Ümumiyyətlə, Serj Sarkisyanın baş nazir postuna seçilməsi bütün ölkəni ayağa qaldırıb. Artıq paytaxt Yerevanda başlayan etiraz askiyaları ölkənin kiçik əyalətlərinə də yayılır. Xalqın etiraz dalğasının qarşısını almağa çalışan təhlükəsizlik qüvvələri çox zaman uğursuzluğa düçar olur. Əsəbi kütlə ilə bacarmyan polislər aktiv etirazçıları həbs edirlər. Bugünədək etiraz aksiyalarında həbs edilənlərin sayı 100-ə yaxınlaşmaqdadır. Etiraz edənlərin qarşısını almaq üçün nazirlik binalarının XTPD dəstələri tərəfindən nəzarətə alındığı da qeyd edilir.

Vəziyyətin nəzarətdən çıxa biləcəyindən ehtiyat edən Serj Sarkisyan etirazçılara qarşı əlavə qüvvələr cəmləşdirir. Hətta məlumatlar da var ki, Serj Sarkisyanın baş nazir seçilməsinə və nəticədə hakimiyyətinin ömrünü uzatmasına etiraz olaraq günlərdir davam edən etiraz hərəkatına görə Dağlıq Qarabağdan Yerevana tanklar göndərilib. Bu fonda Nikol Paşinyan bildirib ki, artıq Ermənistanda vətəndaş müharibəsi başlanır.

### Saxta parlamentin seçdiyi saxta baş nazir

S.Sarkisyanın baş nazir postunu tuta bilməsi üçün hazırlıq işləri əslində ötən ilin aprelində formalaşdırdığı parlamentlə daha geniş vüsət almışdı. Məhz ötən il aprelin 2-də Ermənistanda total saxtakarlıqla növbəti parlament seçkiləri keçirildi, əsas müxalifət qüvvələri qanunverici orqandan kənarda saxlanıldı. Rejim həmişə olduğu kimi, öz vətəndaşlarının iradəsinin əksinə getməyi bacardı.

Sarkisyan o vaxt bir daha xalqın iradəsinin tapdalanması hesabına özünün məlum bədnam kursunu davam etdirmək imkanı qazandı. Hələ o vaxt xəbərdarlıq edilirdi ki, Ermənistanda hakim Respublika Partiyasının qalib gəlməsi xalqın məğlubiyyətidir. Çünki bununla Sarkisyan parlamentdə istədiyi şəxsləri əyləşdirdi və bu, ona özünü baş nazir kürsüsünə əyləşdirməyin qarantı kimi çox vacib idi. 17 aprel seçkiləri isə artıq Sarkisyana istədiyinə nail olduğunu göstərdi, o, saxta deputatlardan səs alaraq saxta baş nazir postunu tutdu.

### Hakimiyyət-xalq savaşı dərinləşir

Ekspertlər isə baş verənləri təbii sayır. Çünki yeni baş nazir əslində köhnə rəhbər olduğundan onun idarəçiliyi hansısa yenilik vəd etmir. Serj Sarkisyanın 10 illik prezidentliyi isə Ermənistan xalqının yaddaşına fəlakət kimi həkk olunub.

Faktdır ki, məhz Sarkisyanın 10 illik prezidentlik fəaliyyəti erməni xalqı üçün ilk növbədə iqtisadi böhrana səbəb olub. Ermənistanın “Armeniareport” saytı yazır ki, əgər Sarkisyan ölkəni idarə etməkdə davam edəcəksə, onda vəziyyət daha da pisləşəcək. Bununla bağlı qeyd olunur: “1989-1990-cı illərdə SSRİ-nin tərkibində olan dövlətlər öz müstəqillikləri uğrunda mübarizəyə başladılar. Latviya, Litva, Gürcüstan və Azərbaycanda milli azadlıq hərəkatı başladı. Bu ölkələrin xalqları öz azadlıqları uğrunda canlarından keçdilər və müstəqil dövlətlərə sahib oldular. Ermənistanda isə heç bir azadlıq hərəkatı baş vermədi. Bu xalq müstəqillik uğrunda mübarizənin nə olduğunu bilmədi. 90-cı illərin əvvəllərində başlayan Dağlıq Qarabağ münaqişəsinə gəldikdə, bu, milli azadlıq hərəkatı deyildi. Bu münaqişə azadlıq hərəkatı ilə bağlı söylənilən fikirlərin əksinədir. Bu müharibədə çoxlu sayda erməni öldü. Azad həyatın nə olduğunu bilməyən ermənilər mənasız yerə həyatları ilə vidalaşdılar. Sovet İttifaqı dağıldıqdan sonra ermənilər qeyri-müstəqil şəraitdə, yoxsulluq içində yaşamağı öyrəndilər. Ermənilərdən fərqli olaraq, Azərbaycan xalqı 1990-cı ilin yanvarında mübarizə apararaq müstəqilliyini qazana bildi. Bunun nəticəsidir ki, bu gün Azərbaycan dövləti xalqı birləşdirən konsepsiyaya sahibdir və qəhrəmanlarının qanı ilə möhürlənmiş dövlətləri var.

Eyni fədakarlığı Ukrayna xalqı da etdi və bu ölkənin də insanları azad, suveren şəkildə yaşayırlar. On il bundan əvvəl martın 1-də Ermənistanda azadlıq hərəkatına start verilsə də, bunun heç bir nəticəsi olmadı, erməni xalqının qanı tökülsə də, Serj Sarkisyan prezidentlik postundan getmədi. Jirayr Sefilyan, Armen Martirosyan, Gevorq Safaryan kimi müxalifət liderlərinin alovlanan azadlıq mübarizəsi qısa zamanda söndü. Bu gün isə bütün nəzərlər Nikol Paşinyanın başlatdığı etiraz aksiyaları üzərində cəmləşib”.

### Böhran daha da artıb

Qeyd edilir ki, Nikol Paşinyanın başlatdığı etiraz aksiyaları davamlı olarsa, bu, Sarkisyan üçün ciddi problemlər yarada bilər. Çünki xalq onun hakimiyyətdə qalmasını istəmir.

Bundan başqa, diqqət ona yönəlir ki, məhz Sarkisyanın hakimiyyəti Ermənistan üçün həm iqtisadi, həm enerji, həm də nəqliyyat baxımından təhdid vəziyyəti yaradıb. Bu fonda Ermənistanın təcrid olunması daha da dərinləşib. Digər tərəfdən, Ermənistandan əhalinin köç prosesi artıq yeni mərhələyə daxil olub. Bu gün ermənilər özləri qeyd edirlər ki, vaxtilə Ermənistandan əhali ədədi silsilə ilə baş götürüb qaçırdısa, indi artıq həndəsi silsilə ilə ölkəni tərk edir.

Belə vəziyyətdə Ermənistan əhalisinin yoxsulluq səviyyəsi artıq dözülməz xarakter alıb. Eyni zamanda xalq onun da fərqindədir ki, Ermənistanda böhran daha da dərinləşəcək. Çünki xalq görür ki, onu bu vəziyyətə salan bir rejim hakimiyyətdə baş nazir postunu ələ keçirməklə vəzifəsini davam etdirmək istəyir. Bu o deməkdir ki, iqtisadi iflas, təcrid vəziyyəti daha da dərinləşəcək. Əhalinin köçü bundan sonra daha geniş miqyas alacaq, yoxsulluq daha dözülməz bir vəziyyətə gəlib çıxacaq.

### Erməni lobbisi Sarkisyana qarşıdır

Onu da qeyd edək ki, ölkəni xaricdən asılı vəziyyətə salan Serj Sarkisyan hakimiyyəti erməni diaspor təşkilatlarını da narazı salıb. Bu, diaspor təşkilatlarından gələn ianələrin də dayandırılmasına səbəb olub. Fransada yaşayan ermənilər Serj Sarkisyanın baş nazir seçilməsinə daha sərt etiraz ediblər. Ermənistanın Marseldəki konsulluğunun qarşısında toplaşan etirazçılar Sarkisyanı təhqir edərək onun şəkillərini ayaqlar altına atıblar. Nümayişçilər daha sonra Sarkisyanın şəkillərini yandırıblar.

Bütün bunlar Sarkisyanın mövqelərini əhəmiyyətli dərəcədə zəiflədir və onun üçün əsas çıxış yolu güc vasitəsilə hakimiyyətini təmin etməkdir. Bu isə ölkədə vətəndaş qarşıdurmasını daha da dərinləşdirir.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Milli ideya - keçmişin dərk edilməsi və gələcəyə istiqamətlənmə

*Alimlərin çoxu seçdikləri məhdud ixtisas sahəsində çalışmağa, əlaqəli sahələrə maraq göstərməməyə adət edib.*
*Lakin elə alimlər də var ki, onlar ilbəil elmi tədqiqatlarının diapazonunu genişləndirir, digər bilik sahələrinə aid nailiyyətlərdən və kəşflərdən öz işlərində istifadə edir, elmin qarşısında duran yeni çağırışlara cavab verməyə çalışırlar.*
*Akademik Ramiz Mehdiyev məhz belə alimlərdəndir. Ramiz müəllimin bütün elmi reqaliyalarına və rütbələrinə rəğmən, arxayınlaşma və şöhrətdən sərməst olma hissləri ona yaddır. O, daim elmi axtarış üfüqlərini genişləndirir, fəlsəfə və sosiologiyanın, tarix və siyasətin, fəlsəfə və genetikanın sərhədinə aid yeni-yeni aktual problemlərə müraciət edir...*

2000-ci illərin əvvəllərində Ramiz Mehdiyevin "Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi" (2001), "Azərbaycan: qloballaşma dövrünün çağırışları" (2004), "2005-ci il parlament seçkiləri: ilkin təhlil" (2006), "Vətəndaş cəmiyyətinə yol açan ideyalar" (2006) kimi əsərləri əlamətdar hadisə oldu. Bu əsərlər müstəqil Azərbaycanın demokratik inkişafına dair xüsusi konsepsiya, model yaratmağa ciddi cəhdlər idi.

2007-ci ildə akademik Ramiz Mehdiyevin **"Demokratiya yolunda: irs haqqında düşünərkən"** adlı fundamental əsəri nəşr olundu. Bu əsərdə ən yeni politoloji və futuroloji konsepsiyaların hərtərəfli təhlili əsasında demokratik inkişafın milli modelinin təcrübəsi ümumiləşdirilib və modelləşdirilib. Yadımdadır, bu kitabda təqdim edilən mövzuların ensiklopedik əhatə dairəsi, orada toplanmış informasiyanın aktuallığı və yeniliyi məni o dərəcədə heyrətləndirdi ki, mən hətta bu kitaba rəy yazmağa cəsarət etdim. Hörmətli alimin əsərləri geniş oxucu auditoriyası üçün nəzərdə tutulur. Mənim rəyim də bu oxuculardan birinin fikri idi. Yeri gəlmişkən, mən bu gün də Ramiz Mehdiyevin əsərlərinin əsas məziyyətlərindən birini onda görürəm ki, onun kitabları akademik səviyyədə olmaqla bərabər, heç də mücərrəd deyildir, hər bir oxucu bu kitablarda özü üçün müəyyən yeniliklər və faydalı cəhətlər tapa bilər - filosof da, tarixçi də, sosioloq və ya praktiki iqtisadçı da.

Onun kitabları, konseptual məqalələri, esse və müsahibələri mahiyyət etibarilə Azərbaycanın müstəqillik illərində keçdiyi yolun təcrübəsinin sistemli şəkildə təhlilinin və ümumiləşdirilməsinin nəticəsi, həmçinin (bu, daha vacibdir) XX əsrin sonu - XXI əsrin əvvəllərində bütün dünyada baş verən struktur dəyişiklikləri şəraitində Azərbaycan dövlətçiliyinin təşəkkülünün əsas meyillərini və perspektivlərini göstərmək üçün çox uğurlu cəhddir. Bununla əlaqədar Ramiz Mehdiyevin **"Azərbaycanı dəyişmiş on il"** kitabını xüsusi qeyd etmək lazımdır. Bu kitabda 2003-2013-cü illərdə ölkəmizdə həm iqtisadiyyatda, həm dövlət idarəçiliyi sistemində, həm də xarici siyasətdə baş vermiş dəyişikliklər kompleks şəkildə təhlil edilib.

Lakin Ramiz müəllimin araşdırmaları bir mövzu çərçivəsində məhdudlaşmır. Biz artıq adət etmişik ki, alimin hər bir müsahibəsində və ya məqaləsində bu və ya digər məqamda cəmiyyətimizin ən aktual problemlərinə toxunulur, buna görə də onun hər bir yeni işi oxucular arasında geniş rezonans doğurur, mətbuatda qızğın əks-sədaya səbəb olur və son nəticədə ictimai diskussiyaya çevrilir. Məsələn, bir neçə il bundan əvvəl Ramiz Mehdiyev **"Azərbaycanın efir məkanı: problemlər və vəzifələr"** adlı məqaləsində radioteleefir sahəsində vəziyyətin heç də xoşagələn olmaması barədə tənqidi fikirlərini açıq bölüşdü. Nəticədə bizim ictimaiyyəti "silkələmək", mütəxəssislərin diqqətini bu probleme cəlb etmək mümkün oldu.

Görkəmli filosof son vaxtlar Azərbaycan tarixinin bəzi səhifələrinə müraciət edib, Səfəvilərin hakimiyyəti dövrünü orijinal şəkildə tədqiq edib. Onun başqa əsərləri kimi, **"Şah İsmayıl Səfəvi. Hökmdarın və döyüşçünün portreti"** adlı kitabı da elm aləmində canlı diskussiyaya səbəb oldu. Bu əsər Azərbaycanın görkəmli dövlət xadiminin irsinə ən genişhəcmli və sistemli baxışın məhsuludur...

Akademikin əsərlərinin çoxu Dağlıq Qarabağ münaqişəsi və erməni separatizmi probleminə həsr edilib. Bu baxımdan onun 2000-ci ildə Azərbaycan, rus və ingilis dillərində nəşr edilmiş **"Azərbaycanlıların soyqırımı reallıqları"** kitabını xatırlamaq kifayətdir. Bir müddətdən sonra nəşr edilmiş **"Gorus-2010: absurd teatr mövsümü"** kitabında ironik polemika janrında keçmiş səhra komandiri, Ermənistanın eks-prezidenti Serj Sarkisyanın təhlükəli etirafları ifşa edilir, erməni təcavüzkar separatizmi barədə, "arsaxçılıq" ideoloqları və onların xaricdəki himayədarları barədə bütün həqiqət açıq söylənilir. Daha sonra KİV-də və saytlarda Ramiz Mehdiyevin **"Ermənilərin mif yaradıcılığı tarixdə ilk xristian dövləti kontekstində"** adlı gözəl tarixi-fəlsəfi essesi dərc olundu. Çoxlu sayda nadir sənədlərə və elmi mənbələrə əsaslanan bu essenin şəksiz aktuallığı kütləvi şüurun mifləşdirilməsi, tarixin saxtalaşdırılması texnologiyasını ifşa etməkdən ibarət idi. Erməni ideoloqları yer üzündə ən qədim etnos adlandırılmaq hüququnu özlərinə aid etmək məqsədilə əsrlər boyu bu texnologiyadan istifadə edirlər. Çox vacib və əlamətdar məqam ondan ibarət idi ki, Ramiz Mehdiyevin əsərlərinin çoxu rus, ingilis və bəzi başqa dillərə tərcümə edilib, internet-resurslarda yerləşdirilib. Ona görə ki, Dağlıq Qarabağda baş verən hadisələr barədə həqiqətin dünya ictimaiyyətinə çatdırılması, təcavüzkar erməni separatizmi ideoloqlarının həqiqi məqsəd və metodlarının ifşa edilməsi bu gün də Azərbaycanın elmi ictimaiyyətinin əsas vəzifəsi kimi qalmadadır.

Yuxarıda adlarını çəkdiyimiz kitablar və konseptual məqalələr görkəmli filosof alimin 2014-cü ildə Moskvada (daha sonra bir neçə xarici dildə dünyanın bir sıra ölkələrində) nəşr edilmiş **"Dağlıq Qarabağ: məxəzlərdən oxunmuş tarix"** adlı fundamental əsərinə bir növ prelüd oldu. Kitabın adından da görünür ki, bu əsərdə sübutlar kimi əsasən Ermənistanda, Rusiyada və xarici ölkələrdə mövcud mənbələrə istinad edilir. Bu kitabın səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, müəllif mövzuya yeni elmi prizmadan yanaşır, antik dövrdən başlayaraq erməni etnogenezi, Qafqaz türklərinin antropologiyası, Qafqaz Albaniyasının tarixi məsələlərinə toxunur, əsərin sonunda isə ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə danışıqlar prosesinin hüquqi aspektlərini araşdırır. Görkəmli alim bu kitabda Milli Elmlər Akademiyasındakı həmkarlarının qarşısına bir sıra məsələlər qoyur, yeni vəzifələr ifadə edir: antik və orta əsrlər mifologiyası üzrə mütəxəssislər lazımdır, antropoloq, konfliktoloq kadrları, antik və qədim erməni dili mütəxəssisləri hazırlanmalıdır. Alim qeyd edir ki, biz təcrübəli düşmənlə onun meydanında savaşmalıyıq. Bir sürü erməni tarixçiləri və ideoloqları ilə elmi diskussiyaların avanqardında gedən akademik Ramiz Mehdiyev bu gün məhz belə səviyyədə vuruşur.

...Mən akademik Ramiz Mehdiyevin başqa işlərinə də həvəslə münasibət bildirmişəm, onlara aid məqalələr və resenziyalar dərc etdirmişəm. Bir neçə il bundan əvvəl mən həmin məqalələri bir kitabça şəklində toplayaraq "Sabahkı gün haqqında düşünərkən" adı altında nəşr etdirmişəm. Hesab edirəm ki, onun ən yaxşı əsərlərinin əsasını, cövhərini təşkil edən məhz bu məqamdır - alimin gələcəyə yönəlmiş fikirləridir.

* * *

Son vaxtlar Ramiz müəllimi daha bir aktual problem narahat edir. O öz elmi araşdırmalarının mühüm istiqamətini bu problem ətrafında cəmləşdirir: milli ideya problemi. Bir il bundan əvvəl Moskvada Ramiz Mehdiyevin "Qlobal transformasiyalar dövründə Azərbaycan milli ideyası" adlı yeni kitabı çapdan çıxdı (**"Национальная идея Азербайджана в эпоху глобальных трансформаций".** М., Росспэн, 2017).

Mən bilirdim ki, Ramiz müəllim bu ikicildlik üzərində işləyir, bu əsəri çoxdan yazırdı. İkicildliyin I cildi üçün ilk mənbələrlə, arxiv materialları ilə çox işləmək lazım idi. Buna görə əvvəlcə II cild nəşr edildi: onun üçün konseptual məqalələr şəklində hazırlıq işləri əvvəlcədən görülmüşdü. Müxtəlif illərdə Ramiz Mehdiyev bu mövzuda məqalələr və daha geniş materiallar nəşr etdirib. Mən həmin məqalələrdən biri ("Müasir Azərbaycan milli ideyanın təcəssümü kimi") barədə vaxtilə resenziya yazmışam **("Современный Азербайджан как воплощение национальной идеи", "Бакинский рабочий", 19 мая 2011 года).**

İkinci cilddə ilk dəfə olaraq ölkədə yaradılan müasir sənaye cəmiyyətindən tədricən postsənaye cəmiyyətinə keçmək cəhdi XXI əsrdə Azərbaycanda milli ideyanın reallaşdırılması kimi nəzərdən keçirilir. Mənim fikrimcə, bu təhlil çox uğurla aparılıb. (bax: Э.Ахундова. **"Национальная идея Азербайджана в эпоху глобальных трансформаций",** 1 news.az, 17.04.2017).

Qeyd etdiyim kimi, ikinci cilddə prinsipial məqamlardan biri Azərbaycanda milli ideyanın formalaşması prosesinin orijinal şəkildə dövrlərə bölünməsidir - XIX əsrin birinci 30 ilində mədəni oyanışın birinci mərhələsindən yeddinci mərhələyə qədər. 1993-2003-cü illəri əhatə edən yeddinci mərhələdə milli ideya dövlət müstəqilliyi və milli müstəqillik ideyası şəklində tam formalaşdı. Mənim fikrimcə, milli ideyanın formalaşmasının yeddi mərhələsi Ramiz Mehdiyevin ən inqilabi və novator konsepsiyalarından biridir. Müəllif nadir arxiv materiallarından və ən müasir tədqiqatlardan istifadə edərək bu mərhələlərdən hər birinin səciyyəvi cəhətlərini inandırıcı şəkildə təhlil edir...

İkicildliyin Moskvada yenicə nəşr edilmiş "Milli ideyanın formalaşmasında tarixin dərk edilməsinin faydası haqqında" adlı birinci cildi (**"О пользе познания истории в формировании национальной идеи",** М., "Столица", 2017) qarşımdadır.

Ramiz müəllim Azərbaycan elmində mövcud boşluqları əsl alim kimi həssaslıqla duyaraq, xalqımızın milli ideyası, milli identikliyi, etnogenezi probleminə görə çox narahatdır. Bu da təsadüfi deyil, axı bizim "əbədi opponentlərimiz" olan ermənilər (R.Mehdiyev bədnam qonşularımızı istehza ilə belə adlandırır) Azərbaycan xalqı haqqında yalan məlumatları bütün dünyada yaymağı öz qarşılarına məqsəd qoyublar, guya azərbaycanlılar yalnız XX əsrin 30-cu illərində Stalinin iradəsi ilə belə adlanmağa başlayıblar.

Həmişəki kimi, akademik Ramiz Mehdiyevin yeni əsərində də məqsəd bu mifologiyanı inandırıcı şəkildə ifşa etmək, Azərbaycan xalqının etnogenezi məsələsinin bir sıra aspektlərinə aydınlıq gətirməkdir.

Kitabın birinci hissəsində çoxsaylı elmi mənbələrə istinadla irqlərin yaranması, millətlərin antropogenezi problemi nəzəri-metodoloji aspektdə araşdırılır. Müəllif azərbaycanlıların irqi-antropoloji mənşəyi üzrə nüfuzlu alimlərin fikirlərini sitat gətirir, çox vaxt bu fikirlərlə razılaşmır, bununla bərabər qeyd edir ki, bir sıra nəzəriyyələrin təsdiq və inkar edilməsi üçün məlumat bazasının çox cüzi olması həqiqi mənzərəni formalaşdırmağa mane olur. Bununla əlaqədar akademik Ramiz Mehdiyev Azərbaycan alimlərini etnik antropologiya problemləri ilə daha ciddi məşğul olmağa çağırır. Çünki "antropoloji və genetik materiallarla tanış olmadan müasir Azərbaycan ərazisində yaşamış və Azərbaycan xalqının formalaşmasının əsasını təşkil edən xalqlar və irqlər barəsində mühakimə yürütmək mümkün deyil".

Müəllif etnogenez məsələlərinin öyrənilməsinə kompleks yanaşmanın zəruriliyini vurğulayır. Bu halda qədim yazılı mənbələr, xalqın dilinin və mədəniyyətinin xüsusiyyətləri, etnoqrafik məlumatlar, toponimika, arxeoloji və antropoloji materiallar tədqiqata cəlb edilir. Əlbəttə, ilkin materialların son dərəcə azlığına və "etnogenetik problemlərin həllinə kompleks yanaşmanın vacibliyi barədə nəzəri tezisə rəğmən, Azərbaycan xalqının etnogenezinin öyrənilməsi praktikasında bu elmi prinsip, demək olar ki, əsas göstəricilərdən biri olmayıb".

Kitabın "Azərbaycan xalqının mənşəyinin qədimliyi barədə bəzi məsələlərin qoyuluşuna dair" adlı fəsli bu nəşrin birinci hissəsində mərkəzi yer tutur. Ramiz Mehdiyev rusiyalı və digər xarici antropoloqların çoxsaylı əsərlərinə istinadla bildirir ki, Azərbaycan xalqının etnik tarixi minilliklərlə ölçülür. Hərçənd onu da qeyd edir ki, ölkəmizdə "Azərbaycan xalqının bütün mütəxəssislər tərəfindən qəbul edilmiş etnogenezi konsepsiyası yoxdur". Akademikin fikrincə, son dərəcə aktual olan bu problemin öyrənilməsində çatışmazlıqlardan biri odur ki, inkişaf etməkdə olan dünya elmi fikri hələ bizdə ilkin metodoloji bazaya çevrilməyib, bizim tədqiqatçılar çox vaxt genetika, antropologiya, irqşünaslıq və digər sahələrin elmi prinsiplərinə deyil, emosional stereotiplərə əsaslanan fərziyyələrin təsirinə qapılırlar. Maraqlıdır ki, etnogenez problemlərinə Qumilyovun artıq yarım əsrdən çox tarixə malik olan yanaşması Azərbaycan tarix elminin maraqlarından kənarda qalıb.




Nəticədə ölkəmizin tarix elmində milli identifikasiyanın iki əsas variantı formalaşıb. Bəzi alimlər Azərbaycan xalqının köklərinin hind-İran mənşəli olmasını iddia edir, digərləri bizim etnogenezimizi yalnız türklərə aid edirlər. Bu iki konsepsiya bir-birinə qarşı qoyulur. Sovet tarixşünaslığı bu mövzunun tədqiq edilməsinə ciddi ziyan vurub. Həmin dövrdə Azərbaycan xalqının etnogenezi məsələlərinin dərin elmi araşdırılması ermənilərin köməyi ilə ciddi qadağan edilmişdi.

Müəllif əmindir ki, bu gün etnopsixologiya, etnolinqvistika, genetika, etnologiya, geofizika, coğrafiya, paleontologiya, botanika və bir sıra başqa elmi fənlər cəlb edilməklə Azərbaycan xalqının etnogenezi problemi tədqiq edilməlidir. Başqa sözlə desək, xalqın etnik mənsubiyyətini təyin etmək üçün təkcə, məsələn, dil amili kifayət deyil, bu məsələyə kompleks şəkildə yanaşmaq zəruridir. Əlbəttə, bu halda antropologiya həlledici rol oynamalıdır.

Akademik bununla əlaqədar Azərbaycan elmi cəmiyyəti qarşısında konkret məsələ qoyur: həm ölkəmizin tarixinə nüfuz etmiş psevdoelmi uydurmalardan yaxa qurtarmağa, həm də xalqımızın formalaşması tarixini saxtalaşdırmağa cəhd göstərən xarici müəlliflərə layiqli elmi cavab verməyə kömək edən antropologiya elminin yaradılması vəzifəsi.

Alim maraqlı bir təkliflə çıxış edir: antropoloji elmi tədqiqatlar mərkəzi yaradılsın və bu mərkəz zəruri mütəxəssislərlə təmin edilsin. Müəllifin fikrincə, məhz antropoloji tədqiqatlar bizim tariximizin "Biz kimik", "Bizim əcdadlarımız kim olub", "Azərbaycanlıların etnik tarixi kimlərdən başlanır" kimi mühüm suallarına cavab tapmağa kömək edəcək.

Lakin alim təkcə məsələnin qoyuluşu ilə kifayətlənmir. Ramiz Mehdiyev Qafqaz xalqlarının antropoloji tipinin xüsusiyyətləri barədə ətraflı söhbət açaraq Azərbaycan xalqının antropogenezi barədə öz konsepsiyasını irəli sürür. Müəllif külli miqdarda elmi materialı araşdıraraq bu qənaətə gəlir ki, "Azərbaycan etnosunun əsas təkamül xətti yerli qəbilələrlə bağlıdır və ən qədim tarixi dövrlərdən başlanır... Azərbaycanlıların əcdadları ta qədimdən eyni ərazidə yaşayıblar və bu ölkənin müasir avtoxtonları ümumi antropoloji əlamətləri nəsilbənəsil mənimsəyiblər". Azərbaycan xalqı superetnos kimi bir neçə güclü etnosun qarşılıqlı təsiri nəticəsində formalaşıb. Bəli, müasir Azərbaycan xalqı türkdilli etnosdur, lakin onun çoxsaylı qədim əcdadları olub və bu etnos çox böyük tarixi yol keçib. Onun ilk mənbələri Ön Asiyada və Cənubi Qafqazda yaşayan qəbilələr olub.

Kitabın çox maraqlı və ibrətamiz səhifələrində müəllif Azərbaycan xalqının etnomədəni prioritetlərinin formalaşmasına kömək edən daxili və xarici amilləri, etnik və dini tolerantlığı, başqalarının həyat tərzinə, adət-ənənələrinə dözümlülüyü, muğamın xüsusi rol oynadığı zəngin mədəni ənənələri və başqa məqamları ətraflı təsvir edir.

Müəllif qürur hissini gizlətmədən ta qədim dövrdən başlayaraq ucsuz-bucaqsız Ön Asiya regionunun tarixini, böyük imperiyalar yaratmış, dünyaya görkəmli dövlət xadimləri bəxş etmiş xalqı haqqında yazır: "Bizim borcumuz yeni tarixi şəraitdə onların işlərini davam etdirməkdir. Buna görə də həmvətənlərimizin indiki nəslinin bütün fəaliyyətinin əsas məzmunu müasir milli ideya konsepsiyası yaratmaqdan və onu reallaşdırmaqdan ibarət olmalıdır..."

Birinci hissənin sonrakı fəsilləri "milli ideya" anlayışına sosial-fəlsəfi yanaşmanın mahiyyətini təşkil edir. Müəllif "ideya", "milli ideya", "milli mənlik şüuru", "milli maraq" anlayışlarına aid ən müxtəlif nəzəriyyə və konsepsiyaları təhlil edir, cəmiyyətin həyatında mühüm rol oynayan bu anlayışların mənası və mahiyyəti barədə mülahizə yürüdür.

Təbii ki, ikinci kitabın ən mühüm bölmələrindən biri "Ermənilərin etnogenezi məsələsinə dair" adlı fəsildir. Son dərəcə əhəmiyyətlidir ki, kitabın Moskvada nəşr edilməsi sayəsində (şübhə etmirəm ki, bu ikicildliyin fövqəladə aktuallığı səbəbindən o, başqa xarici dillərə də tərcümə ediləcək) erməni və rus alimləri də oxuyacaq və bu fəsil çoxları üçün qızğın mübahisələrin mövzusu, bəziləri üçün isə "həqiqət anı" olacaq. Hər halda, möhtərəm Ramiz Mehdiyevin bütün əsərlərinin məqsədi ciddi elmi diskussiyaya və alimlər arasında fikir mübadiləsinə yönəlib. Əlbəttə, bu şərtlə ki, onlar növbəti miflər yaratmaq və faktları saxtalaşdırmaq əvəzinə həqiqəti axtarmaq istəsinlər...

Müəllif möhkəm nəzəri təməl yaradandan sonra XIX-XX əsrlərdə Azərbaycan xalqının tarixinin milli ideyanın formalaşması və inkişafı baxımından təhlilinə başlayır. Gizlətmirəm ki, öz kitablarında və məqalələrində müasir Azərbaycanın sosial-siyasi proseslərini tədqiq edən bir yazıçı-publisist kimi kitabın bu bölmələri (8, 9, 10, 11-ci fəsilləri) mənim üçün xüsusilə maraqlıdır. Düşünürəm ki, bu fəsillər postsovet məkanında keçmiş sovet xalqlarının müstəqillik əldə edənə qədər və sonrakı dövrdə üzləşdiyi mürəkkəb prosesləri və ideoloji çağırışları tədqiq edən bütün tarixçilər və politoloqlar üçün son dərəcə maraqlı və ibrətamiz olacaq.

İnformasiya baxımından zənginliyinə görə hər biri ayrıca bir kitab ola biləcək genişhəcmli fəsillərin məzmununu burada təkrarlamaq fikrində deyiləm. Həmin fəsillərdə milli identikliyin dini, dil, ümumtürk, türk-Azərbaycan konsepsiyasından başlamış məxsusi Azərbaycan milləti konsepsiyasına, Ramiz Mehdiyevin təbirincə desək, tədricən siyasət, ideologiya və milli ideya statusu qazanmış azərbaycançılıq konsepsiyasına qədər çoxsaylı konsepsiyalar təqdim edilir, bu isə Şərqdə birinci Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasında mühüm rol oynayır.

Müəllif A.Bakıxanov və M.Kazımbəyin, M.F.Axundzadə və H.Zərdabinin, N.Nərimanov və Ü.Hacıbəylinin irsinə, sonrakı fəsillərdə isə Ə.Ağayev, Ə.Hüseynzadə, İ.Qaspıralı və M.Ə.Rəsulzadənin əsərlərinə müraciət edir. Bu mütəfəkkirlərin hər biri azərbaycançılıq ideya-siyasi doktrinasının formalaşmasına öz töhfəsini verib. Alim türk xalqlarının tarixində şanlı rol oynamış bu insanların hamısına çox böyük hörmət və minnətdarlıqla yanaşır, Mirzəbala Məmmədzadənin təbirincə desək, məhz onların sayəsində "cəmiyyətin şüurunda Azərbaycan ideyası bərqərar olub!"

Təəssüf ki, millətin əvvəllər misli görünməmiş mənəvi və fiziki yüksəlişi dövrü bolşevik ekspansiyası nəticəsində yarımçıq qaldı. Müəllif Azərbaycanın sovet imperiyasının tərkibində olduğu 70 illik dövrü birpartiyalı siyasi sistem və kommunist ideologiyası şəraitində milli ideyanın necə dəyişməsi və inkişaf etməsi baxımından araşdırır. Akademik Ramiz Mehdiyev tarixdə şəxsiyyətin böyük əhəmiyyəti və rolu barədə söhbət açaraq Azərbaycan Respublikasının rəhbərlərinin Mircəfər Bağırovdan Ayaz Mütəllibova qədər yaddaqalan portretlərini yaradır. Möhtərəm alimin bu həssas mövzuya tarixi-obyektiv yanaşması mənə çox xoş təsir bağışlayır. Bu rəhbərlərin hər biri, necə deyərlər, müsbət və mənfi cəhətləri ilə öz dəqiq "pay"ını alır, doğma respublikamızın sosial-iqtisadi və mədəni inkişafında onlardan hər birinin rolu ətraflı şəkildə və tarixi reallığa uyğun olaraq qiymətləndirilir.

Müəllif sovet tarixinin müxtəlif dövrlərini nəzərdən keçirərkən hətta müasir alimlərin və publisistlərin tədqiqatlarından sitat gətirir, hansıların ki, siyasi baxışları ilə qətiyyən razı deyil. Məsələn, ötən əsrin 50-ci illərində respublikada İ.Mustafayevin hakimiyyətdə olduğu dövrdən söhbət açarkən müəllif Cəmil Həsənlinin "Xruşşovun "mülayimləşmə dövrü" və milli məsələ" adlı kitabından dəfələrlə sitat gətirir, 1990-cı illərin əvvəlində gedən prosesləri təhlil edərkən Rasim Ağayevin və Zərdüşt Əlizadənin "Azərbaycan: ikinci respublikanın sonu" kitabına istinad edir. Gizlətmirəm, mənə xoş oldu ki, müəllifin sitat gətirdiyi kitablar arasında mən özümün Moskvada nəşr edilmiş "Heydər Əliyev. Şəxsiyyət və zaman" adlı üçcildliyimi də gördüm. Ümumiyyətlə, ən müxtəlif mənbələrə və müəllifləri fərqli, bəzən bir-birinə zidd baxışların və konsepsiyaların tərəfdarları olan ədəbiyyata müraciət edilməsi Ramiz Mehdiyevin kitablarına polifoniklik gətirir, nəticədə oxucuların şüurunda obyektiv mənzərə formalaşır.

Kitabın müəllifinin fikrincə, "milli tariximizdə yaxın vaxtlarda baş vermiş hadisələrə müraciət olunması çox vacibdir, azərbaycanlıların gələcək nəsli qloballaşan dünyada milli ideyanın reallaşmasından ötrü təməl yaratmaq üçün Azərbaycan xalqının necə mürəkkəb yol keçməli olduğunu yadda saxlamalı və bunu daha yaxşı dərk etməlidir".

Əslində, görkəmli Azərbaycan aliminin, Azərbaycanın müasir elmi fikrinin tanınmış korifeylərindən birinin Rusiya paytaxtında çapdan çıxmış fundamental əsərinin hədəfi elə bu məsələni həll etməkdir.

... Mən Heydər Əliyev haqqında öz kitablarımda bəhs etdiyim sovet keçmişimizə aid bir maraqlı epizodu xatırlatmaq istəyirəm. XX yüzilliyin 70-80-ci illərində Ramiz Mehdiyev Respublika Kommunist Partiyasının Mərkəzi Komitəsində məsul vəzifələrdə işləyirdi. Heydər Əliyevin Moskvaya getməsindən təxminən bir il əvvəl Ramiz Ənvər oğlu MK-nın tərkibinə daxil edildi, Büro üzvlüyünə namizəd seçildi və Təşkilati-partiya işi şöbəsinin müdiri təyin olundu. MK-nın bu aparıcı şöbəsi, o vaxtlar deyildiyi kimi, Azərbaycanın partiya və dövlət kadrlarının seçilməsi və yerləşdirilməsi ilə məşğul olurdu. Tezliklə bu şöbə Ramiz Mehdiyevin rəhbərliyi ilə saat mexanizmi kimi işləməyə başladı. Heydər Əliyev MK-nın Bürosundakı həmkarları ilə vidalaşanda öz şöbə müdirinin işi barəsində demişdir: "Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi uzun illər boyu Təşkilati-partiya işi şöbəsinin müdirini axtarırdı. Nəhayət, indi deyə bilərəm ki, biz Təşkilati-partiya işi şöbəsinin müdirini tapmışıq. Bu, Ramiz Mehdiyevdir". Heydər Əliyev öz komandasının üzvlərindən kimisə xüsusən başqalarının yanında çox nadir hallarda tərifləyərdi. Buna görə də Ramiz müəllimin işinə Heydər Əliyevin verdiyi qiyməti çox yüksək qiymət hesab etmək lazımdır...

Təsadüfi deyil ki, 1993-cü ildə Heydər Əliyev yenidən respublika rəhbərliyinə qayıdanda "köhnə qvardiya"dan ilk növbədə Ramiz Mehdiyevi xatırladı və onu Prezident Aparatına işə dəvət etdi - əvvəlcə Ümumi şöbənin müdiri kimi, az sonra isə çox mühüm bir vəzifəni - Prezident Administrasiyasının rəhbəri vəzifəsini ona etibar etdi...

Fikrimcə, Ramiz Mehdiyev xoşbəxt insandır. Çünki o, dahi Heydər Əliyevin komandasının üzvü kimi müstəqil Azərbaycanın ilk qurucularından biri olub. Gənc dövlətçiliyimizin dirçəlişi və möhkəmlənməsi proseslərində onun mühüm rolu və aşkar xidmətləri var.

Ramiz Mehdiyev bu gün də Prezident İlham Əliyevin komandasında aparıcı siyasi simadır. Bu yaxınlarda həmin komanda yenidən parlaq uğur qazandı, İlham Əliyevin inamlı qələbəsi ilə başa çatmış prezident seçkilərində sıx birlik və həmrəylik nümayiş etdirdi. Buna görə də akademik Ramiz Mehdiyevin adı Azərbaycanın ictimai-siyasi və intellektual-mənəvi tarixinə möhkəm daxil olub. Ramiz Mehdiyev bu tarixi öz zəhməti, zəkası, Prezidentə və dövlətə sədaqəti ilə yazıb və bundan sonra da yazacaq.

Mən böyük alimi həm növbəti kitabının çapdan çıxması, həm də əla fiziki və intellektual formada qarşıladığı yubileyi münasibətilə təbrik etmək, ona möhkəm cansağlığı, indiki kimi tükənməz əməksevərlik, müstəqil Azərbaycanın rifahı naminə yeni uğurlar diləmək istəyirəm.

***Elmira AXUNDOVA,***
***Milli Məclisin deputatı,***
***yazıçı-publisist***

# Bakıda İƏT Gənclər və İdman Nazirlərinin 4-cü sessiyası başa çatıb




Aprelin 19-da Bakı şəhərində İslam Əməkdaşlıq Təşkilatı (İƏT) ölkələri Gənclər və İdman Nazirləri (GİN) Konfransının 4-cü sessiyası öz işini başa çatdırıb.

Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin evsahibliyi ilə həyata keçirilən tədbir İslam Əməkdaşlıq Təşkilatı, Dialoq və Əməkdaşlıq üzrə İslam Konfransı Gənclər Forumu (İƏT Gənclər Forumu) və İslam Həmrəyliyi və İdman Federasiyasının (İƏT İdman Federasiyası) birgə təşkilatçılığı ilə reallaşıb.

Nazirlikdən AZƏRTAC-a bildiriblər ki, iki gün davam edən konfransda İƏT Gənclər strategiyası, Ortaq Gənclər Fəaliyyəti və idman üzrə qətnamələr, konfransın yekun hesabatı, nazirlərin görüşünün 5-ci sessiyasının tarixi və yerinin müəyyənləşdirilməsi ilə bağlı qərar, eləcə də yekun Bakı Bəyannaməsi müzakirə olunaraq qəbul edilib.

Bakı tədbirinin özəl cəhətlərindən biri İƏT tarixində ilk dəfə olaraq bu arealda konkret sahələr - təhsil, elm, məşğulluq, biznes və s. üzrə gənclərin inkişafına xidmət edəcək Gənclər strategiyası, eləcə də bu quruma üzv olan ölkələrin gənclik siyasəti sahəsində fəaliyyətini əlaqələndirəcək Ortaq Gənclər siyasətinin qəbul edilməsidir. 2025-ci ilədək dövrü əhatə edəcək bu fəaliyyət planları İƏT ölkələrində gənclərlə bağlı ən əhatəli sənəddir. Bu sənədlərin qəbulu Azərbaycanın İƏT ölkələrinin gənclər siyasəti sahəsinə verdiyi önəmli töhfələrdən biri hesab olunur.

Konfransın yekun Bakı Bəyannaməsində bütün qəbul edilən qərarlara üzv ölkələrin öhdəlikləri qeyd olunmaqla yanaşı, Azərbaycan dövləti ilə həmrəylik və tam dəstək nümayişi olaraq ölkəmizin ərazi bütövlüyünün bərpası, qaçqınların geri qaytarılması, İƏT Gənclər Forumunun mədəniyyətlərarası dialoq üzrə baş koordinatoru Leyla Əliyevanın təşəbbüsü ilə keçirilən "Xocalıya ədalət!" kampaniyasına dəstək verilməsinə üzv dövlətlərin dəvəti, işğal olunmuş ərazilərdə bütün növ gənclər və idman tədbirlərinin boykotu kimi müddəalar da öz əksini tapıb.

Bakı Bəyannaməsində, eyni zamanda, Azərbaycan Prezidenti İlham Əliyevin bu il aprelin 11-də keçirilən prezident seçkilərində qalib gəlməsi münasibətilə üzv dövlətlərin yekdil təbriki də əks olunub.

Tədbirdə İƏT Gənclər və İdman nazirlərinin 5-ci sessiyasının 2020-ci ildə Səudiyyə Ərəbistanında keçirilməsi qərara alınıb.

İƏT GİN nazirlərinin Bakı toplantısında 40-dan çox İƏT ölkəsini təmsil edən gənclər və idman üzrə nazirlər, agentlik və komitə sədrləri, eləcə də aparıcı beynəlxalq təşkilat nümayəndələri iştirak edib.

# Ermənistan silahlı bölmələri snayper tüfənglərindən və minaatanlardan istifadə etməklə atəşkəs rejimini 102 dəfə pozub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən və 60 millimetrlik minaatanlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 102 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan Respublikası Noyemberyan rayonunun Voskevan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Qazax rayonunun Qaymaqlı, Quşçu Ayrım, Aşağı Əskipara, Məzəm, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq, Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən isə Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Ağdam rayonunun Nəmirli, Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Abdinli, Novruzlu, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qərvənd, Qaraxanbəyli və Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

# Leyla Əliyevanın "Dünya yuxutək əriyir..." divanı Tehranda fars dilində nəşr olunub

Heydər Əliyev Fondunun vitse-prezidenti, şairə Leyla xanım Əliyevanın "Dünya yuxutək əriyir..." divanı Tehran şəhərində fars dilində nəşr olunub.

AZƏRTAC xəbər verir ki, divan "Kaspi" qəzeti və "Kaspi" Təhsil Şirkətinin "Azərbaycan ədəbiyyatını dünyada tanıdaq!" devizi altında bir neçə ildir həyata keçirdiyi layihələr çərçivəsində Tehranın məşhur Mobini-Əndişə yayım evinin Nevis mətbəəsində nəfis tərtibatda farsdilli oxucuların görüşünə gəlib. "Azərbaycan ədəbiyyatını dünyada tanıdaq!" layihəsinin rəhbəri yazıçı-publisist Sona Vəliyevanın təşəbbüsü ilə indiyədək İranda və Türkiyədə böyük Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin "Peyğəmbər", "Topal Teymur", "Şeyx Sənan", "Maral" əsərləri, "Cavid xəzinəsindən" adlı toplu, bundan başqa, bir çox xarici ölkə və keçmiş sovet respublikalarında müasir şair və yazıçılarımızın ən maraqlı yaradıcılıq nümunələri tərcümə olunaraq oxuculara təqdim edilib.




"Dünya yuxutək əriyir..." divanı bəhs olunan layihənin fars dilinə tərcümə edilmiş və nəfis nəşri təmin olunmuş növbəti uğurlu addımıdır. Leyla Əliyevanın yüksək dünyagörüşünü, daxili aləminin ecazkar zənginliyini, nadir poetik yaradıcılıq üslubunu, qəlbində köklənən sönməz ədalət hissini və duyğularını tərənnüm edən şeirlər fars dilinə görkəmli tərcüməçi-şair Əkbər Əlyar Həmidi və tanınmış şairə, yazıçı-publisist Süsən Nəvadə Rəzi tərəfindən peşəkarlıqla tərcümə olunaraq divana daxil edilib.

Qeyd etmək lazımdır ki, İran İslam Respublikasının ədəbi mühitində öz yaradıcılıq dəst-xətləri ilə seçilən Əkbər Əlyar Həmidi və Süsən Nəvadə Rəzi təkcə mütərcim kimi deyil, şair və tənqidçi kimi də böyük nüfuz sahibidirlər.

"Dünya yuxutək əriyir..." divanının fars versiyasına yazdığı ön sözdə mütərcim Əkbər Əlyar Həmidi qeyd edir: "İftixarla deyə bilərəm ki, geniş ictimai-siyasi fəaliyyəti, elitar ailə mənsubiyyəti ilə tanınan şairə zəngin fəlsəfi baxışlarına, nadir yaradıcılıq dünyası və poeziya səltənəti ilə bizə Xan qızı xatın Xurşidbanu Natəvanı xatırladaraq oxucunu heyrətdə qoyur... Divanın farsdilli oxucular tərəfindən böyük maraqla qarşılanacağına sonsuz ümid bəsləyirik".

Leyla xanım özünün zəngin dünyagörüşü, fitri yaradıcılıq istedadı, nadir poetik üslubu, təbiət hadisələri ilə insan hisləri arasındakı bağlılığı tərənnüm etmək qabiliyyətinə görə müasir ədəbiyyatımızda xüsusi seçilir. Heç şübhəsiz ki, "Dünya yuxutək əriyir..." divanı dünya ədəbiyyatında böyük və əzəmətli yeri olan fars dilində yazılmış əsərlər sırasında özünə layiq yer qazanacaq, divandakı şeirlərin bir çoxu qonşu ölkənin bəstəkar və müğənniləri, eləcə də farsdilli poeziyasevərlər üçün cəlbedici olacaq.

Nəşrin rəhbəri və poetik ön sözün müəllifi AZƏRTAC-ın Türkiyə üzrə xüsusi müxbiri, siyasi elmlər üzrə fəlsəfə doktoru, yazıçı-publisist Sabir Şahtaxtıdır.

"Dünya yuxutək əriyir..." divanı ilə tanış olmaq istəyən farsdilli oxucular kitabı Azərbaycanın və İranın əksər böyük kitabxanalarından və satış məntəqələrindən əldə edə bilərlər.

Qeyd edək ki, nəşrin təşəbbüskarları divanın yaxın gələcəkdə İran İslam Respublikasında ərəb qrafikası ilə Azərbaycan dilində nəşrini də nəzərdə tuturlar.

# Küveyt qəzetində Aida İmanquliyevanın həyat və yaradıcılığına dair məqalə dərc olunub

Küveyt Universitetinin geniş oxucu auditoriyasına malik həftəlik "Afaq" qəzetində bu ali təhsil müəssisəsinin Dillər Mərkəzində oxuyan azərbaycanlı tələbə Elnurə Süleymanovanın şərqşünas alim, pedaqoq, filologiya elmləri doktoru, professor Aida İmanquliyevanın həyat və yaradıcılığına dair məqaləsi dərc olunub.

Səfirlikdən AZƏRTAC-a bildirilib ki, məqalədə oxuculara professor Aida İmanquliyevanın orta məktəbi qızıl medalla bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinə daxil olması və elə həmin universitetin Şərq xalqları və ədəbiyyat tarixi kafedrasını fərqlənmə diplomu ilə bitirməsi və daha sonra keçmiş SSRİ Elmlər Akademiyasının Asiya xalqları İnstitutunun aspiranturasında təhsil alması barədə geniş məlumat verilib.



Müəllif qeyd edir ki, A.İmanquliyeva qısa müddət ərzində namizədlik dissertasiyasını müdafiə edib, məhcər ədəbiyyatının görkəmli nümayəndələrindən olan Mixail Nuaymə və Cübran Xəlil Cübran haqqında monoqrafiyalar yazıb. Alim istedadı və əməksevərliyi sayəsində qısa zamanda keçmiş Sovet İttifaqında yeni ərəb ədəbiyyatının ən tanınmış mütəxəssislərindən birinə çevrilib.

Vurğulanır ki, A.İmanquliyeva Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda kiçik elmi işçi kimi fəaliyyətə başlayıb, 1973-cü ildə həmin institutda baş elmi işçi kimi çalışıb, 1976-cı ildən ərəb filologiyası şöbəsinin müdiri, 1988-ci ildən elmi işlər üzrə direktor müavini, daha sonra isə ömrünün son günlərinədək Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun direktoru vəzifələrində çalışıb.

Məqalədə məlumat verilir ki, A.İmanquliyeva 1989-cu ildə Tbilisi şəhərində müvəffəqiyyətlə doktorluq dissertasiyası müdafiə edib, ilk azərbaycanlı qadın-ərəbşünas elmlər doktoru, tezliklə bu ixtisas üzrə professor adını alıb.

# Bakıda Universitet Prezidentlərinin Beynəlxalq Assosiasiyasının konfransı keçirilir

Aprelin 19-da Bakıda Universitet Prezidentlərinin Beynəlxalq Assosiasiyasının (UPBA) "Qloballaşma və ali təhsildə yeni meyarlar" mövzusunda konfransı öz işinə başlayıb.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) təşkilatçılığı ilə keçirilən konfransın işində Rusiya, ABŞ, İran, Gürcüstan, Hindistan, Polşa, Çin, Fransa, Meksika, Avstriya, Danimarka, Ukrayna və digər ölkələrdən 60-dək rektor və digər mötəbər qonaqlar iştirak edirlər.

Tədbir iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil qoyublar.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

Azərbaycanın ərazi bütövlüyü və müstəqilliyi uğrunda şəhid olmuş qəhrəman vətən övladlarının uyuduqları Şəhidlər xiyabanını ziyarət edən forum iştirakçıları məzarların üzərinə güllər qoyublar.

Konfransın plenar iclasında çıxış edən ADNSU-nun rektoru, professor Mustafa Babanlı tədbirdə təhsilin gündəmində olan məsələlər, qarşıda duran problemlərin həlli yolları ətrafında müzakirələrin aparılacağını bildirib. O, sürətlə qloballaşan dünyada inkişafla ayaqlaşa bilmək üçün təkcə bugünlə bağlı deyil, bilavasitə gələcək inkişafa hesablanmış addımların atılmasının zəruriliyini qeyd edib.

Rektor konfransın universitetlər arasında əməkdaşlığın genişləndirilməsinə və yeni əlaqələrin qurulmasına böyük töhfə verəcəyinə ümidvar olduğunu bildirib.

UPBA-nın prezidenti Kaxa Şengeliya "Qloballaşma və ali təhsildə yeni meyarlar" mövzusunda konfransda universitet rektorlarının, Azərbaycan və Gürcüstanın təhsil sahəsinə rəhbərlik edən şəxslərin iştirakını yüksək dəyərləndirib, tədbirin məhsuldar və səmərəli olacağına əminliyini bildirib.

Qeyd edilib ki, ikigünlük konfransda "Bilik transferinə müasir yanaşma: fənlərarası tədqiqat və təşəbbüskar və sahibkarlıq düşüncəsinin yüksəldilməsi", "Sosial məsuliyyət və bilik transferi. Universitet və sənaye əməkdaşlığı", "Ali təhsildə bərabərlik: təkliflər və imkanlar" mövzuları üzrə müzakirələr aparılacaq.

Təhsil nazirinin səlahiyyətlərini icra edən Ceyhun Bayramov Bakıda keçirilən bu mötəbər konfransın nəcib məqsədlərə xidmət etdiyini söyləyib. O, müasir qloballaşma dövründə həyatın müxtəlif sahələri kimi, təhsil mühitinin də çağırışlarla üzləşdiyini qeyd edib, konfransın çağırışlara qarşı mübarizəyə töhfə verəcəyini vurğulayıb, onun işinə uğurlar arzulayıb.

Gürcüstanın təhsil və elm naziri Mixail Çxenkeli təhsilin digər sahələrdən daha çox əməkdaşlıq tələb edən sahə olduğunu deyib. Qonaq konfransın təcrübə mübadiləsi və yeni əməkdaşlıqların qurulması üçün əlverişli platforma olduğunu bildirib.

Konfrans işini bölmələr üzrə davam etdirib.

Qeyd edək ki, 1965-ci ildə yaradılan UPBA ali təhsil müəssisələrinin yüksəkvəzifəli icraçılarının daxil olduğu beynəlxalq qurumdur. Təşkilata üzvlük məhdud olub regional akkreditasiyaya malik universitetlərin prezidentləri, rektorları və rektor müavinlərinə şamil edilir. Birlik qeyri-hökumət təşkilatı olaraq Birləşmiş Millətlər Təşkilatının İqtisadi və Sosial Şurasında (ECOSOC) məsləhətçi hüququna malikdir.

# Moskvada Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan elmi-praktik konfrans keçirilib

M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin (MDU) Tarix fakültəsində "Rus inqilabı və Azərbaycan Xalq Cümhuriyyətinin tarixi: 100 ildən sonra baxış" mövzusunda elmi-praktik konfrans təşkil olunub. Konfrans MDU-nun Tarix fakültəsinin, Azərbaycanın Rusiyadakı səfirliyinin və Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin təşkilatçılığı ilə keçirilib.

Konfransın aparıcısı, tarix elmləri namizədi, MDU-nun Yaxın xarici ölkələr kafedrasının dosenti İsmail Ağakişiyev Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) yaranma tarixindən danışıb. O, görüş iştirakçılarının Azərbaycan Xalq Cümhuriyyəti liderlərinin Azərbaycan dövlətçiliyinin formalaşmasında rolu, rus inqilabı, cümhuriyyət dövründə təhsil, Cənubi Qafqaz, Azərbaycan ziyalılarının formalaşmasında Rusiya təhsili və digər mövzuları müzakirə edəcəklərini diqqətə çatdırıb.

Tarix fakültəsinin dekanı İvan Tuçkov AXC-nin yaradılmasını tarixdə önəmli hadisə adlandıraraq bildirib ki, 1917-ci il inqilabı tarixin gedişini dəyişib. O, nə qədər faciəvi olsa da, XX əsrin əvvəllərində baş vermiş hadisələrin ətraflı öyrənilməsinin vacibliyini vurğulayıb, AXC-nin Azərbaycan Respublikasının formalaşmasının bütün mərhələlərinə təsir etdiyini qeyd edib.




Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu tədbirdən əvvəl M.V.Lomonosov adına MDU-nun rektoru Viktor Sadovniçi ilə görüşdüyünü qeyd edərək bildirib ki, universitetin rektoru Prezident İlham Əliyevin yenidən Azərbaycan dövlətinin başçısı seçilməsi münasibətilə təbriklərini çatdırıb, ölkələrimiz arasında əlaqələrin bundan sonra da sürətlə inkişaf edəcəyinə əminliyini ifadə edib. Səfir deyib ki, Azərbaycan Prezidenti İlham Əliyev AXC-nin 100 illiyinin qeyd olunması barədə sərəncam imzalayıb və bugünkü tədbir həmin sərəncam çərçivəsində keçirilən ilk tədbirdir.

Azərbaycan ilə Rusiya arasında əlaqələrin tarixinin 200 ildən çox bir dövrü əhatə etdiyini bildirən diplomat deyib ki, Yaxın Şərqdə ilk demokratik respublikanın yaradılması böyük hadisədir. XIX əsrin axırları və XX əsrin əvvəllərində Bakıda neft bumu müşahidə olunurdu. Təkcə Rusiyadan deyil, Avropadan da buraya mühəndislər, həkimlər, müəllimlər gəlirdilər. Bütün bunlar Azərbaycanda azadlıq, demokratiya ideyalarının formalaşmasına şərait yaradırdı. Təsadüfi deyil ki, Rusiya imperiyasının birinci və ikinci çağırış parlamentində - Dumada Azərbaycan nümayəndələri də seçilmişdilər, türk qrupunun rəhbəri isə Əlimərdan Topçubaşov idi.

Səfir vurğulayıb ki, müasir müstəqil Azərbaycan dövləti AXC-nin hüquqi və mənəvi varisidir. AXC-nin yaradıcıları olduqca mürəkkəb vəziyyətdə dövlət qura və az müddət - 23 ay fəaliyyət göstərmələrinə baxmayaraq, ölkəmiz və demokratiyanın inkişafı üçün böyük işlər görüblər.

Təhsil nazirinin müavini Firudin Qurbanov Azərbaycanda ilk demokratik respublika qurucularının xatirəsinin daim ehtiramla anıldığını bildirərək qeyd edib ki, AXC-dən danışarkən "ilk" sözü tez-tez işlənir. Bu, həm Şərqdə ilk demokratik respublika, həm Azərbaycanın ilk ordusu, himni, parlamenti və s. ilə bağlıdır. Nazir müavini həmçinin xatırladıb ki, ermənilərin azərbaycanlılara qarşı törətdikləri ağır cinayətlərin araşdırılması üçün ilk Fövqəladə İstintaq Komissiyasının yaradılması da AXC-nin adı ilə bağlıdır. Azərbaycan xalqının həmişə dinc yanaşı yaşama prinsipini üstün tutduğunu vurğulayan nazir müavini ölkəmizdə multikulturalizm siyasəti və ənənələrindən danışıb. O vurğulayıb ki, Azərbaycanda bütün tarixi abidələr, o cümlədən Bakının mərkəzindəki erməni kilsəsi dövlət tərəfindən qorunub saxlanılır.

F.Qurbanov 1918-ci ildə silahlı erməni daşnak dəstələri tərəfindən törədilmiş mart qırğınları zamanı ən böyük qırğının Şamaxı Cümə məscidində baş verməsindən və Prezident İlham Əliyevin tapşırığı ilə məscidin yenidən qurulmasından danışıb. Nazir müavini Azərbaycan ilə Rusiya arasında humanitar sahədə əlaqələrdən, Azərbaycanda rus dili və mədəniyyətinə qayğıdan da söhbət açıb.

Tarix fakültəsinin dekan müavini Oksana Solopova AXC-nin yarandığı dövrdə bir çox Azərbaycan ziyalılarının Rusiyanın müxtəlif ali məktəblərində təhsil aldıqlarını və ölkənin elmi, mədəni, siyasi həyatında mühüm rol oynadıqlarını bildirib. O, müasir Azərbaycan dövlətçiliyinin formalaşmasında AXC-nin təcrübəsinin əhəmiyyətindən danışıb.

AMEA Milli Azərbaycan Tarixi Muzeyinin elmi katibi Fərhad Cabbarov bu il ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan olunduğunu qeyd edərək, Azərbaycan və Rusiya alimlərinin sıx əməkdaşlıq etməsinin vacibliyini vurğulayıb. Alim Cənubi Qafqazda millətlərarası və etnoslararası münaqişələrin tarixinin öyrənilməsində Rusiya alimləri ilə əməkdaşlığın vacibliyini də diqqətə çatdırıb.

Tədbirdə sovet və Azərbaycan diplomatı, Azərbaycan emiqrasiyasının tədqiqatçısı Ramiz Abutalıbov, AMEA Tarix İnstitutunun şöbə müdiri İlqar Niftəliyev və başqaları da çıxış ediblər.

Tədbir çərçivəsində Heydər Əliyev Fondunun dəstəyi ilə nəşr edilmiş "1919-1940-cı illər Paris arxivi" dördcildliyinin təqdimatı olub.

# Azərbaycanın nümayəndə heyəti V Moskva Beynəlxalq Təhsil Salonu çərçivəsində forumda iştirak edir

Rusiya Federasiyasının (RF) paytaxtında V Moskva Beynəlxalq Təhsil Salonu çərçivəsində forum keçirilir.

RF-nin Təhsil və Elm Nazirliyi ilə UNESCO-nun Təhsildə İnformasiya Texnologiyaları İnstitutu tərəfindən birgə təşkil olunan "Dayanıqlı inkişaf məqsədləri 4: təhsildə İKT tətbiqi məsələlərinə dair qlobal dialoq" mövzusunda keçirilən nazirlərin forumunda təhsil nazirinin müavini Firudin Qurbanovun rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti də iştirak edir.

Təhsil Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, foruma RF hökuməti sədrinin müavini Olqa Qolodets, təhsil və elm naziri Olqa Vasilyeva, təhsil və elm nazirinin müavini Pavel Zenkoviç, UNESCO-nun təhsildə İKT-nin tətbiqi üzrə bölməsinin rəhbəri Fenqçun Miao, bir sıra dövlətlərin və beynəlxalq təşkilatların təhsil üzrə rəhbər şəxsləri, pedaqoqlar və metodistlər qatılıblar.

Tədbirdə çıxış edən F.Qurbanov bildirib ki, salon çərçivəsində təşkil olunan forum təhsil sahəsindəki son nailiyyətlərlə tanışlıq və bu sahədə fikir mübadiləsi aparmaq üçün əlverişli şərait yaradır.

Son illərdə Azərbaycanda təhsil sahəsində əldə olunan uğurlardan danışan F.Qurbanov İKT-nin nailiyyətlərindən geniş istifadənin təhsil sahəsində dövlət siyasətinin prioritet istiqamətlərindən olduğunu vurğulayıb. Bildirilib ki, beynəlxalq təcrübədən istifadə edilməklə tədris prosesində müasir informasiya texnologiyalarının sürətləndirilmiş tətbiqi "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda əksini tapıb.



Nazir müavini qeyd edib ki, strategiyanın reallaşdırılmasında xüsusi rol informasiya resursları mərkəzinə ayrılır. Bu məqsədlə nazirlik yanında müasir tələblər səviyyəsində təchiz edilmiş Data Mərkəz yaradılıb. Bu qurum nazirliyə tabe olan bütün təhsil müəssisələrini, təşkilatları və strukturları birləşdirən Azərbaycan Təhsil Şəbəkəsini yaratmağa, həmçinin elektron dərsliklərin və digər tədris resurslarının mərkəzləşdirilmiş qaydada yerləşdirilməsinə imkan verib. Hazırda bütün ölkə şagirdlərinin təxminən 82 faizinin təhsil aldığı və müəllimlərin 72 faizinin dərs dediyi 2.500 təhsil müəssisəsi bu şəbəkəyə qoşulub.

Azərbaycanda informatika fənninin tədrisinə və bu fənn üzrə olimpiadaların keçirilməsinə diqqət yetirildiyini bildirən F.Qurbanov vurğulayıb ki, Azərbaycanın Təhsil Nazirliyi Rusiyanın İT sistemlərinin istehsalçısı və şagirdlərə proqramlaşdırma modulunu tədris edən "Alqoritmika" təhsil şirkəti ilə birlikdə Bakının 45 məktəbində "Rəqəmsal bacarıqlar" pilot layihəsinə başlayıb. Layihəyə əsasən, informatika fənninin tədrisi məktəblilərə yeni texnologiyalar və rəqəmsal bacarıqları təcrübədə öyrətməyə imkan verən yeni formatda aparılır.

F.Qurbanov Təhsil Nazirliyi tərəfindən hazırlanmış elektron dərsliklər (www.e-derslik.edu.az) portalının fəaliyyətindən, distant təhsil çərçivəsində görülmüş işlərdən danışıb.

Qeyd edilib ki, Azərbaycan "Bakı Expo 2025" beynəlxalq sərgisinin ölkəmizdə keçirilməsi üzrə əsas iddiaçılardan biridir. Sərginin üç alt mövzusundan biri "Gələcəyin təhsili"dir.

Təhsil nazirinin müavini panel müzakirəsi zamanı tədbir iştirakçılarının suallarını cavablandırıb.

Sonra tədbir iştirakçıları salon çərçivəsində sərgi ilə tanış olublar.

F.Qurbanov həmçinin Moskva şəhərində təşkil olunmuş "Rus inqilabı və Azərbaycan Xalq Cümhuriyyətinin tarixi: bir əsrdən sonra baxış" mövzusunda beynəlxalq xarakterli tədbirdə çıxış edib. Nazir müavini iki ölkə arasında təhsil sahəsində əlaqələrin yüksək səviyyədə olduğunu qeyd edib, birgə həyata keçirilən layihələr haqqında məlumat verib.

M.V.Lomonosov adına Moskva Dövlət Universitetində keçirilmiş tədbirə Azərbaycanın Rusiya Federasiyasındakı səfiri Polad Bülbüloğlu da qatılıb.

Ümumilikdə V Moskva Beynəlxalq Təhsil Salonu çərçivəsində təxminən min tədbir keçiriləcək. Bu tədbirlərdə mindən çox ekspertin, 400 eksponentin və 60 mindən çox ziyarətçinin iştirakı nəzərdə tutulub.

Qeyd edək ki, aprelin 20-də salon çərçivəsində son 13 il ərzində ilk dəfə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin təhsil nazirlərinin görüşü keçiriləcək. Görüşdə F.Qurbanovun çıxışı gözlənilir.

V Moskva Beynəlxalq Təhsil Salonu çərçivəsində tədbirlər aprelin 21-dək davam edəcək.

# Topogeodeziya taktiki-xüsusi təlimi keçirilib







Müdafiə Nazirliyi tabeliyində olan hərbi hissədə desantçıxarma əməliyyatlarının naviqasiya-hidroqrafik, hidrometeoroloji və topogeodeziya təminatı mövzusunda taktiki-xüsusi təlim keçirilib.

Nazirliyin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimdə tədqiqat qruplarının formalaşdırılması, əməliyyat keçiriləcək əraziyə çıxışı və desantçıxarma əməliyyatlarının keçiriləcəyi ərazilərdə dərinlikölçmə və geodeziya ölçmələri icra edilib.

Hərbi hissə komandanlığı təlimlərdə iştirak edən şəxsi heyətin döyüş hazırlığını yüksək qiymətləndirib.

# Raket və artilleriya bölmələrinin taktiki təlimləri keçirilib







Müdafiə nazirinin təsdiq etdiyi 2018-ci il üçün döyüş hazırlığı planına uyğun olaraq müxtəlif təlim mərkəzlərində Raket və Artilleriya Qoşunlarının taktiki təlimləri keçirilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, bölmələrin döyüş vərdişlərinin təkmilləşdirilməsi məqsədilə keçirilən təlimlərdə döyüş atışları icra olunub.

Şəxsi heyət qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetirib.

# Abşeronun sosial-iqtisadi inkişafı davamlıdır

**Respublikamızın ictimai-siyasi həyatında mühüm hadisə olan prezident seçkiləri uğurla başa çatdı. Azərbaycanın demokratiya yolunda inamla irəliləməsinin təzahürü kimi tarixə düşən bu seçkilər həm də belə bir həqiqətin təsdiqi oldu ki, ölkəmizin inkişafının, dövlətçiliyinin daha da qüdrətlənməsinin əsas şərtləri və Heydər Əliyev yolunun uğurla davam etdirilməsi və bu yolda Prezident İlham Əliyevin həyata keçirdiyi uzaqgörən siyasətdir.**



## Abşeronluların 88,7 faizi İlham Əliyevə səs verdi

Dünən Abşeron Rayon İcra Hakimiyyəti başçısı yanında keçirilən 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafına və qarşıda duran vəzifələrə həsr olunmuş şura iclası da seçkilərin rayon üzrə nəticələrinin açıqlanması ilə başladı. Abşeron RİH başçısı İradə Gülməmmədova bildirdi ki, ölkəmizdə keçirilən prezident seçkiləri yüksək səviyyədə baş tutmuş, seçicilər azad və sərbəst şəkildə öz konstitusion hüquqlarından istifadə etmişlər. Seçicilərin 86 faizindən çoxu ölkənin taleyini Prezident İlham Əliyevə etibar edərək güvəndiyi liderinə yenidən etimad mandatı verdi. Abşeron seçiciləri də ölkənin digər şəhər və rayonlarında olduğu kimi, seçkilərdə fəallıq nümayiş etdirmiş, rayon üzrə bütün seçki məntəqələrində səsvermənin şəffaf və heç bir qanun pozuntusuna yol verilmədən keçirilməsi təmin olunmuşdur. Seçkilərdə rayon üzrə seçicilərin 76,5 faizi iştirak etmiş, onlardan 88,7 faizi cənab İlham Əliyevə səs vermişdir.

İradə Gülməmmədova onu da bildirdi ki, hər bir vətəndaş ölkəmizin uğurlarından qürur duyur. Qazanılan nailiyyətlər xalqımızı daha böyük qələbələrə, zəfərlərə ruhlandırır. Bu mənada Azərbaycan xalqı cənab İlham Əliyevin şəxsində məhz bu kursun davam etməsinə, ölkəmizdə son 15 ildə həyata keçirilən uğurlu siyasətin bundan sonra da reallaşmasına və daha böyük nailiyyətlərin qazanılmasına səs verdi. Bu dəyişməz seçim, eyni zamanda Azərbaycan cəmiyyətinin layiqli liderinin fenomenal liderlik keyfiyyətlərinə, parlaq şəxsiyyətinə sarsılmaz inam və rəğbətinin əyani təcəssümü oldu.

Abşeron RİH başçısı qeyd etdi ki, Prezident İlham Əliyev fəaliyyəti ilə hər bir vətəndaşın maraqlarının dövlət üçün üstün olduğunu daim nümayiş etdirmişdir. Dövlət başçısının fəaliyyətinin ən böyük uğurlarından biri də Azərbaycanın regionlarının sosial-iqtisadi inkişafı, cənubdan-şimala, şərqdən-qərbə çoxsaylı yaşayış məntəqələrində yeni sosial-mədəni obyektlərin - müasir tələblərə cavab verən yeni məktəblərin, səhiyyə ocaqlarının, yolların, idman komplekslərinin tikilməsi, yeni müəssisələrin yaradılması, yeni iş yerlərinin açılmasıdır. Bütün bunlar regionların yüksəlişinə səbəb olmaqla yanaşı, vətəndaşların dövlətə, onun rəhbərinə etimadını, sevgisini və rəğbətini daha da artırmışdır.

Prezident İlham Əliyevin andiçmə mərasimindəki çıxışına toxunan İradə Gülməmmədova bildirdi ki, dövlət başçısının dediyi kimi, son 15 il ərzində kifayət qədər uğurlar, nailiyyətlər var, ancaq biz əldə edilmiş nailiyyətlərlə kifayətlənməməliyik: "Biz gələcəyə baxmalıyıq və baxırıq. Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var. Biz qeyd etdiyim sahələr üzrə səylərimizi davam etdirəcəyik, Azərbaycanı daha da qüdrətli ölkəyə çevirəcəyik".

## Qarşıya qoyulan vəzifələr vaxtında yerinə yetirilir

Bu il aprelin 9-da Nazirlər Kabinetinin 2018-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Prezident İlham Əliyev qeyd etmişdir ki, dünyada beynəlxalq vəziyyətin gərgin olduğu, münaqişələrin və qanlı toqquşmaların davam etdiyi bir dövrdə ölkəmizdə sabitlik qorunmuş, uğurlu inkişaf davam etmiş, qarşıya qoyulan bütün vəzifələr yerinə yetirilmişdir. Bu ilin birinci rübündə ümumilikdə Azərbaycan iqtisadiyyatı 2,3 faiz, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində aparılan məqsədyönlü tədbirlər nəticəsində qeyri-neft sektoru 3 faiz, sənaye istehsalı 2 faiz, qeyri-neft sənayesi 10 faiz, kənd təsərrüfatı 4,2 faiz, xüsusilə bitkiçilik 50 faizdən çox artmışdır. Ölkə iqtisadiyyatına 3,5 milyard dollar sərmayə qoyulmuş, valyuta ehtiyatlarımız 2,2 milyard dollar artaraq 442 milyarda çatmışdır. Ötən rüb ərzində 34 min yeni iş yeri açılmış, 2004-cü ildən ötən dövr ərzində ölkəmizdə açılmış yeni iş yerlərinin sayı 1 milyon 500 mini ötüb keçmişdir.

Ölkə rəhbəri 2018-ci ilin birinci rübündə görülən işləri müsbət qiymətləndirmiş, bütün planların həyata keçəcəyinə, Azərbaycanın bundan sonrakı dövrdə də uğurla inkişaf edəcəyinə əminliyini bildirmişdir.

Respublikamızda aparılan uğurlu sosial-iqtisadi siyasət nəticəsində ötən 15 ildə ölkənin bütün bölgələri kimi, Abşeron rayonunun da hərtərəfli inkişafı üçün böyük işlər görülüb və bu işlər hazırda yüksək əzmlə davam etdirilir. Ölkənin hər yerində yaşanan inkişaf Abşeron rayonunun simasında da aydın müşahidə olunur. Son illərin real mənzərəsi Abşeronun ölkənin əsas inkişaf və quruculuq ünvanlarından biri olduğunu təsdiq edir. Bu inkişaf Abşeronun qüruru olduğu qədər ölkəmizdən kənarda Azərbaycanın gözəl tanıtımıdır. Rayon ərazisində olduqca mühüm infrastruktur layihələri həyata keçirilmiş, möhtəşəm tikililərin təməli qoyulmuş və uğurla başa çatdırılmışdır. İstifadəyə verilən və yenidən qurulan səhiyyə və təhsil müəssisələri, uşaq bağçaları, yollar, yol ötürücüləri və yol qovşaqları, idman qurğuları, parklar, inzibati binalar rayonun simasını tamamilə dəyişmişdir. Bu dövrdə həm ayrı-ayrı dövlət proqramlarından, həm yaradılmış azad sahibkarlıq mühitindən irəli gələrək rayonda çoxsaylı xidmət və istehsal sahələri fəaliyyətə başlamışdır.

Abşeronda həyata keçirilmiş çoxşaxəli tədbirlər sistemi həm kəmiyyət, həm də keyfiyyət göstəricilərinə görə miqyaslı, konkret və ünvanlıdır. Rayon rəhbərliyi üzərinə düşən məsuliyyəti düzgün dəyərləndirməklə fəaliyyətini dövlət başçısı İlham Əliyevin yeritdiyi çevik və səmərəli inkişaf strategiyasının mahiyyətinə uyğun qurmağa, idarəetmədə mütərəqqi prinsipləri tətbiq etməyə, qarşıda duran vəzifələri dəqiq müəyyənləşdirərək vaxtında icrasına nail olmağa çalışır. Abşeron RİH başçısı İradə Gülməmmədovanın sözlərinə görə, Prezident İlham Əliyevin apardığı siyasətin mahiyyətinə uyğun olaraq rayonda qarşıya qoyulmuş başlıca vəzifələr iqtisadi inkişaf, əhalinin sosial rifah halının yaxşılaşdırılması, abadlıq-quruculuq işlərinin daha sürətlə və keyfiyyətlə aparılması, təhsil-səhiyyə müəssisələrinə diqqətin artırılması, xidmət və infrastruktur sahələrində işin müasir dövrün tələblərinə uyğunlaşdırılmasıdır.

2018-ci ilin ötən dövrü Abşeron rayonu üçün də uğurlu olmuşdur. Rayonda bu dövrdə qarşıya qoyulmuş bütün vəzifələr yerinə yetirilmiş, sosial-iqtisadi sahədə, kənd təsərrüfatı istehsalında artım əldə olunmuş, abadlıq və quruculuq işləri genişləndirilmiş, yerli büdcənin icrası təmin edilmişdir.

## Sənaye istehsalında 18,7 faiz artım

Şura iclasında məruzə ilə çıxış edən Abşeron RİH başçısının müavini İlham Quluyev dedi ki, cari ilin birinci rübündə rayonda sənaye məhsulunun həcmi əvvəlki ilin eyni dövrü ilə müqayisədə 18,7 faiz artaraq 43,6 milyon manata çatmışdır. Rayon sahibkarları tərəfindən ixracyönümlü məhsul istehsalına diqqət artmış, ərazidə fəaliyyət göstərən 37 şirkət tərəfindən istehsal olunan 350 adda məhsulun xarici bazarlara çıxarılması üçün "Azexport.az" saytında müvafiq məlumatlar yerləşdirilmişdir.

Bu il Sahibkarlığa Kömək Milli Fondu tərəfindən rayon ərazisində fəaliyyət göstərən sahibkarlara 5 investisiya layihəsi üçün 8 milyon 317 min manat güzəştli kredit verilmişdir. Həyata keçiriləcək bu layihələr üzrə 136 yeni iş yerinin yaradılması nəzərdə tutulur. Ümumilikdə isə rayonda sənaye müəssisələrində işləyənlərin sayı 7572 nəfərdir. Onların orta aylıq əməkhaqqı 338 manat təşkil edir.

2018-ci ilin ötən müddəti ərzində sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün vergi orqanlarında 115 hüquqi, 690 fiziki şəxs vergi ödəyicisi kimi qeydiyyata alınaraq fəaliyyətə başlamışdır. Ümumilikdə sahibkarlıq fəaliyyətinə yaradılmış əlverişli şəraitin nəticəsi olaraq 3 ay ərzində rayon ərazisində 1360 yeni iş yeri açılmışdır.

2018-ci ilin 3 ayı ərzində rayonda tikinti işlərinin həcmi 16,1 milyon manat olmuşdur. Bu dövrdə rayonda Mənzil Tikinti Kooperativləri tərəfindən çoxmənzilli yaşayış binaları üzrə 91500 kvadratmetrlik yaşayış fondunun tikintisi başa çatdırılaraq istismara qəbul edilmişdir. Bundan əlavə, rayon ərazisində 54200 kvadratmetr qeyri-yaşayış obyekti, 42000 kvadratmetr isə istixana kompleksi istifadəyə verilmişdir.

















## Yerli büdcə gəlirləri 118 faiz yerinə yetirilib

Hazırda ölkə üzrə qarşıda duran vəzifələrdən biri büdcə xərclərinin səmərəliliyinin artırılması və optimallaşdırılmasıdır. Bu sırada artıq neçə illərdir ki, qarşıya qoyulan vəzifələrdən biri isə şəhər və rayonların dövlət büdcəsindən maliyyələşməsinin azaldılması və tədricən dayandırılmasıdır. Fərəhli haldır ki, hər il dövlət büdcəsinin tərtibi zamanı dövlət büdcəsinin dotasiyasından imtina edən şəhər və rayonların sayı artır.

Abşeron rayonu isə artıq 7 ildir ki, dotasiya almadan bütün xərclərini yerli daxilolmalar hesabına maliyyələşdirir. 2018-ci ildə rayonun öz xərclərindən əlavə 23 milyon manat vəsaitin dövlət büdcəsinə ödənilməsi nəzərdə tutulur.

Hesabat dövründə Abşeron rayon büdcəsinin yerli gəlirlər proqnozu 7 milyon 49 min 143 manata qarşı 8 milyon 317 min 119 manat və ya 118 faiz yerinə yetirilmiş, nəticədə büdcəyə nəzərdə tutulduğundan 1 267 976 manat əlavə vəsait daxil olmuşdur.

2018-ci ilin 3 ayı ərzində rayonun yerli büdcəsinin icrası 3072405 manat proqnoza qarşı 1604457 manat və ya 52,2 faiz icra olunmuşdur. Yerli xərclərin proqnozla müqayisədə az icra olunması əsasən mart ayının əməkhaqqının növbəti ayda ödənilməsi ilə əlaqədardır.

## Kənd təsərrüfatı sahələrində böyük canlanma var

Təbii ki, rayonun hərtərəfli yüksəlişində aqrar sektorun böyük rolu var. Kənd təsərrüfatı Abşeronda iqtisadiyyatın mühüm qolunu təşkil edir. Son illər Abşeronda sənayenin dinamik inkişafı ilə yanaşı, rayon üçün ənənəvi olan kənd təsərrüfatı sahələrində də mühüm canlanma hiss olunmaqdadır. Rayonun qəsəbə və kəndlərində əhalinin başlıca məşğuliyyəti olan heyvandarlıq və bitkiçilik məhsulları istehsalının həcmi ötən illərdə xeyli artmışdır.

Bu ilin birinci rübündə də rayonda kənd təsərrüfatı sahəsində, xüsusilə bitkiçilik məhsulları istehsalının artımına nail olunmuşdur. Ötən ilin müvafiq dövrü ilə müqayisədə 8 faiz çox olmaqla 414 hektar sahədə tərəvəz əkilmişdir. Hesabat dövrü ərzində 953 ton ət, 6996 ton süd istehsal olunmuş, yumurta istehsalı isə 36 milyon ədədə çatmışdır. Rayonun qəsəbə və kəndlərində əhali və fermer təsərrüfatlarında qaramalın sayı 21397 başa, davarın sayı 107547 başa, quşların sayı isə 876793 başa çatmışdır.

O da diqqətə çatdırıldı ki, Prezident İlham Əliyev tərəfindən verilmiş tapşırıqlara uyğun olaraq rayonun kənd təsərrüfatı torpaqlarında zeytun və badam bağları sahələrinin genişləndirilməsi ilə bağlı işlər davam etdirilir. Hazırda Xəzər rayonu ərazisindən Abşeron rayonuna təhkim olunmuş kənd təsərrüfatı təyinatlı torpaqlarda 4 min hektara yaxın sahədə aqropark yaradılması istiqamətində işlər sürətlə yerinə yetirilir. 60 hektar sahədə badam əkilmiş, damcılama suvarması şəbəkəsi quraşdırılmış, 30 ədəd müxtəlif təyinatlı texnika alınmışdır.

Prezident İlham Əliyevin 22 mart 2018-ci il tarixli sərəncamına əsasən, 2018-ci il dövlət büdcəsində əsaslı vəsait qoyuluşu xərclərindən Abşeron rayonunda xalça istehsalı emalatxanasının tikintisi, avadanlıq və dəzgahlarla təchizatı və infrastrukturun yaradılması məqsədilə "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinə 2 milyon manat vəsait ayrılmışdır. Bununla əlaqədar Qobu qəsəbəsi ərazisində 0,7 hektar sahənin ayrılması məqsədilə hazırda sənədləşmə işləri aparılır. Bu da rayonda xalçaçılığın inkişafına, bu sahədə qədim ənənələrin davam etdirilməsinə böyük təkan verəcək.

## Yol və kommunal infrastrukturların yenilənməsi daim diqqət mərkəzindədir

Ötən rüb ərzində rayonda abadlıq-quruculuq, çoxmənzilli yaşayış binalarının təmiri, əhalinin elektrik enerjisi, içməli su, təbii qazla təchizat, yol infrastrukturunun yaxşılaşdırılması istiqamətində işlər davam etdirilmişdir. Prezident İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq, ayrılmış vəsait hesabına Xırdalan şəhərində 23 çoxmənzilli yaşayış binasında təmir işlərinə başlanılmış, 21 binanın dam örtüyü, 14 binanın fasadı, 12 binanın pilləkən qəfəsi və kanalizasiya xətləri əsaslı təmir olunaraq sakinlərin istifadəsinə verilmişdir. Hazırda Ceyranbatan qəsəbəsində 6, Mehdiabad qəsəbəsində isə 1 çoxmənzilli yaşayış binasında təmir işləri aparılması üçün hazırlıq işləri görülür. Eyni zamanda Xırdalan şəhərində 9 çoxmənzilli yaşayış binasında 37 sərnişin liftinin təmir olunması üçün sənədləşmə işləri aparılır.

Güclü külək nəticəsində Xırdalan şəhəri, 28-ci məhəllə, 15 saylı çoxmənzilli yaşayış binasının uçaraq tamamilə yararsız hala düşmüş 1700 kvadratmetrlik dam örtüyü Fövqəladə Hallar Nazirliyinin ekspertiza rəyinə müvafiq olaraq yenidən qurulmuşdur.

Xırdalan şəhərində binalar arasında nümunəvi məhəllələrin yaradılması istiqamətində işlər davam etdirilir və növbəti aylarda bununla bağlı daha geniş layihələrin həyata keçirilməsi planlaşdırılır.

2018-ci ilin ötən dövrü ərzində rayonun daxili imkanları hesabına yol infrastrukturunun bərpası və inkişaf etdirilməsi məqsədilə rayonun yaşayış məntəqələrində daxili yollara 5038 kubmetr çınqıl tökülərək yayılmış, 4300 kvadratmetr sahə asfaltlanmışdır. Güzdək-Buta, Qobu-Lökbatan, Mehdiabad-Pirşağı avtomobil yollarının təmirinə başlanılmış, Bakı-Quba avtomagistralından Masazır, Novxanı istiqamətinə 2,7 kilometr uzunluğunda alternativ yolun asfalt olunması ilə bağlı müvafiq sənədləşmə işləri aparılır. Mehdiabad-Pirşağı yolunun kənarında 1500 metr uzunluğunda piyada səki çəkilmiş, 500 metr uzunluğunda sıradan çıxmış 159 mm-lik boru yenisi ilə əvəz olunmuşdur.

Ötən illərdə olduğu kimi, cari ilin birinci rübündə də ekoloji tarazlığın qorunması və yaşıllıqların artırılması daim diqqət mərkəzində saxlanılmışdır. Cari ilin ötən müddəti ərzində rayonun yaşayış məntəqələrində 10 mindən çox zeytun, çinar, şam və digər növ ağaclar əkilmişdir.

Əhalinin sabit elektrik enerjisi ilə təminatı ilə bağlı yaşayış məntəqələrində 23 yeni transformator quraşdırılmış, 4 transformator təmir edilmiş, 249 ədəd dayaq və 31220 metr naqil dəyişdirilmiş, yaşayış məntəqələrində 32400 metr uzunluqda "SİP" kabelləşməsi aparılmışdır. Hökməli, Qobu, Aşağı Güzdək, Saray, Masazır, Fatmayı, Görədil, Novxanı, Məmmədli yaşayış məntəqələrində elektrik təsərrüfatının yenidən qurulması istiqamətində işlər davam etdirilmiş, Güzdək qəsəbəsinin enerji təchizatının Qaradağ rayonundan ayrılması məqsədilə Paylayıcı Transformator Məntəqəsinin tikintisi başa çatdırılaraq Qobu yarımstansiyasından qəsəbəyə 10 kilovoltluq xətt çəkilişinə başlanılmışdır. Hazırda Xırdalan, Masazır, Qobu yaşayış məntəqələrində inşa olunmuş yarımstansiyalardan yeni çəkilmiş kabellərin şəbəkəyə qoşulması istiqamətində işlər aparılır.

2018-ci ilin 3 ayı ərzində rayonun yaşayış məntəqələrində müxtəlif diametrli borularla 21100 p/m uzunluqda yeni içməli su, 12000 p/m uzunluqda kanalizasiya xətləri çəkilmişdir. 895 p/m uzunluqda korroziyaya uğramış xətt dəyişdirilərək 11 ədəd müxtəlif markalı nasos təmir edilmişdir. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə rayonun Pirəkəşkül, Qobustan kəndlərində içməli su, Mehdiabad və Digah qəsəbələrində isə ayrılmış vəsait həcmində 5200 p/m uzunluğunda kanalizasiya xətlərinin yenilənməsi işləri başa çatdırılmışdır.

Xırdalan şəhərinin su-kanalizasiya sisteminin yenidən qurulması ilə bağlı ötən ilin iyul ayından başlanılmış işlər sürətlə davam etdirilmiş, bugünə qədər 65 kilometr uzunluğunda içməli su, 30 kilometr uzunluğunda kanalizasiya xətti çəkilmişdir. Ümumilikdə layihə çərçivəsində 168 kilometr içməli su, 110 kilometr uzunluğunda kanalizasiya xəttinin çəkilişi işlərinin həyata keçirilməsi nəzərdə tutulur.

"Azərduz" İstehsalat Birliyinin fəaliyyət göstərdiyi Masazır duz gölünün ekoloji təmizliyinin təmin edilməsi ilə bağlı ölkə Prezidentinin müvafiq tapşırığı əsasında Masazır və Novxanı kəndləri ərazisində çirkab suların axıdılması üçün 13,2 kilometr xəttin 12,7 kilometr hissəsinin inşası başa çatdırılmış, hazırda nasosxananın inşası və 450 metr xəttin çəkilişi işləri sürətlə davam etdirilir. Tikinti-quraşdırma işlərinin növbəti ayın sonlarına tamamilə başa çatdırılaraq istifadəyə verilməsi nəzərdə tutulur. Bundan əlavə, təmir-tikinti təşkilatları tərəfindən Novxanı kəndi ərazisində layihə əsasında su şəbəkəsinin inşası davam etdirilir.

Rayon əhalisinin təbii qazla təchizatı ilə bağlı Saray və Novxanı yaşayış məntəqələrində müxtəlif diametrli 1300 paqonmetr uzunluğunda yeni təbii qaz xətləri çəkilmiş, rayon üzrə ümumilikdə 4422 ədəd sayğac quraşdırılmışdır.

## Hər bir sahə qayğı ilə əhatə olunub

2018-ci ilin 3 ayı ərzində rayonun təhsil, səhiyyə və mədəniyyət müəssisələrinin normal fəaliyyətlərinin təmin edilməsi istiqamətində işlər davam etdirilmişdir. Mehdiabad qəsəbəsində 1200 şagirdlik ümumtəhsil məktəbinin tikintisi başa çatmışdır.

Əhalinin səhiyyə xidmətinin yaxşılaşdırılması istiqamətində də müəyyən tədbirlər həyata keçirilmişdir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq tapşırığına uyğun olaraq, 2018-ci ilin fevral ayından rayonda sakinlərin tibbi müayinəsinə başlanılmış və artıq 47192 nəfər rayon sakini tibbi müayinədən keçirilmişdir. Müayinənin nəticəsi olaraq 2412 nəfər xəstəyə ambulator müalicə təyin edilmiş, 552 nəfər isə stasionar müayinə və müalicəyə göndərilmişdir.

Ötən illərdə olduğu kimi, rayonun şəhid, əlil və imkansız ailələrinə diqqət artırılmış, rayon icra hakimiyyəti başçısı yanında büdcədənkənar inkişaf və bərpa fondundan 15 şəhid ailəsinə, əlil və imkansıza 5300 manat yardım göstərilmişdir. Rayonun daxili imkanları hesabına Novruz bayramı ərəfəsində bütün şəhid ailələrinə bayram payı verilmişdir. Hesabat dövründə müraciət əsasında Məmmədli kəndində Qarabağ əlili Mahir Rzayevin fərdi yaşayış evinə kombi sistemi quraşdırılmışdır. Rayon ərazisində məskunlaşmış 11841 məcburi köçkün ailəsinin qayğısı da daim diqqət mərkəzində saxlanılır.

Rayon icra hakimiyyəti və onun struktur bölmələrinin fəaliyyətində vətəndaşların müraciətlərinə, təklif, ərizə və şikayətlərinə baxılması mühüm yer tutur. 2018-ci ilin 3 ayı ərzində rayon icra hakimiyyətinə 522 ərizə, təklif və şikayət daxil olmuşdur ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 15 faiz azdır. Rayon icra hakimiyyətinin başçısı tərəfindən keçirilən qəbullarda 156 nəfər vətəndaşın müraciəti dinlənilmiş, haqlı tələblərinin təmin olunması üçün lazımi tədbirlər görülmüşdür. Xüsusilə rayon icra hakimiyyətinin başçısı tərəfindən yerlərdə vətəndaşların səyyar qəbullarına üstünlük verilmiş, 2018-ci ilin 3 ayı ərzində rayonun kənd və qəsəbələrində 2 min nəfərdən çox sakinin iştirakı ilə səyyar qəbul-görüşlər keçirilmişdir.

İclasda qeyd olundu ki, rayonda abadlıq-quruculuq işlərinin davam etdirilməsi, təmirinə başlanılmış çoxmənzilli yaşayış binalarında işlərin keyfiyyətlə başa çatdırılması, işıq, içməli su, təbii qaz təchizatının daha da yaxşılaşdırılması, yaşıllıqların qorunub saxlanılması, sanitar təmizliyin təmin edilməsi, qanunsuz tikintilərin qarşısının alınması qarşıda duran mühüm vəzifələrdəndir. Çıxış edənlər bildirdilər ki, 2018-ci ilin növbəti aylarında da qarşıda duran mühüm tədbirlərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsinə nail olacaqlar.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Tam ədalətli, şəffaf və obyektiv

## *Beynəlxalq müşahidəçilərin rəyləri seçkinin real mənzərəsini yaratdı*

Aprelin 11-də Azərbaycanda keçirilən prezident seçkiləri həm yerli, həm də xarici medianın diqqət mərkəzində oldu. Sesvermənin gedişini 59 ölkənin 61 beynəlxalq təşkilatından 894 nəfər müşahidəçi izlədi. Bununla yanaşı, seçki prosesini 51 xarici kütləvi informasiya vasitəsinin 118 təmsilçisi işıqlandırdı. Beynəlxalq müşahidəçilərin rəyləri isə prezident seçkilərinin tam ədalətli, şəffaf və demokratik şəraitdə keçirildiyini təsdiqlədi.

Ölkə vətəndaşlarının böyük etimadını qazanan Prezident İlham Əliyev aprelin 18-də keçirilən inauqurasiya mərasimində bu məsələyə toxunaraq seçkilərin xalqın iradəsini əks etdirdiyini vurğuladı: “Seçkilər ədalətli və şəffaf şəkildə keçirilmişdir. Seçkilərdən əvvəl yerli və beynəlxalq təşkilatlar tərəfindən keçirilmiş rəy sorğuları, seçkilər günü yenə də beynəlxalq və yerli təşkilatlar tərəfindən keçirilmiş “exit-pol”lar seçkilərin rəsmi nəticələri ilə üst-üstə düşür. Bu, bir daha onu göstərir ki, seçkilər xalqımızın iradəsini, onun fikirlərini əks etdirir”.

Xarici müşahidəçilər seçkiyə hazırlıq, səsvermə prosesi və seçicilər üçün yaradılan şəraitlə bağlı yüksək fikirlər söyləmişdilər.



### “Seçkilərdə qeydə aldığımız bəzi yenilikləri Fransada da tətbiq etmək niyyətindəyik”

Təxminən 15 seçki məntəqəsində səsvermə prosesini izləyən Fransa parlamentinin üzvü Yasin Lamur təşkilatçılıqdan razı qaldığını bildirib. Qaydalara tam riayət edildiyini, bəzi yenilikləri gələcəkdə Fransada tətbiq etmək niyyətində olduğunu söyləyib: “Məsələn, məntəqələrdə veb-kameraların quraşdırılması vətəndaşlara evlərindən seçkiləri izləməyə imkan verir. Qeydiyyatla bağlı məsələyə gəldikdə, uzaqda yaşayanlar olduqları yerdən arayış təqdim etməklə yaxın məntəqələrdə səs verə bilirdilər. Fransada isə bu, mümkün deyil. Amma gördük ki, burada yaradılan şərait nəticəsində xüsusən də tələbələr bu çətinliklə üzləşmədilər”.

İsraildən olan müşahidəçi Daniel Herişkoviç səsvermə prosesinin çox yaxşı təşkil edilməsindən, seçkilərdə etibarlılığın, gizliliyin qorunmasından, bütün prosesin şəffaf təşkilindən razılığını bildirib.

MDB-nin müşahidə missiyasının nümayəndəsi Yevgeni Ryaquzov isə seçicilərin səsvermədə yüksək əhvali-ruhiyyə ilə iştirak etdiklərini, məntəqələrdə hər kəsin öz seçimini azad ifadə etməsi üçün lazımi şəraitin yaradıldığını söyləyib.

### Yaşlı nəslin nümayəndələri səsvermədə xüsusi fəallıq göstərirdi

Slovakiyalı deputat Peter Marçek qeyd edib ki, Azərbaycan dövlət müstəqilliyini bərpa edəndən sonra ictimai-siyasi və sosial-iqtisadi inkişafda sanballı nəticələr qazanıb, beynəlxalq aləmdə öz yerini möhkəmlədib: “Prezident seçkiləri bu il ölkənin həyatında əsas hadisədir. Şübhəsiz, bu seçkilər dövlətin və cəmiyyətin inkişafına təsir göstərəcək. Biz bir sıra seçki dairələrində və seçki məntəqələrində olmuşuq. Səsvermə vaxtında başlanıb, seçki komissiyalarının bütün üzvləri beynəlxalq standartlara uyğun və səmərəli işləyirlər. Xarici ölkələrdən müşahidəçilərin dəvət edilməsi onu göstərir ki, Azərbaycanda prezident seçkiləri açıq və sərbəst keçirilir. Müşahidəçilər və jurnalistlər öz fəaliyyətlərində heç bir problemlə üzləşmirlər”.

Azərbaycanda prezident seçkilərinə hazırlıqla əlaqədar böyük işlərin görüldüyünü vurğulayan slovakiyalı deputat bütün seçki məntəqələrinin zəruri rabitə vasitələri və texnika ilə təchiz olunduğunu deyib. O, vətəndaşların yüksək fəallığının güclü təsir bağışladığını, yaşlı nəslin nümayəndələrinin səsvermədə xüsusi fəallıq göstərdiyini diqqətə çatdırıb: “Vətəndaşlar seçki məntəqələrinə gəlir və istədiyi namizədə sərbəst səs verirlər. Bu, həmin insanların konstitusion hüquqlarının tam reallaşdırılmasını təsdiq edir. Azad və demokratik seçkilər keçirilməsi üçün hər cür şərait yaradılıb. Səsvermə zamanı Azərbaycan Respublikası Seçki Məcəlləsinin pozulması halları olmayıb”.

Üçüncü dəfədir ki, Azərbaycanda seçkiləri izləyən bolqarıstanlı deputat Hamid Hamid isə gənclərin fəallığından danışaraq bildirib ki, bu, çox sevindirici haldır. Gənclərin dövlət idarəçiliyində, qərar qəbuletmədə iştirakı çox əhəmiyyətlidir.

### Müşahidəçilər seçki qutularına maneəsiz nəzarət edə bilirdilər

“Müşahidələr zamanı heç bir anlaşılmazlıq və ya pozuntu qeydə alınmadı. Bir çox məntəqələrdə veb-kameraların quraşdırılması isə ölkənizdə demokratik, azad seçkilərin beynəlxalq normalara uyğun olduğunu göstərir” deyən Estoniya parlamentinin deputatı Yanus Marrandi bildirib ki, Azərbaycan seçkilərə çox yaxşı hazırlaşıb.

Finlandiyalı müşahidəçi Yuha Korkeaoya Azərbaycanda prezident seçkilərinin beynəlxalq normalara uyğun, şəffaf və ədalətli şəkildə keçdiyini bildirib. O, qeyd edib ki, Azərbaycanda səsvermə prosesi qanunauyğun şəkildə aparılıb: “Seçki məntəqələrinin yaxınlığında kampaniya aparılmadı. Məntəqələrə sərbəst və məhdudiyyətsiz giriş var idi. Seçki prosesində heç bir kənar müdaxilə qeydə almadıq. Seçki prosesinin çoxsaylı müşahidə missiyaları tərəfindən izlənilməsi şəffaflığın artırılmasına öz töhfəsini verib. Müşahidəçilər seçki qutularına maneəsiz nəzarət edə bilirdilər”.

Ukrayna Ali Radasının keçmiş üzvü Maksim Kuryaçi də qanunvericiliyə müvafiq olaraq seçkilərin demokratik keçirilməsi üçün hər bir şəraitin yaradılmasından məmnunluğunu ifadə edib. Bildirib ki, onların qarşılarına qoyduğu əsas yeganə məqsədi Azərbaycan dövləti tərəfindən vətəndaşların ölkənin siyasi həyatında iştirak etməklə bağlı konstitusion hüquqlarını reallaşdırmağa nə dərəcədə təminat verildiyini müəyyən etmək idi. O, seçkilər ərəfəsində xeyli insanla görüşüb söhbət etdiyini, qanunun tələblərinə riayət edilməsinin şahidi olduğunu xüsusi vurğulayıb.

### Prezident seçkiləri açıq və şəffaf keçirildi

İsrailin 9 nəfərdən ibarət nümayəndə heyəti də seçkiləri müşahidə edib. İsraildən olan müşahidəçi, beynəlxalq münasibətlər üzrə ekspert Arye Qut bildirib ki, prezident seçkiləri beynəlxalq norma və qaydaların tələblərinə müvafiq şəkildə, yüksək səviyyədə keçib, seçicilərə heç bir təzyiq olmayıb. Bu seçkilərin yaxın gələcəkdə Azərbaycanın demokratikləşməsi yolunda daha bir addım olacağını vurğulayıb. O bildirib ki, İsraildə seçki prosesi bu gün Azərbaycanda izlədikləri kimidir. Hətta Azərbaycanın bəzi üstünlükləri var. İsrailin yüksək texnologiyalar ölkəsi olmasına baxmayaraq, seçkilərdə ultrabənövşəyi işıqlı cihazdan istifadə olunmur.

Müşahidə zamanı hər hansı bir qanun pozuntusuna rast gəlmədiyini söyləyən İnsan Hüquqları üzrə Beynəlxalq Komitənin üzvü Eli Naxt Azərbaycanda seçkilərin demokratik şəraitdə keçirildiyini vurğulayıb. Səsvermə prosesinə, həmçinin seçici fəallığının əhəmiyyətinə toxunan müşahidəçi deyib: “Seçici fəallığı bir daha göstərir ki, ölkənin gələcək taleyi vətəndaşları düşündürür. Onlar inanırlar ki, qarşıdakı illərdə Azərbaycan daha sürətlə inkişaf edəcək, xalqın rifahı daha da yaxşılaşacaq”.

Prezident seçkilərini müşahidə edən Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Necdet Ünüvar da səsvermə zamanı təhlükəsizlik tədbirlərinin yüksək səviyyədə təşkil olunduğunu vurğulayıb.

Seçkilərin azad və demokratik mühitdə keçirildiyini bildirən N.Ünüvar diqqətə çatdırıb ki, səsvermə zamanı hər hansı problem yaşanmayıb. O deyib: “Seçkilərdə qadınlar kişilərlə müqayisədə daha fəal idilər. Prezident seçkilərində qələbə münasibətilə İlham Əliyevi təbrik edirik və Azərbaycanın daha da inkişaf etməsini arzulayırıq”.

### Bütün vətəndaşlara bərabər şərait yaradılmışdı

Litva nümayəndə heyətinin rəhbəri, Baltik Assambleyasının prezidenti Valeri Simulik Baltik Assambleyasının və Litva parlamentinin nümayəndə heyətinin aprelin 11-də 30 məntəqədə müşahidə apardıqlarını bildirib. Seçkilərin qanunauyğun şəkildə keçirildiyini, seçicilərin sərbəst şəkildə seçki məntəqələrinə gələrək heç bir təzyiqlə üzləşmədən öz namizədlərinə səs verdiklərini qeyd edib. Seçki prosesinin tam qanunauyğun, şəffaf keçirildiyini deyən beynəlxalq müşahidəçi Azərbaycandakı seçici fəallığının heç Avropada da müşahidə olunmadığını deyib.

Moldova parlamenti sədrinin müavini Vladimir Vitiuc isə seçkilərin hazırlanması və təşkili prosesindən danışıb: “Səsvermə ən yüksək səviyyədə keçdi. Bütün vətəndaşlara bərabər şərait yaradılmışdı və onlar öz iradələrini ifadə etmək imkanı qazanmışdılar. Biz şəffaflığın təmin edilməsinə xidmət edən yeniliklər də gördük. Bu mənada Azərbaycanın təcrübəsi digər ölkələr üçün nümunədir”.

Mərkəzi Seçki Komissiyasının və seçkilərə cavabdeh olan müvafiq qurumların seçki prosesinə ciddi yanaşdığını deyən V.Vitiuc seçkilər zamanı beynəlxalq müşahidəçilər üçün də yaxşı şəraitin yaradıldığını bildirib.

***Səbinə MƏMMƏDOVA,***
***“Azərbaycan”***

# Türkiyə növbədənkənar seçkilərə hazırlaşır

## *Prezident və parlament bu ilin iyununda seçiləcək*

Qardaş Türkiyədə növbəti prezident və parlament seçkiləri gələn ilin noyabrına planlaşdırılırdı. Bu seçkilərdən sonra dövlət parlament üsuli-idarəsindən prezidentlik sisteminə keçməli idi. Ötən ilin aprelində seçicilər referendumda dövlətin idarə edilməsi sistemini dəyişdirməyi dəstəkləmişdilər. Müxalif siyasi qüvvələrin konstitusiya dəyişikliyinə etiraz etməsinə baxmayaraq, prezident üsuli-idarəsinin 2019-cu ilin noyabrında növbəti seçkilərdən sonra tətbiq ediləcəyi qaçılmaz oldu.



Türkiyənin prezident respublikasına çevrilməsinin zəruriliyi barədə təkliflər on ildən çoxdur irəli sürülürdü. Əsas səbəb kimi prezidentlik sisteminin ölkədə möhkəm siyasi sabitliyin bərqərar olmasına və nəticə etibarilə cəmiyyətin davamlı inkişafının təmin edilməsinə imkan verdiyi göstərilirdi. Tarixi təcrübə sübut edir ki, Türkiyədə siyasi koalisiya yaratmaq mədəniyyəti formalaşmamışdır və parlament seçkilərindən sonra təşkil edilən koalisiya hökuməti çox keçmədən dağılır. Bu səbəbdən tez-tez parlament seçkiləri keçirmək lazım gəlir, amma sabitliyi təmin edib irəliyə getmək mümkün olmur. Belə bir şəraitdə biznes həmişə gözlənti halında olur, tez-tez dəyişən hökumətlə necə işləyəcəyini qərarlaşdıra bilmir. Yalnız təkpartiyalı hökumət iqtidara gələndə ölkənin ümumi inkişafı müşahidə edilirdi. Lakin belə bir hökumətin hakimiyyətə gəlməsi nadir hallarda olur. Odur ki, dövlətin idarə edilməsi sisteminin dəyişdirilməsindən başqa çarə qalmır.

Bununla yanaşı, növbəti seçkiləri gözləmədən referendumun nəticələrinin tezliklə tətbiq edilməsinin zəruriliyi barədə ara-sıra təkliflər irəli sürülürdü. Amma istər iqtidar, istərsə də müxalifət belə təklifləri ciddi qəbul etməyib gələn ilin noyabrını gözləyirdi. Üç gün əvvəl Milliyyətçi Hərəkat Partiyasının (MHP) sədri Dövlət Baxçalı bir daha prezident üsuli-idarəsinə keçidi uzatmamağı və erkən seçkilərə getməyin vacibliyini bəyan etmişdi. O qeyd etmişdi ki, Türkiyəni xaosa sürükləmək istəyənlərin oyunlarını pozmaq lazımdır: “Daxildən və xaricdən qaynaqlanan təhdidlərin gücləndiyi bir zamanda Türkiyə yeni hökumət sisteminə çox sürətlə keçməli, daşlar yerində oturmalı, xırda-para müzakirələr kəsilməlidir. Bizə görə, başqa çarə qalmamışdır”.

Dövlət Baxçalının təklifi dərhal hakimiyyətdən dəstək aldı. Srağagün MHP-nin lideri ilə dövlət başçısı, hakim Ədalət və İnkişaf Partiyasının (ƏİP) sədri Rəcəb Tayyib Ərdoğan arasında görüş zamanı prezident və parlament seçkilərini bu il növbədənkənar qaydada keçirmək barədə razılaşma əldə edildi. Ardınca Ərdoğan səsvermənin tarixini açıqladı - 24 iyun.

Türkiyə Prezidenti seçkilərin erkən keçirilməsinin vacibliyinə toxunaraq qeyd etdi ki, yeni sistemə keçid get-gedə aktuallıq kəsb etməyə başlamışdır: “Prezidentlə hökumətin uyumlu işi sayəsində ciddi bir problemin yaşanmadığı görünsə də, keçmiş sistemin xəstəlikləri atdığımız hər addımda qarşımıza çıxa bilər. Buna baxmayaraq, millətimizə verdiyimiz vədə uyğun şəkildə 2019-cu ilin noyabrındakı seçkilərə qədər dişimizi sıxmağa üstünlük verdik. Ancaq istər Suriyada keçirdiyimiz əməliyyatlar, istərsə də bölgəmizdə, xüsusilə Suriya və İraqda cərəyan edən tarixi əhəmiyyətli hadisələr Türkiyəni qeyri-müəyyənliyi tezliklə aşmağa vadar etmişdir. Ölkəmizin gələcəyi ilə bağlı qərarların daha güclü bir şəkildə qəbul olunması və tətbiq edilməsi üçün yeni idarəetmə sisteminə keçid daha da aktuallaşmışdır”.

Növbədənkənar seçkilərin keçirilməsi ideyasını müxalifətçi partiyalar da dəstəkləmişdir. Bəzi müxaliflər seçkilərin fövqəladə vəziyyət rejiminin davam etdiyi şəraitdə keçirilməsini normal saymır, demokratiyaya kölgə salacağını iddia edirdilər. Hakim partiyanın həmin şəxslərə münasibəti birmənalı oldu: fövqəladə vəziyyət bir mövzu, seçki isə başqa bir mövzudur. Üstəlik, fövqəladə vəziyyət rejiminin hədəfi xalq yox, terrorçulardır. Yeri gəlmişkən, ötən ilin aprelində Türkiyədə referendum keçiriləndə də fövqəladə vəziyyət rejimi qüvvədə idi. Amma bu, xalq səsverməsini normal keçirməyə mane olmadı.

Ana müxalifət partiyası - Cümhuriyyət Xalq Partiyası seçkilərə hazır olduğunu bəyan etmişdir. Partiyanın prezidentliyə namizədinin adının yaxın iki həftə ərzində elan ediləcəyi gözlənilir. Başqa bir müxalif partiyanın - İYİ partiyasının lideri Maral Akşənər də prezident seçkilərində namizədliyini irəli sürəcəyini bildirmişdir. MHP isə prezident seçkilərində namizəd göstərməyəcək, dövlət başçısı, ƏİP-in lideri Rəcəb Tayyib Ərdoğanı dəstəkləyəcək.

Göründüyü kimi, Türkiyənin bütün siyasi qüvvələri növbədənkənar seçkilərin zəruriliyini dərk edir. Siyasətçilər belə bir məqamı nəzərdən qaçırmırlar ki, ölkədə idarəetmə sisteminin dəyişəcəyi artıq fakt olduğundan sistemin tətbiqini gecikdirməyin heç bir faydası yoxdur. Gələn ilin noyabrınadək hələ xeyli vaxt var. O vaxtadək seçki müzakirələri davam edəcək və ictimaiyyət bu məsələ ilə məşğul olacaqdı. Odur ki, heç kimə heç bir faydası olmayan müzakirələri başa vurub sözdən işə keçmək lazımdır.

Digər tərəfdən, hazırda Türkiyə bir-birindən ciddi təhdidlərlə üz-üzədir. İraq və Suriyada sular durulmaq bilmir, regionu hər an yeni təhlükə gözləyə bilər. Terrorçu qruplaşmalar və onların havadarları ayaq üstədir, hazırladıqları planları reallaşdırmaqda israrlıdırlar. Terror aktlarından ən çox əziyyət çəkən ölkələrdən biri Türkiyədir. Seçki müzakirələrinin davam etdiyi bir ölkənin terrorizm kimi böyük bəla ilə mübarizədə toparlanması çətindir. Ona görə də bu müzakirələri tezliklə bitirib bütün səyləri terrorizmlə mübarizəyə yönəltməkdən başqa yol görünmür. Əks təqdirdə, Türkiyə çox şey itirər, itirdiklərini də qaytara bilməz.

Beləliklə, Türkiyə növbədənkənar seçkilərə köklənmişdir. Partiyalar namizədlərini müəyyənləşdirir, seçkiqabağı təşviqat planlarını hazırlayır. Öz növbəsində seçkiləri keçirəcək səlahiyyətli orqan - Ali Seçki Komissiyası (ASK) işə başlamışdır. Hazırda ASK seçki kampaniyasının təqvimi üzərində işləyir. Təqvim parlament seçkilərinin keçirilməsi haqqında qərar qəbul etdikdən sonra elan ediləcək.

Türkiyə 2018-ci il 24 iyundan sonra yeni mərhələyə qədəm qoyacaq. Bundan sonra prezident və parlament seçkiləri beş ildən bir eyni gündə keçiriləcək.

***Allahverdi MEHDİYEV,***
***“Azərbaycan”***

# Azərbaycanın uğurları dünyanı növbəti dəfə Bakıya gətirir

*Əvvəli 1-ci səh.*

### Təhlükəsiz və abad ölkənin sürət zirvəsi





Cəmi 27 il müstəqillik tarixi olan bir dövlətin qısa müddətdə bu nüfuza sahib olması və dünya ictimaiyyətinin ən sanballı tədbirlərinin Azərbaycanda keçirilməsi antiazərbaycançı şəbəkəni çox məyus etdi. Əlbəttə, bu, düzgün strategiya, Azərbaycanda aparılan köklü islahatlar nəticəsində mümkün oldu. Ölkəmizin sosial-iqtisadi inkişafı, ölkədaxili uğurları və beynəlxalq arenada qazandığı nailiyyətlər Azərbaycanı dünyaya aparmaqla yanaşı, dünyanı da Bakıya toplaya bildi. Bu gün Azərbaycanın uğurları, abadlığı və təhlükəsiz bir ölkə olduğu hər kəsə bəllidir. Azərbaycan nəinki regionda, dünyada nümunə göstərilir.

Dörd il bundan öncə beynəlxalq idman ictimaiyyətinin “Formula-1” kimi möhtəşəm idman yarışmasının Bakıda keçirilməsinə qərar verməsi heç də təsadüfi deyil. Bu, ilk növbədə, dövlətimizin başçısının irəli sürdüyü prinsiplər, müəyyənləşdirdiyi strateji xətt, atdığı konkret addımlar sayəsində Azərbaycanı sivilizasiyalararası dialoq, mədəni-intellektual əməkdaşlıq və idman mərkəzinə çevirmək bacarığından irəli gəlir. Azərbaycan yeni qurulan bir dövlət olsa da, işğalçı ölkə ilə tez-tez pozulan atəşkəs rejimində yaşasa da, dünyada sülhə, əmin-amanlığa sədaqətli olduğunu sübut edib. Ölkəmiz planetdə ümumbəşəri dəyərlərin, sülhün və əmin-amanlığın qorunması üçün çoxsaylı mühüm tədbirlərə evsahibliyi edən nadir dövlətlərdən biri kimi tanınıb. Eyni zamanda Azərbaycan bu gün dünyada həm də sülh tərəfdarı olan, sülhə verdiyi töhfələrlə tanınan ölkədir və bütün sahələrdə çox böyük inkişaf yolu keçib, uğur qazanıb. Xüsusilə indiki şəraitdə - dünyanın müxtəlif yerlərində münaqişələr getdiyi bir vəziyyətdə Azərbaycanın mümkün olan bütün risklərdən, mənfi kənar təsirdən qorunması və inkişaf dinamikasını saxlaması onu bir daha təhlükəsiz və abad bir diyar kimi təsdiq edib. Bu mənada artıq üçüncü dəfədir Bakıda keçiriləcək “Formula-1”in ölkə üçün hansı siyasi məna kəsb etdiyi, eyni zamanda dünyanın Azərbaycana necə etimad göstərməsi tam aydın görünür.

### Azərbaycanın idman uğurlarının “Formula-1” sürəti

Digər maraqlı tərəflər isə Azərbaycan dövlətinin idmana dəyər verməsi, bu sahədə ön sıralarda olması və dünyada idman ölkəsi kimi tanınmasının əlamətidir. Bu, eyni zamanda ölkəmizdə son illər idmanın və bədən tərbiyəsinin, Olimpiya hərəkatının geniş vüsət alması ilə bağlıdır. Belə sanballı idman tədbirinin Azərbaycana həvalə edilməsi onu göstərir ki, respublikamız bütün sahələrdə, o cümlədən idmanda tərəqqi dövrünü yaşayır. Son 10 ildə respublikamızda idmanın müxtəlif növləri üzrə çoxsaylı dünya və Avropa çempionatları keçirilib. Bu tədbirlərin yüksək səviyyədə hazırlanması və keçirilməsi həm idmançılar, həm də idman ictimaiyyəti tərəfindən qeyd olunur. İdmançılarımızın mötəbər yarışlarda əldə etdiyi yüksək nailiyyətlər, dövlətin idmanın inkişafına dəstəyi, müasir idman infrastrukturunun mövcudluğu beynəlxalq miqyaslı tədbirlərin ölkəmizdə keçirilməsinə zəmin yaradan səbəblər sırasındadır.

Azərbaycanın burada keçirilən bütün beynəlxalq tədbirlərə yüksək səviyyədə evsahibliyi etməsi həm də ona göstərilən etimadın və nüfuzun göstəricisidir. Hələ 6 il əvvəl “Eurovision-2012” kimi möhtəşəm musiqi yarışmasını yüksək təşkilatçılıqla keçirən Azərbaycan başqa bir mötəbər idman tədbirinə - “Bakı-2015” I Avropa Oyunlarına da evsahibliyi etdi. İlk Avropa Oyunlarının Azərbaycanda yüksək səviyyədə keçirilməsi ölkəmizin insan hüquqları və demokratikləşmə, habelə milli-etnik, dini tolerantlığın təmini sahəsində əldə etdiyi böyük nailiyyətləri göstərdi. 2017-ci ildə isə 57 ölkəni təmsil edən idmançıların qatıldığı IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi üçün də ən ideal məkan Bakı seçildi. Odur ki, təkcə Cənubi Qafqazın deyil, Avropanın tolerantlıq, sülh və inkişaf mərkəzlərindən biri kimi tanınan Azərbaycanda “Formula-1” sürət yarışının keçirilməsi bir növ ölkəmizin uğur silsiləsinin davamı kimi də dəyərləndirilə bilər.

### 500 milyon tamaşaçının nəbzi Bakıda döyünəcək

Dünyanın ayrı-ayrı yerlərində keçirilən “Formula-1” sürət yarışması üçün təyin olunmuş öklələrə, seçilmiş şəhərlərə nəzər salanda bu tədbirin Bakıda keçirilməsinin əhəmiyyətini daha aydın başa düşmək olur. 70 ilə yaxındır ki, keçirilən “Formula-1” dünyanın aparıcı ölkələrində və ən təhlükəsiz şəhərlərində baş tutub. Yüksək statusa malik bu yarışlar geniş tamaşaçı auditoriyasına malikdir və bu turnirlər izlənmə sayına görə yalnız Yay Olimpiya Oyunları və futbol üzrə dünya çempionatından geri qalır. Daha çox sürət həvəskarlarının maraq dairəsində olan “Formula-1” Qran-priləri ilk vaxtlar ancaq Avropa ölkələrində keçirilsə də, hazırda dünyanı əhatə edir.

Əvvəlki yarışlarda olduğu kimi, bir neçə gün sonra Bakıda “Azadlıq” meydanından start götürən möhtəşəm “Formula-1” yarışması hüdudları aşaraq bütün dünyaya səs salacaq. 190 ölkədən 500 milyondan artıq tamaşaçının nəbzi yenə Bakıda döyünəcək. Necə deyərlər, sürət yarışı Azərbaycanın, o cümlədən paytaxt Bakının sürətlə tanıdılmasında və sevilməsində yeni imkanlar açacaq, bizə yeni dostlar qazandıracaq.

***Elnur HADIYEV,***
***“Azərbaycan”***

# *Mevlüt UYSAL:* “Seçkilərdəki inamlı qələbə Azərbaycan xalqı ilə Prezident İlham Əliyev arasında möhkəm birliyin təzahürüdür”

AZƏRTAC xəbər verir ki, bu sözləri İstanbul Böyükşəhər bələdiyyəsinin sədri Mevlüt Uysal Azərbaycanın bu şəhərdəki baş konsulu Məsim Hacıyev ilə keçirilən görüşdə deyib. Azərbaycana və xalqımıza böyük məhəbbətini ifadə edən bələdiyyə sədri ölkəmizin ictimai-siyasi həyatındakı bütün prosesləri diqqətlə izlədiyini, respublikamızın hərtərəfli inkişafından qürur duyduğunu vurğulayıb.

Baş konsul ümummilli lider Heydər Əliyevin “bir millət, iki dövlət” ifadəsinin iki qardaş xalqa dair bütün münasibətlərdə özünü göstərdiyini diqqətə çatdırıb. Baş konsulluqda yaradılan məntəqədə səsvermə prosesinin gedişi ilə bağlı məlumat verən diplomat bildirib ki, təkcə İstanbuldan yox, Türkiyənin digər şəhərlərindən də gələn Azərbaycan vətəndaşları səsvermədə fəal iştirak ediblər. Görüşdə Azərbaycanın və Türkiyənin bələdiyyələri arasında əlaqələrin inkişafına dair səmərəli fikir mübadiləsi aparılıb, iki qurumun əməkdaşlıq əlaqələrinin genişləndirilməsi müzakirə olunub. M.Uysal qeyd edib ki, Türkiyə tərəfi bələdiyyə sahəsində zəngin təcrübəsini hər zaman Azərbaycanla bölüşməyə hazırdır.

# Fransanın “Radio Courtoisie” radiosunda Azərbaycanda keçirilmiş prezident seçkilərinin şəffaflığından danışılıb

Fransanın “Radio Courtoisie” radiosunda yayımlanan verilişdə aprelin 11-də Azərbaycanda keçirilmiş prezident seçkilərindən danışılıb.

Verilişdə prezident seçkilərində müşahidəçi olmuş Mişel Vuazən seçkilər haqqında ətraflı məlumat verib. O bildirib ki, Azərbaycanda prezident seçkiləri şəffaf və ədalətli keçib. Mişel Vuazən seçki məntəqələrində veb-kameraların yerləşdirildiyini və hamının səsvermənin gedişini birbaşa izləmək imkanı olduğunu diqqətə çatdırıb.

Verilişdə ölkəmizin coğrafiyasından, mədəniyyətindən, tarixindən, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən də söhbət açılıb.

***AZƏRTAC***

# Mərkəzi Elmi Kitabxananın innovativ layihəsi

2014-cü ilin may ayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Mərkəzi Elmi Kitabxananın yeni inşa edilmiş binası istifadəyə verildi. Açılış mərasimində cənab Prezidentə kitabxananın bir neçə innovativ layihəsi sırasında Milli Rəqəmsal Yaddaş layihəsi də təqdim olundu. Layihənin zərurəti nədən irəli gəldi? Layihənin məqsədi nə idi və təqdimatından keçən 4 il ərzində nələr icra edildi?

Məlumdur ki, Azərbaycan tarixi və mədəniyyəti, demək olar ki, hər gün müxtəlif təhrif və informasiya təcavüzləri ilə üzləşir. Kibercəmiyyətin dinamik inkişaf etdiyi dövrdə dünya ictimai rəyi çap mediasından daha çox sosial media səhifələrindən bəhrələnir və dəfələrlə artıq sürətlə formalaşır. Bu təcavüzlər ləngimədən cavablandırılırmı? Kəsərli arqumentlər və əlçatan mənbələr ilə təmin olunurmu? Hazırda rəqəmsallaşdırılmış e-resurslar arasında Azərbaycan üçün yüksək əhəmiyyət kəsb edən məlumatlar pərakəndə şəkildə müvəqqəti portallarda, saytlarda, arxivlərdə, bazalarda yerləşdirilir. Eyni zamanda informasiya məkanında əhəmiyyətli, lakin rəqəmsallaşdırılmamış və sistemləşdirilməmiş şəkildə hərəkət edən məlumat da çoxdur. Ehtiyac yarandıqda bu məlumatların sistemli şəkildə aşkarlanması və istifadəyə verilməsi mümkünsüz olur. Ən vacibi isə informasiyanın etibarlı olub-olmaması barədə sosial media, sərbəst elektron resurslar və sadə internet istifadəçilərində heç bir məlumat olmur. Nəticədə informasiya güclü silah kimi səfərbər oluna bilmir. Milli yaddaşın sistemləşdirilməsi və qorunması problemlərinin həllini və missiyasını müasir dövrdə hansı qurum üzərinə götürə bilər? Təbii ki, etibarı əsrlərin sınağından keçmiş və informasiyanın keşikçisi və yayıcısı hesab olunan kitabxanalar.

Bu səbəbdən də Mərkəzi Elmi Kitabxana tərəfindən Azərbaycana aid informasiyanı idarə oluna bilən və əlaqələndirilə bilən strateji resursa çevirmək və informasiya müharibəsində üstünlük qazandıra bilən təsirli silah formalaşdırılması ehtiyaclarını qarşılaya bilən Milli Rəqəmsal Yaddaş layihəsi yaradıldı.

Layihənin qarşısına Azərbaycanın qədim mədəniyyəti, tarixi, torpağı, canlı örtüyü, bəşəriyyətin inkişafına qoyduğu intellektual yatırımları barədə mövcud olan məlumatları toplayıb sistemləşdirmək, rəqəmsallaşdırmaq, arxivləşdirmək, elektron kataloq vasitəsilə axtarışları asanlaşdırmaq, Azərbaycan və dünya oxucusunun, elmi araşdırıcısının, siyasətçisinin, diplomatının, diaspor nümayəndəsinin istifadəsinə verib silahlandırmaq və milli yaddaşımıza aid olan məlumatları etibarlı şəkildə qoruyub növbəti nəsillərə ötürmək kimi vəzifələr qoyulmuşdur. Bu yolla etnik və milli köklərin, dilin, ədəbiyyatın, musiqinin, ərazilərin, sərhədlərin bizimki olmasını, yaşını, mənsubiyyətini təsdiqləyən, bizimkiləşdirən faktlar, biliklər, onların istinad yeri və təsdiqi bir yerə toplanılır və bir silahdan "atılmağa" hazır edilir.

Milli yaddaşa Azərbaycan tarixinin və mədəniyyətinin inkişaf mərhələlərini, əhəmiyyətli faktlarını təsvir və ya təsdiq edən sənədlər, tarixi şəxslərin, nüfuzlu alimlərin topladığı və ya müəllifi olduğu kitab kolleksiyaları, Azərbaycanın intellektual potensialını əks etdirən, bədii-estetik, stilistik, linqvistik, milli adət və ənənə baxımından əhəmiyyət kəsb edən sənədlər, Azərbaycanı dünya irsi siyahılarına birləşdirən adlar, kəşflər, ixtiralar, nəzəriyyələr, müqavilələr, qanun layihələri aid edilir.

Şübhəsiz ki, kontent ilə yanaşı, Milli Rəqəmsal Yaddaş üçün önəm kəsb edən sənədin müəllifi və mənbəyi anlayışlarıdır. Azərbaycan tarixinin faktları, ərazisinin sərhədləri xarici mütəxəssislər tərəfindən qeyri-iradi, Azərbaycan-Ermənistan ərazi mübahisələrindən çox-çox öncə, tərəf bilmədən və tərəf saxlamadan yaratdıqları xəritələrdə, foto və rəsmlərdə üzə çıxan faktlar və yazılan məlumatlar mübahisəli torpaqların, geyimlərin, musiqi alətlərinin, məişət əşyalarının tarixən Azərbaycana məxsus olduğunu inandırıcı şəkildə təsdiq edir. Qarabağ və başqa ərazi mübahisələrini, eləcə də mədəni sərvətlərin mənsubiyyətinə dair xarici iddiaları nəzərə alaraq, mənbələrin "arqument"al gücü, təsir və ya inandırma qüvvəsi aşağıdakı istiqamətdə artır: Azərbaycan müəllifləri/mənbələri; xarici müəlliflər/mənbələr; beynəlxalq qurumlar və elmi cəmiyyətlərin ekspert rəyi, qərar və qətnamələri; beynəlxalq elmi konfransların yekun sənədləri; erməni müəllifi/mənbələri. Bu cür yanaşma ondan irəli gəlir ki, hətta ən etibarlı fakt Azərbaycan mütəxəssisi tərəfindən səsləndirilirsə, faktın inandırma gücü "Yenə də öz ərazi iddialarındadırlar" və ya "Münaqişəni davam edirlər" dərəcəsini aşmır. Bu sıradan "Azərbaycan tarixi xarici rəssamların əsərlərində" toplusunu nümunə gətirmək olar. İllüstrasiyalar və şərhlər ilə zənginləşdirilmiş elektron sənəd Milli Rəqəmsal Yaddaş bazasına daxil edilmişdir.

MRY bazasında "Qabusnamə"nin 1953-cü il nəşrindən sonra 1957-1958-ci illərdəki nəşrdən ermənilərə dair mətnlərin çıxarılması faktı, Suriya Milli Ensiklopediyasında ermənilərin Azərbaycana Türkiyə və İrandan köçüb gəlmələri barədə yazılar, İ.V.Stalinin imzası ilə 100 min azərbaycanlının Ermənistandan Kür-Araz ovalığına köçürülməsi və boşalmış yaşayış məntəqələrində xaricdən gələn ermənilərin yerləşdirilməsi haqqında SSRİ Nazirlər Kabinetinin 22 dekabr 1947-ci il tarixli qərarı, Heydər Əliyev Fondu tərəfindən hazırlanmış "Dağlıq Qarabağ Xanəndələri" adlı albom yer alıb. Bazaya Yusif Məmmədəliyevin "Yüksək oktanlı benzin"i və "Molotov kokteyli", Lütfi-Zadənin Süni intellekt nəzəriyyəsi və qeyri-səlis məntiqi baza sənədləri salınmaq üçün hazırlanır.

MRY ilə bağlı əhəmiyyətli məqamlardan biri də mənbələrin dilidir. MRY bazasının milli yaddaş bazası olmağı ilə yanaşı, təbliğat aləti olmasını, eyni zamanda MEK fondlarında dünyanın, demək olar ki, bütün dillərində yazılmış sənədlərin saxlanma təcrübəsini, yeni daxil olan sənədlərin də qeydiyyat, sistemləşdirmə və mühafizə imkanlarından çıxış edərək sənədlər rəqəmsal bazaya dünyanın istənilən dilində və qrafikasında daxil edilib paylaşıla bilir. Bu sənədlər sırasında Azərbaycanın Macarıstanda, Polşada, Özbəkistanda, İranda, Gürcüstanda, ABŞ-da, Çində və başqa ölkələrdə fəaliyyət göstərən diplomatik nümayəndəlikləri tərəfindən təqdim edilmiş mənbələr əhəmiyyət kəsb edir.

Rəqəmsallaşdırılan sənədlərin forma və formatına gəldikdə isə, Milli Rəqəmsal Yaddaşa kitab, jurnal, xəritələr ilə yanaşı, markalar, məsələn, Roma Papasının Azərbaycana səfərini əks etdirən marka, Azərbaycan üçün milli dəyər kəsb edən "Azərbaycan Milli Qəhrəmanları", "2016-cı il aprel ayının dördgünlük müharibəsində şəhid olmuş əsgərlər", "Atəşkəs dövründə şəhid olmuş əsgərlər", "Qarabağ şəhidləri", Xocalı soyqırımı zamanı torpaqlarını tərk etməyən, yaşadıqları yerlərdən köçməyən, axıra qədər ev-eşiyinin müdafiəsinə durmuş soydaşlarımız, "1979-1989-cu illərdə sovet hərbi qüvvələri tərkibində SSRİ-nin Əfqanıstanda apardığı müharibədə həyatını itirmiş azərbaycanlı əsgərləri", "Azərbaycan Elmi diasporu" adlı siyahılar, böyük geosiyasi, beynəlxalq əhəmiyyətli layihələr, məsələn, TANAP, Şimal Qaz Koridoru, "Cənub qaz dəhlizi", TAP, Bakı-Tiflis-Qars dəmir yolu, "Şahdəniz-2", müqavilələr, məsələn, "Əsrin müqaviləsi", beynəlxalq miqyaslı tədbirlər haqqında məlumat, məsələn, "Eurovision", "Formula-1", İslam Həmrəyliyi Oyunları, Humanitar Forum, Mədəniyyətlərarası dialoq üzrə II Beynəlxalq Forum, fundamental mövzuda, nümunəvi, başqa ölkələr tərəfindən standart kimi qəbul edilmiş qanun layihələri, məsələn, AİDS haqqında və Elm haqqında qanun layihələri və başqa formatlarda sənədlər aid edilir.

Çap və ya elektron formatda təqdim olunan sənədlər kitab, jurnal, əlyazma, müqavilə, vəsiyyətnamə, rəsm əsəri, plakat, xəritə, marka, fotoşəkil, faksimile, val, sikkə, arxeoloji qazıntı, qiymətli kağız, film, veb-səhifə, hətta gediş kartı formasında ola bilər.

Planlaşdırma və proqramlaşdırma işləri ilə yanaşı, fəaliyyətin icrasına cəlb edilən strukturların layihənin fəlsəfəsi, perspektivləri və mexanizmi ilə tanış olması önəmlidir. Bu baxımdan MEK tərəfindən Milli Rəqəmsal Yaddaş anlamının Azərbaycan ictimaiyyətinin gündəminə gətirilməsi və akademik icma tərəfindən sənədlərin məqsədyönlü şəkildə bazaya təqdim olunması həlledici mərhələlərdən biri oldu.

Layihənin başlanmasından keçən dörd il ərzində MEK-in proqramlaşdırma, kitabxana-xidmət və elektron resurslara nəzarət üzrə mütəxəssislərinin birgə çalışmaları nəticəsində sənədlərin sistemləşdirmə və təsvir formatı dünyada qəbul edilmiş MARC21 standartı və RDA qaydaları əsasında hazırlandı və daim yenilənmə imkanları ilə istifadəyə verildi. MRY bazası işlək səviyyəyə gətirildi. AMEA institutlarının hər birindən MEK-dən göndərilmiş müraciətə cavab olaraq milli yaddaşa salınması tövsiyə olunan sənədlərin siyahısı daxil edildi. Bununla da Milli Rəqəmsal Yaddaş bazası elmiləşdi. Siyahıların MEK Kitabxana-Xidmət şöbəsinin əməkdaşları tərəfindən emal edilməsi nəticəsində MRY-a daxil edilən sənədlərin sayı 9 minə yaxınlaşdı. Onlardan bir hissəsi Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu tərəfindən dəstəklənmiş layihə çərçivəsində rəqəmsallaşdırıldı. Rəqəmsal bazaya "MRY" qrifi ilə Turfan tapıntılarına məxsus mətnlər, 1911-ci ildə Bakıda ərəb qrafikası ilə çıxan siyasi-ictimai və ədəbi "Həqiqəti Əfkar" müsəlman qəzeti, "Azərbaycan" qəzeti (2003-2017), "Yeni Azərbaycan" qəzeti (2014-2017), "İki sahil" qəzeti (2017) daxil edilib.

MRY bazasının tətbiq imkanları genişdir. Yuxarıda qeyd olunanlar ilə yanaşı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı sərəncamların icrasına dair "ADR-100", "Hüseyn Cavid-135", "İslam həmrəyliyi ili" kateqoriyalarında rəqəmsal kolleksiyalar hazırlanmışdır. İstifadəçilərin ixtiyarına verilməklə yanaşı, kolleksiyalar mövzuya uyğun olaraq Azərbaycan Diplomatik Akademiyası, Budapeştdə Georq Hazainin Ev-kitabxanası, İstanbulda Kazım Qarabəkirin Ev-muzeyi, Naxçıvanda Hüseyn Cavidin Ev-muzeyi, Şamaxıda Mirzə Ələkbər Sabirin Ev-muzeyi, Ombudsman Aparatı və başqa təşkilatlara fondlarının zənginləşdirilməsi məqsədilə təqdim edilmişdi.



Rəqəmsal bazanın imkanlarından istifadə edərək beynəlxalq miqyasda keçirilən tədbirlərə də məlumat dəstəyi verilir. Belə ki, Beynəlxalq Muğam Festivalının keçirilməsi zamanı iştirakçıların istifadəsinə MEK fondlarında "Muğam" mövzusu üzrə hazırlanmış elektron kataloq və tam rəqəmsallaşdırılmış baza verilmiş, bu imkanlar barədə məlumat öncədən iştirakçılara təqdim olunmuşdur. Bu ilin payızında keçirilməsi nəzərdə tutulan Beynəlxalq Xalça Simpoziumu iştirakçılarına təqdim etmək üçün Azərbaycan Xalça Muzeyi ilə MEK sənəd bazalarını birləşdirib, elektron kataloq, elektron təqdimat və tam rəqəmsallaşdırılmış baza artıq hazırlanmışdır.

MRY bazasının daha bir tətbiq sahəsi sərbəst elektron resurslardır. Məlumdur ki, internetdə informasiya axtarışı zamanı ilk açılan resurslardan biri, bəzən də birincisi, Vikipediyadır. MEK nəzdində yaradılmış Vikipediya Metodik Mərkəzinin könüllüləri tərəfindən müxtəlif dilli vikipediyalarda, o cümlədən AzVikipediyada etibarlı məqalələr yaratmaq məqsədilə də istifadə olunur və viki-könüllülərin işinin sürət və həcminin artmasına kömək edir.

Milli Rəqəmsal Yaddaş bazası, şübhəsiz ki, Azərbaycan haqqında bilgiləri gələcək nəsillərə ötürmək üçün etibarlı yollardan biridir. Lakin bu gün informasiya texnoloqlarının, eləcə də kitabxana-informasiya mütəxəssislərinin qarşısında duran vacib məsələlərdən biri mədəni irsin qorunması və ötürülməsi prosesinə dəyişən informasiya texnologiyalarının təsirləri, yeni texnologiyaların kitabxana və arxivlərə təsirinin proqnozlaşdırılması, milli irsin dünya irsi ilə birləşməsi və universal əlçatanlığıdır. Bu baxımdan M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanası və Prezident Kitabxanası tərəfindən resursları əhatəli şəkildə, müasir formatda rəqəmsallaşdırıb istifadəçilərin ixtiyarına vermələri, eyni zamanda "dost" interfeys və asan axtarış ilə təmin etmələri kitabxanalarımız üçün nümunədir.

Milli yaddaşın rəqəmsallaşdırılması qarşımıza həllini gözləyən uzunmüddətli problemlər də qoyur. Hər gün terabaytlarla yaradılan məlumatlar, informasiya istifadəçilərinin özlərinin də informasiya istehsalçılarına çevrilməsidir. Biz bu informasiyanın hamısını saxlamaq niyyətindəyikmi? Xeyr. Ancaq nəyin önəmli olduğunu və rəqəmsallaşdırmaya hansı sənədlərin göndərilməsi qərarını milli ekspert komitələri verməlidir.

Başqa bir təhlükəli tendensiya ondan ibarətdir ki, hər şeyin internetdən tapıla biləcəyi düşünülür və çap kitabxanaların maliyyələşdirilməsi azalır. Yaddan çıxarmaq olmaz ki, rəqəmsal texnologiyalar sürətlə dəyişir və 15-20 il öncəki daşıyıcıların müasir avadanlıqlar tərəfindən oxunulması və kütləvi şəkildə istifadəsi artıq mümkünsüzdür. Nə edək ki, bu gün rəqəmsallaşdırılan sənədlər onilliklərdən sonra "anlaşılan, oxunulan" olsun? Nə edək ki, kitabdan fərqli olaraq, rəqəmsal sənəd ilə insan arasında vasitəçi olan kompüter və rəqəmsal informasiyanın daşıyıcıları mənəvi-texnoloji köhnəlməyə az məruz qalsınlar? Milli rəqəmsal yaddaşımızı necə sığortalayaq?

Mərkəzi Elmi Kitabxana bu nigaran suallara cavabların axtarışındadır. MEK heyəti daim yenilənən MRY siyahılarına tək Azərbaycan deyil, xarici kitabxanalar və arxivlərdə mühafizə olunan sənədlərin daxil edilməsi üçün vahid kataloqlaşdırma qaydalarının tətbiqi, rəqəmsal formatın standartlarına uyğun olması, metadaların saxlanılması, rəqəmsal formatın mənəvi köhnəlməsinin qarşısının alınması, rəqəmsal materialın yenilənməsi və miqrasiyaya hazırlanması, rəqəmsal formatın etibarlı qorunması və ehtiyat serverləri ilə təmin edilməsi, milli yaddaş elektron kataloqun dünya kataloquna birləşdirilməsi, rəqəmsal bazaların vahid dünya "bulud" serverlərində birləşdirilməsi üzərində çalışır.

İnanırıq ki, Azərbaycan kitabxana-informasiya məkanında mövcud resurslar birləşdikdə və müasir texnologiyalar əsaslı şəkildə tətbiq edildikdə əlimizdə olan rəqəmsal resursların vahid bazada toplanılması və "gələcəyə hazırlanması" kimi aktual problem öz həllinə yaxınlaşacaqdır.

*Leyla İMANOVA,*
*AMEA Mərkəzi Elmi Kitabxanasının direktoru*



# Balığı at dəryaya...

Atalar məsələdir: "Balığı at dəryaya, balıq bilməsə də, xalıq bilər". Bu atalar sözünü sətri mənada da başa düşmək mümkündür. Belə ki, Dövlət Statistika Komitəsinin rəsmi məlumatına görə, 2017-ci ildə vətəgə əhəmiyyətli balıqların artırılması və mühafizəsi ilə məşğul olan müəssisələr tərəfindən təbii su hövzələrinə və anbarlarına 437,2 milyard balıq körpəsi buraxılıb. Onların 423,1 milyonu çəkikimilər, 8,4 milyonu nərəkimilər, 5,5 milyonu bitki ilə qidalanan balıqlar, 0,2 milyonu qızıl balıqlardır.

Ümumiyyətlə, müasir dünya iqtisadiyyatında su hövzələrində balıq ehtiyatlarının süni yolla artırılması və bərpası, müxtəlif balıq növlərinin yetişdirilməsi, eləcə də onların mühafizəsi əhalinin ərzaq məhsulları ilə davamlı təminatına yönəlmiş vacib tədbirlərdən sayılır. Akvakulturanın yaranma tarixi minilliklərlə ölçülür. Dəniz akvakulturası Yaponiya, Cin, Filippin və İndoneziyada daha geniş inkişaf etmişdir. Yaponiya hələ XVII əsrdə dəniz ilbizlərini yetişdirir, sualtı plantasiyalardan 10 min tonlarla dəniz yosunu yığırdı.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Proqramının (FAO) statistik məlumatlarına görə, dünya üzrə adambaşına düşən balıq istehlakının orta illik göstəricisi 18 kiloqramdır. Ən yüksək orta göstərici (60 kq-dan çox) Cənub-Şərqi Asiya regionunda (Yaponiya, Çin, Vyetnam və Tailandda 100 kq-dan artıq) qeydə alınıb. Azərbaycanda isə adambaşına düşən orta illik balıq istehlakı 2009-cu ilədək 2 kiloqrama yaxın olub. Amma son illər bu göstərici artaraq 7 kiloqrama çatıb.

Azərbaycanda da akvakulturanın tarixi əsrdən çoxdur. İlk dəfə 1901-ci ildə Kür çayında yetkin kürüdən süni mayalanma yolu ilə sürfələr əldə edilib və 300 balıq yetişdirilib. 1912-ci ildə Bakı ixtioloji laboratoriyası yaradılıb. Sovet hakimiyyətinin ilk illərində Azərbaycanda Xəzər qızılbalığı ilə yanaşı, xəşəm, sıf, şəmayı və poru cincli balıqların törədiciləri tədarük edilib və onların süni artırılması həyata keçirilib. 1936-cı ildə Kür çayı üzərində Nərə Balıqartırma zavodu tikilib. 1954-cü ildə isə nərəkimilərin süni artırılması sahəsində dünyada ilk nərə balıqartırma zavodu - Kür Təcrübi Nərə Balıqartırma Zavodu istifadəyə verilmişdir.

Onu da qeyd edək ki, Azərbaycanda Xəzər dənizinin bioloji sərvətlərinin qorunması istiqamətində kompleks tədbirlər uzun illər ərzində davamlı surətdə həyata keçirilir. Xəzər dənizinin cənubunda balıqçılığın taleyi həmişə Kür çayı ilə sıx bağlı olmuşdur. Belə ki, bu su hövzəsi il boyu, hətta qış fəslində belə, qiymətli vətəgə balıqlarının çaya daxil olmasına və nəsil verməsinə imkan yaradır.

2017-ci ildə vətəgə əhəmiyyətli balıqların artırılması və mühafizəsi işlərinin yerinə yetirilməsinə təxminən 3,1 milyon manat vəsait xərclənmişdir ki, bu da əvvəlki ildəkindən 5,9 faiz çoxdur. Xərclənən vəsaitin 91,8 faizi süni balıqartırma müəssisələrinin fəaliyyətinə, 8,1 faizi balıqçılıq təsərrüfatları üzrə meliorasiya tədbirlərinin həyata keçirilməsi işlərinə xərclənmişdir.

Balıq və digər bioloji resurslardan istifadə qaydalarına müvafiq olaraq, Azərbaycanda 2017-ci ildə 136 fiziki və hüquqi şəxsə balıq ovu üçün verilmiş 1024,9 ton kvotaya qarşı 964,9 ton balıq ovlanmışdır ki, bu da 2016-cı ildəkindən 30,5 faiz artıqdır. Ovlanmış balığın demək olar ki, böyük əksəriyyəti - təxminən 965 tonu kilkə, 100 tonu kütümün payına düşür. Eyni zamanda müəyyən qədər siyənək, kefal, çəki, çapaq, şamayı və s. balıqlar da ovlanmışdır. Ümumilikdə ölkə üzrə 2017-ci ildə hüquqi və fiziki şəxslər tərəfindən 64 min tona yaxın balıq ovlanmışdır.

Statistikaya görə, Azərbaycanda göl və nohur balıqçılığı ilə məşğul olan fiziki şəxslərin sayı 2009-cu ildə 54-dən 2010-cu ildə 80-ə, 2015-ci ildə 157-yə çatmışdır. 2009-cu ildə göl və nohurların səthinin sahəsi 594 hektar idisə, bu rəqəm 2015-ci ildə 1771 hektar olmuşdur. 2009-cu ildə tutulmuş (ovlanmış) təzə balığın miqdarı 183 ton olmuşdursa, 2015-ci ildə 561 ton təşkil etmişdir. Azərbaycanda qızılxallı balığın yetişdirilməsi 2009-2015-ci illərdə təxminən 5 dəfə artaraq 57 tondan 304 tona çatmışdır. Ölkəmizin unikal təbiəti, gur dağ çayları qızılxallı balığın istehsalında daha böyük nəticələrə nail olmağa imkan yaratmışdır.

Göl balıqçılığının sürətli inkişafına nail olmaq üçün balıq yeminin ölkədə istehsal olunması vacib idi. Neftçala Sənaye Zonasında Azərbaycanda ilk balıq yemi istehsalı zavodunun yaradılması da bu məqsədə xidmət edir. Ümumi dəyəri 12 milyon manat olan layihənin reallaşması üçün dövlət tərəfindən 5,9 milyon manat güzəştli kredit ayrılmışdır. Zavodun sənaye zonasında yaradılmasının təşkili isə ilkin investisiya xərclərinə təqribən 30 faizədək qənaət etməyə imkan vermişdir. İllik istehsal gücü 25 min ton olan zavodda Almaniya, Avstriya və Hollandiyanın aparıcı şirkətlərindən alınmış avadanlıqlar quraşdırılmışdır. Neftçaladan başqa digər rayonlarda da sənaye üsulu ilə balıqçılığın inkişafına güclü təkan verilməsində bu zavod ciddi rol oynayacaq.

Göl və nohur balıqçılığının inkişafı heç bir ekoloji fəsadlara səbəb olmur, əksinə, şirin su hövzələrinin sayının artmasına, floranın və faunanın zənginləşməsinə şərait yaradır, ekoloji tarazlığı qoruyur. Təsadüfi deyil ki, dağ çaylarında qızılxallı balıq yetişdirən göllər yeni istirahət ünvanları kimi həm yerli, həm də xarici turistləri cəlb edir. Balıq yemi istehsal edən zavod isə geniş istehlak olunan balıq növləri istehsalını stimullaşdırmaqla yanaşı, balıq yemi üçün Gürcüstana, Türkiyəyə üz tutan sahibkarların işini xeyli asanlaşdırır.

Məlumdur ki, Azərbaycanda balıq və digər su bioresurslarının artırılması, yetişdirilməsi, bərpası və mühafizəsi ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi (ETSN) məşğul olur. Ölkəmizdə Xəzərin bioresurslarının idarə edilməsi ETSN-in Su Hövzələrində Bioloji Resursların Artırılması və Mühafizəsi Departamenti, dəniz bioresurslarının sistemli tədqiqatları ETSN-in tabeliyində olan Azərbaycan Elmi-Tədqiqat Balıqçılıq Təsərrüfatı İnstitutu tərəfindən həyata keçirilir. Hazırda nazirliyin Su Hövzələrində Bioloji Resursların Artırılması və Mühafizəsi Departamentinin nəzdində balıq ehtiyatlarının artırılması ilə 12 balıqartırma müəssisəsi məşğul olur. Bunlardan 4-ü nərə, 3-ü qızıl balıq və forel, 5-i çəkikimi balıq körpələrinin artırılması üzrə ixtisaslaşıb. Xəzər regionunda ən iri belə müəssisə illik istehsal layihə gücü 15 milyon balıq körpəsi olan 2003-cü ildə istismara verilmiş Xıllı Nərə Balıqartırma Zavodudur. Bu müəssisə Azərbaycanda Xəzər dənizinin unikal bioresurslarının qorunması üzrə də vacib işlər görür. ETSN-in Elmi-Tədqiqat Balıqçılıq Təsərrüfatı İnstitutu isə nərə cinsli və digər vətəgə əhəmiyyətli balıqların ehtiyatının qiymətləndirilməsi və ovlanmasının tənzimlənməsi üçün hər il dəniz elmi-tədqiqat ekspedisiyaları (bioloji monitorinq) keçirir.

Ümumiyyətlə, Xəzər regionunda akvakulturanın inkişaf etdirilməsi və əhalinin yeni fəaliyyət növü olan bu sahəyə cəlb olunması həm Xəzər dənizində ekoloji vəziyyətin yaxşılaşmasına, həm də brakonyerliyin azalmasına xidmət edir. Bu sahənin inkişafında həm dövlət, həm də sahibkarlar maraqlıdır. Sevindirici hal odur ki, əmtəə akvakulturasının məhsul həcmi dünya üzrə artmaqdadır. Hazırda ümumi balıq ovu və istehsalının 70 faizdən çoxunu özündə birləşdirən akvakultura balıqçılığı sürətlə inkişaf etməkdədir və Azərbaycan da bu inkişafdan kənarda deyil.

*Bahadur İMANQULİYEV,*
*"Azərbaycan"*

# Mingəçevir Turizm Kolleci beynəlxalq turizm sərgisində uğurla təmsil olunmuşdur




Mingəçevir Turizm Kolleci bu günlərdə ölkə paytaxtında ənənəvi olaraq keçirilən Azərbaycan Beynəlxalq turizm və səyahətlər sərgisində (AİTF-2018) uğurla təmsil olunmuşdur.

Sərgidə 20 ölkənin 277 şirkət və təşkilatı iştirak edirdi. 90-dan çox turizm istiqamətli uğur və yeniliklərin təqdim olunduğu sərgiyə Azərbaycan ev sahibi kimi 13 milli və regional ekspozisiya ilə qatılmışdır. Belə bir nüfuzlu beynəlxalq sərgidə Mingəçevir Turizm Kollecinin sayca beşinci dəfə təmsil olunması, heç şübhəsiz, bu tanınmış təhsil müəssisəsində tədris-təlim işlərinin yüksək səviyyədə qurulmasının məntiqi nəticəsidir. Mingəçevir Turizm Kolleci illərdir ki, yerli və beynəlxalq əhəmiyyətli tədbirlərdə, təhsil layihələrində, konfrans, sərgi və festivallarda fəal iştirak edir. Kollektiv beynəlxalq əlaqələrini daha da genişləndirmək üçün daim səmərəli axtarışlar aparır, məqsədyönlü tədbirlər həyata keçirir. Bunun bir nümunəsi də Rusiya Federasiyasının ali məktəbləri və kollecləri ilə yaradılan yeni işgüzar əlaqələrdir. Böyük Britaniya, Rumıniya, Fransa, Almaniya, Qazaxıstan və Belarus təhsil müəssisələri ilə olan əməkdaşlıq siyahısına artıq Sankt-Peterburqun Qonaqpərvərlik İnstitutu və Sankt-Peterburq Turizm və Hotel Servisi Kollecinin adları da daxildir.

Sərginin açılış günü mədəniyyət və turizm naziri Əbülfəs Qarayev və sərgi rəhbərləri ilə Mingəçevir Turizm Kollecinin təmsilçilik guşəsində keçirilən görüş zamanı nazir qonaqlara kollecin son nailiyyətləri barədə məlumat vermiş, perspektivlərdən danışmışdır. Mingəçevir Turizm Kollecinin direktoru, iqtisad elmləri doktoru, professor Əyyub Əyyubov kollecin beynəlxalq əlaqələri barədə söhbət açaraq Sankt-Peterburq Qonaqpərvərlik İnstitutu və Sankt-Peterburq Turizm və Hotel Servisi Kolleci ilə mövcud işgüzar əlaqələrin qurulduğunu diqqətə çatdırmış, bu əməkdaşlığın hər iki tərəf üçün faydalı olduğunu vurğulamışdır. Eyni zamanda Sankt-Peterburq Turizm və Hotel Servisi Kollecinin direktoru Svetlana Antonova da sərgidən alınan təəssüratlarını və Mingəçevir Turizm Kolleci ilə qurulan əməkdaşlığın perspektivləri barədə fikirlərini paylaşmışdır.

Beynəlxalq turizm və səyahətlər sərgisində Mingəçevir Turizm Kolleci audio, video, foto materiallar, nəzəri və təşviqat xarakterli kitablar, bukletlər və maraqlı əl işlərindən ibarət zəngin ekspozisiya ilə təmsil olunurdu. Sərginin gedişində milli geyimli kollec tələbələri milli musiqi alətlərinin müşayiəti ilə klassik musiqi parçaları və maraqlı qiraət nümunələri təqdim etmişdilər. Sərgi iştirakçılarının qəlbində xoş ovqat və zəngin təəssüratlar yaradan bu ekspozisiyanın ərsəyə gəlməsində kollecin bütün tələbə və müəllim heyətinin, xüsusilə ingilis dili, informatika və dekorativ tətbiqi incəsənət ixtisası müəllimləri Gülşən Nəsirovanın, Eldar Dərişovun və Vüsalə Zeynalovanın, eləcə də istedadlı tələbələr Aytac Abbasovanın, Orxan Əliyevin, Xatun Hacıyevanın və Gülməkan Fətəliyevanın böyük əməyi vardır. Onlar dünyanın dörd bir yanından gəlmiş qonaqlar və yerli ziyarətçilərlə çoxsaylı maraqlı görüşlər keçirmiş, məzmunlu söhbətlər aparmışlar. Bu görüşlər kollecə olan beynəlxalq marağın daha da artmasına əhəmiyyətli təsir göstərmişdir. Bir sıra beynəlxalq turizm təşkilatları Mingəçevir Turizm Kollecində xarici tələbələrin təhsil almaq imkanlarını nəzərdən keçirmiş, nüfuzlu beynəlxalq şirkətlərlə tələbə istehsalat mübadiləsi barədə ilkin razılaşmalar əldə edilmişdir. Belə təşkilatlardan biri də Şri-Lankanın tanınmış turizm təşkilatıdır. Şri-lankalı təmsilçilər Mingəçevir Turizm Kolleci tələbələrini öz ölkələrində təcrübə - istehsalat mübadiləsinə dəvət etmişlər.

Mingəçevir Turizm Kolleci üçün beynəlxalq sərginin ən möhtəşəm və unudulmaz anı isə dövlət başçısı ilə kollec üçün ayrılmış guşədə keçirilən görüşdür. Sərginin ikinci günü ekspozisiyalarla tanış olan Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyeva, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva Mingəçevir Turizm Kollecinin təmsilçilik guşəsini ziyarət etmişlər. Nazir Əbülfəs Qarayev kollektivin təhsildə və beynəlxalq əməkdaşlıq sahəsində əldə etdiyi nailiyyətlər, həmçinin ən son olaraq hazırda Rusiyanın iki nüfuzlu təhsil ocağı olan - Sankt-Peterburq Qonaqpərvərlik İnstitutu və Sankt-Peterburq Turizm və Hotel Servisi Kolleci ilə Mingəçevir Turizm Kollecinin işgüzar əməkdaşlığı barədə dövlət başçısına məlumat vermişdir. Kollecin direktoru professor Əyyub Əyyubov təhsil müəssisəsində hazırda 12 ixtisas üzrə kadr hazırlığı aparıldığını və 6 mindən çox məzunun turizm sənayesinin müxtəlif sahələrində çalışaraq ümumi inkişafa töhfə verdiyini bildirmişdir.

Kollecin direktoru, professor Əyyub Əyyubov bizimlə söhbətində dedi:

- Prezident İlham Əliyevin yeritdiyi müdrik siyasət sayəsində doğma Azərbaycan sürətlə inkişaf edir, sosial-iqtisadi, idman, mədəniyyət sahəsində böyük uğurlara imza atılır. Azərbaycanı beynəlxalq turizm mərkəzinə çevirmək üçün dövlət səviyyəsində görülən tədbirlər məmnunluq doğurmaqla yanaşı, üzərimizə böyük məsuliyyət qoyur. Biz bütün səy və bacarığımızı səfərbər edərək çalışırıq ki, ölkənin turizm sənayesi üçün müasir dövrün tələblərinə cavab verən yüksək mədəni səviyyəyə malik kadrlar yetişdirək. Kollecimiz kifayət qədər güclü maddi-texniki bazaya malikdir. Beynəlxalq əlaqələrimizin sürətlə genişlənməsi, mövcud imkanlar qarşıya qoyulmuş vəzifələri şərəflə yerinə yetirmək, uğrunda çalışdığımız hədəflərə çatmaq üçün böyük stimul verir.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Səhiyyə Nazirliyi Tibbi Reabilitasiya Xəstəxanası 2018-ci ildə içməli və texniki suyun daşınması və müəssisənin su anbarına tökülməsi üzrə işlərin satın alınması məqsədilə

# açıq tender elan edir

**Tender 2 (iki) LOT üzrə keçirilir:**

**LOT-1 - İçməli suyun daşınması** üzrə işlərin satın alınması
**LOT-2 - Texniki suyun daşınması** üzrə işlərin satın alınması

**Tenderdə iştirak haqqı:**
**LOT-1 - 200 manat**
**LOT-2 - 200 manat**

Tibbi Reabilitasiya Xəstəxanası

| | |
|---|---|
| **VÖEN:** | **1200456151** |
| **Hesab:** | **AZ39CTRE00000000000002127405** |
| **Dövlət Xəzinədarlığı** | **Agentliyi** |
| **Kod:** | **210005** |
| **VÖEN:** | **1401555071** |
| **Müxbir hesab:** | **AZ41NABZ01360100000000003944** |
| **SWIFT:** | **CTREAZ22** |

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Mərdəkan qəsəbəsi, B.Əliyev küç., 11 ünvanında yerləşən Tibbi Reabilitasiya Xəstəxanasının inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Əlaqələndirici şəxs - Cəmilə Qurbanova (telefon: 454-07-18).

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az). İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 24 may 2018-ci il saat 16:00-a qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 04 iyun 2018-ci il saat 16:00-a qədər Bakı şəhəri, Bakıxanov küç., 13 ünvanında Ümumi İşlər İdarəsinə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 07 iyun 2018-ci il tarixində saat 16:00-da Mərdəkan qəsəbəsi, B.Əliyev küç., 11 ünvanında yerləşən Tibbi Reabilitasiya Xəstəxanasının inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştitrak edə bilərlər.

***Tender komissiyası***

---

*Təkrar*

## "Azərişıq" ASC 2018-ci ildə tələb olunan avtomobil ehtiyat hissələrinin satın alınması üzrə

### *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

**LOT-1** Avtomobil ehtiyat hissələrinin satın alınması - **400 manat**

**"Azərişıq" ASC**
**VÖEN: 9900069391**
**Hesab No: AZ83AIIB33020029441802068118**
**Benefisiarın Bankı: "KapitalBank"ın Gənclik filialı**
**Kod: 200189**
**VÖEN: 9900003611**
**Müxbir hesab No: AZ37NABZ01350100000000001944**
**SWIFT Code: AIIBAZ2X**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanında yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

*Əlaqələndirici şəxs - Rövşən Əsgərov (telefon: 440-39-93; daxili: 22-33).*

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 ədəd əsli və 1 ədəd surəti) tərtib olunmalıdır (xarici dildə olan məlumatlar Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (***www.tender.gov.az***).

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **27 aprel 2018-ci il saat 15:00-a** qədər, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə **07 may 2018-ci il saat 15:00-a** qədər Bakı şəhəri, Ə.Qayıbov küçəsi, 8 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilmiş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **08 may 2018-ci il tarixdə saat 16:00-da** Ələsgər Qayıbov küç., 8 ünvanında - "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştitrak edə bilərlər.

***Tender komissiyası***

---

## Gəncə şəhər İHB tabeliyində "Gəncə Nəqliyyatı" MMC 2018-ci il üçün

### kotirovka sorğusu elan edir

**Maddə 311210.** Nəqliyyat vasitələrinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir. Maraqlanan təşkilatlar **022 256 05 06** nömrəli telefonla əlaqə saxlaya bilərlər. Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 29.04.2018 ci il saat 11:00-dək qəbul olunur.

**Ünvan:** Gəncə şəhəri, Heydər Əliyev meydanı, İnzibati bina, 434.

***Tender komissiyası***

---

## Elan

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi "Sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyası" adlı təkrar müsabiqə keçirir.

Müsabiqədə qeyri-hökumət təşkilatları iştirak edə bilərlər. İştirak haqqı yoxdur.

Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanına yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri Salatın Əsgərova küçəsi, 85 ünvanına 03 may 2018-ci il saat 18:00-dan gec olmayaraq təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 04 may 2018-ci il saat 11:00-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində keçiriləcəkdir.

Əlaqə telefonu: (012) 596-44-09

***Müsabiqə komissiyası***

---

## Azərbaycan Respublikasının Mərkəzi Bankı

### kotirovka sorğusu elan edir

1. Mərkəzi Bankın regional mərkəzlərinə məxsus inzibati binalarda təmir-bərpa işlərinin görülməsi.
2. Mərkəzi Bank tərəfindən geyim ləvazimatlarının satın alınması.

1-ci məsələ üzrə iştirak haqqı 30 manatdır. İştirak etmək istəyən iddiaçılar iştirak haqqını Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına köçürməlidirlər:

| | |
|---|---|
| **VÖEN:** | **9900071001** |
| **M/h:** | **AZ74NABZ01451700000000001944** |
| **H/h:** | **AZ42NABZ01452700000000009944** |
| **Kod:** | **501004** |
| **SWIFT:** | **BIKNABZAZ2C** |

Kotirovka sorğuları üzrə əsas şərtlər toplusunu əlaqələndirici şəxsdən əldə etmək olar (1-ci məsələ üzrə iştirak haqqının ödənilməsini təsdiq edən bank arayışını təqdim etməklə).

Kotirovka sorğuları üzrə möhürlənmiş və imzalanmış təklif zərfləri 01 may 2018-ci il saat 17:00-dək əlaqələndirici şəxs tərəfindən qəbul ediləcək və 02 may 2018-ci il saat 15:00-da Mərkəzi Bankın inzibati binasında açılacaqdır.

Kotirovka sorğuları üzrə əlaqələndirici şəxs - Elvin Şirdanov. Telefon: 493 11 22 (daxili 428).

***Tender komissiyası***

---

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Mərkəzi Bankının Mərkəzi ofisinin və regional ərazi idarələrinin inzibati binalarında quraşdırılmış yanğınsöndürmə qurğularına, sistem və avadanlıqlarına texniki xidmətin satın alınması (LOT 1), Azərbaycan Respublikası Mərkəzi Bankının Mərkəzi ofisinin və regional ərazi idarələrinin inzibati binalarında istismar olunan isitmə-soyutma-havalandırma, su-kanal sistem və avadanlıqlarına texniki xidmətin və müvafiq sahəyə uyğun zəruri iş və mal-materialların satın alınması (LOT 2), Azərbaycan Respublikası Mərkəzi Bankının Mərkəzi ofisinin və regional ərazi idarələrinin inzibati binalarında quraşdırılmış elektrik avadanlıqlarına texniki xidmətin və elektrik mallarının satın alınması (LOT 3) və Azərbaycan Respublikası Mərkəzi Bankına məxsus nəqliyyat vasitələrinə texniki xidmətin satın alınması (LOT 5) ilə əlaqədar elan edilmiş açıq tender üzrə Tender komissiyasının 16 mart 2018-ci il tarixli qərarı ilə LOT 1 üzrə "Safe Life" MMC, LOT 2 üzrə "İNPEKS.N" MMC, LOT 3 üzrə "İNPEKS.N" MMC və "BLG" MMC və LOT 5 üzrə "İnter Kontinental" firması qalib elan edilmişdir. Qalib şirkətlərlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

---

## B İ L D İ R İ Ş

Mərkəzi Bankın inzibati binasının 1-ci (giriş) mərtəbəsində ulu öndər Heydər Əliyevin büstü ətrafı sahənin hazırlanması ilə bağlı kotirovka sorğusu, Mərkəzi Bankda ulu öndər Heydər Əliyevin 95 illik yubileyi və Azərbaycan Cümhuriyyətinin 100 illiyi ilə əlaqədar tədbirin təşkil edilməsi ilə bağlı kotirovka sorğusu, "Azərbaycan" qəzetinin 13 mart 2018-ci il tarixli nömrəsində dərc edilmiş Mərkəzi Bankda istismarda olan kompüter, server və rabitə avadanlıqlarının ehtiyat hissələrinin satın alınması ilə bağlı kotirovka sorğusu və Mərkəzi Bankın ofislərində avtomatlaşdırılmış telefon stansiyalarına servis xidməti göstərilməsi ilə bağlı kotirovka sorğusu üzrə Satınalmalar Komissiyasının 04 aprel 2018-ci il tarixli qərarına əsasən müvafiq olaraq 1-ci məsələ üzrə "Dəvəli" MMC, 2-ci məsələ üzrə "Amapola Exclusive Events" MMC, 3-cü məsələ üzrə "Bakinity Distribution" MMC və "N-Link Intelligent Solutions" MMC və 4-cü məsələ üzrə isə "ANTR" MMC qalib elan edilmişlər. Qalib şirkətlərlə müvafiq satınalma müqaviləsi imzalanmışdır. Mərkəzi Bank kotirovka sorğusuna maraq göstərdiyinə görə bütün iddiaçılara öz təşəkkürünü bildirir, onlara işlərində müvəffəqiyyətlər arzulayır.

***Tender komissiyası***

---

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən "Azərbaycan" qəzetinin 13.03.2018-ci il və 06.04.2018-ci il tarixli saylarında dərc edilmiş "Mərkəzi Bank üçün hidravlik yükdaşıyan arabaların satın alınması" ilə bağlı məsələ və 06.04.2018-ci il tarixli nömrəsində dərc edilmiş "Mərkəzi Bankın inzibati binalarında kovrolit örtüyün mexaniki üsulla sulu-kimyəvi təmizlənməsi" ilə bağlı məsələ satınalmalar komissiyasının 18 aprel 2018-ci il tarixli qərarı ilə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə uyğun olaraq baş tutmamış hesab edilmişdir.

***Tender komissiyası***

---

# Beynəlxalq aləm

## HADİSƏLƏR, FAKTLAR

## Türkiyədə fövqəladə vəziyyət rejimi üç ay uzadıldı



Türkiyə parlamenti hökumətin fövqəladə vəziyyət rejiminin daha üç ay müddətinə uzadılması barədə qərarını təsdiq etmişdir. Sənəddə 2018-ci il aprelin 19-dan başlayaraq 90 gün müddətinə fövqəladə vəziyyət rejiminin uzadılması nəzərdə tutulur. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Xatırladaq ki, 2016-cı il iyulun 21-də, ölkədə dövlət çevrilişinin qarşısı alındıqdan bir neçə gün sonra Türkiyədə üç ay müddətinə fövqəladə vəziyyət rejimi tətbiq edilmişdir.

Həmin il iyulun 15-dən 16-na keçən gecə FETÖ terrorçu təşkilatı ilə əlaqəli bir qrup hərbi qulluqçu ölkədə hakimiyyəti ələ keçirməyə cəhd etmişdir. Türkiyə rəhbərliyi, hüquq mühafizə orqanları və sıravi vətəndaşların səyi nəticəsində xuntanın hərəkətlərinin qarşısı qətiyyətlə alınmışdır.

## Cənubi Koreya KXDR-in sülh müqaviləsi bağlamaq tələbini dəstəklədi



Cənubi Koreya Prezidenti Mun Çje İn KXDR-in əvvəlki barışıq sazişi əvəzinə sülh müqaviləsi bağlamaq təklifini dəstəkləmişdir. Bu barədə "RİA Novosti" agentliyi xəbər verir.

Mun Çje İn Seulda yerli kütləvi informasiya vasitələrinin rəhbərləri qarşısında çıxış edərkən demişdir: "65 il davam edən barışıq rejiminə son qoymağın vaxtı çatmışdır. Müharibənin dayandırılması haqqında bəyannamə vasitəsilə sülh sazişinin imzalanmasına doğru hərəkət etmək lazımdır".

Xatırladaq ki, 1950-1953-cü illər Koreya müharibəsindən sonra KXDR və ABŞ formal olaraq müharibə vəziyyətindədirlər. Çünki onların arasında yalnız barışıq sazişi imzalanmışdır. Vaşinqton indiyədək Pxenyanın sülh sazişi bağlamaq cəhdlərini rədd etmişdir.

## Qırğızıstan Prezidenti hökuməti istefaya göndərdi

Qırğızıstan Respublikasının Prezidenti Sooronbay Jeyenbekov "Qırğızıstan Respublikası hökumətinin istefası haqqında" fərman imzalamışdır. Bu barədə dövlət başçısının mətbuat xidməti məlumat vermişdir.

Bundan bir neçə saat əvvəl Qırğızıstan parlamenti Baş nazir Sapar İsakov hökumətinə etimadsızlıq bildirmişdir. Müvafiq təşəbbüsü 101 deputat dəstəkləmiş, 5 deputat əleyhinə səs vermişdir.

Hökumətə etimadsızlıq barədə təşəbbüsü Qırğızıstan parlamentinin 120 deputatının 40-dan çoxu irəli sürmüşdür. Bu isə məsələnin müzakirəyə çıxarılması üçün kifayət etmişdir. Səhər saatlarında parlamentin konstitusiya qanunvericiliyi üzrə komitəsi deputatların təşəbbüsünü dəstəkləmişdir.

Xatırladaq ki, Baş nazir Sapar İsakovun rəhbərlik etdiyi hökumət ötən ilin avqustunda təyin olunmuşdu. Aprelin 17-də parlamentdə müxalifət hökumətin illik hesabatını qeyri-məqbul saymışdır. Parlament çoxluğu koalisiyası hökumətə etimadsızlıq haqqında qərarın siyasi motivli olduğunu bildirmişdir.

## Yava adasında zəlzələdə ölənlər və yaralananlar var



İndoneziyanın Yava adasında baş vermiş zəlzələ nəticəsində 3 nəfər həlak olmuş, 20 nəfərdən çox adam yaralanmışdır. Yeraltı təkanların gücü Rixter cədvəli ilə 4,4 bal təşkil etmişdir. Bu barədə "İnterfaks" agentliyi xəbər verir. Zəlzələnin güclü olmamasına baxmayaraq, təkanlar azı 300 yaşayış evini dağıtmışdır.

TASS agentliyinin xəbərinə görə, Mərkəzi Yava əyalətinin Bancarneqara şəhərinin ətrafında yüzlərlə ev, məktəb və məscid dağılmışdır. İki mindən çox yerli sakin xüsusi mərkəzlərə köçürülmüşdür.

---

***ƏMDK yanında DƏDRX tərəfindən "Silk Way Aviaşirkəti" MMC-yə Bakı şəhəri, Şüvəlan qəsəbəsi, L.Starçuk küçəsi, ev 96/320 ünvanına dair verilmiş MA seriyalı 0072643 nömrəli Hüquqların Dövlət Qeydiyyatı haqqında Daşınmaz Əmlakın Dövlət Reyestrindən Çıxarış itdiyi üçün etibarsız sayılır.***

---

**A L L A H   R Ə H M Ə T   E L Ə S İ N !**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının rəhbərliyi və kollektivi AAK-ın Sosial-iqtisadi və texnika elmləri şöbəsinin müdiri, professor Arif Ələkbərova əmisi

**MAYIL ZEYNALABDİN OĞLU ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Milli Məclisin deputatı

**ASTAN ŞAHVERDİYEVİN**

vəfatından kədərləndiklərini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---


**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*

***e-mail:***
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru

www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-63-82,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Xalqla əlaqə şöbəsi - 539-84-41,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60,
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoinformasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

**Qeydiyyat nömrəsi 1**

"Azərbaycan " qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan " nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

**Tiraj 8810**
**Sifariş 1107**